# ƏSİR-GİROV GÖTÜRÜLMÜŞ AZƏRBAYCAN VƏTƏNDAŞLARININ ERMƏNİSTAN VƏ İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRDƏ SAXLANILDIĞI MƏNTƏQƏLƏR

# THE POINTS WHERE AZERBAIJANI CITIZENS WHO WERE TAKEN PRISONERS AND HOSTAGES WERE KEPT IN ARMENIA AND OCCUPIED TERRITORIES.




Abovyan şəh.
Ararat
Araçadzor k. (Ağdərə)
Artik k.
Ağdam
Ağdam, Şahbulaq k.
Ağdərə, Vəng k.
Aşağı Veysəlli k. (Füzuli)
Berd rayonu
Vaqıas k. (Ağdərə)
Vardenis
Vəng k. (Ağdərə)
Qafan
Qırmızı Bazar k.
Daroqert k. (Eçmiadzin)
Daşbulaq k. (Əsgəran),
Drambon k. (Ağdərə)
Dəhraz k.
Edilli (Hadrut)
Erebuni şəh. (Ermənistan)
Erebuni rayonu (hospital)
Zəngilan
İcevan
Yerevan
Yerevan (DTK)
Yerevan (həbsxanası)
Yerevan (hərbi polis)
Keçəldağ k. (Şuşa)
Kirovakan
Kuropatkino k. (Xocavənd)
Kəlbəcər
Kəlbəcər, Daşbulaq k.
Kərkicahan k. (Xankəndi)
Leninakan
Ləmbəli k. (Noyemberyan)
Madagiz k. (Ağdərə)
Malxələfli k. (Laçın)
Meğri
Muşkapat k. (Xocavənd)
Mısmına k. (Xocavənd)
Məlikcanlı k. (Xocavənd)
Noyemberyan
Oktemberyan
Paravakar k. (Berd r/n)
Pircamal k. (Əsgəran)
Razdan,
Sisian
Spitak
Spitak (2-ci kolon)
Spitak (türmə № 8)
Spitak (həbsxanası),
Stepanavan
Tuğ k. (Füzuli)
Füzuli
Füzuli, Çartaz k.
Xanadzax,
Xankəndi
Xankəndi (alay),
Xankəndi (batalyonda)
Xankəndi (baş qərargah)
Xankəndi (kəşfiyyat rotası)
Xankəndi (məktəb binası)
Xankəndi (uşaq bağçası)
Xankəndi (hospital)
Xankəndi (həbsxanası)
Xankəndi MS izolyatoru
Xankəndi polis idarəsi
Xankəndi, "Çor" alayı
Xanlıq k. (Qubadlı)
Xocavənd
Xocalı
Çaytumas k. (Qubadlı)
Çartaz k. (Xocavənd)
Şuşa
Şuşa (avtobaza)
Şuşa (alayda)
Şuşa (polis idarəsi)
Şuşa (sanatoriyası)
Şuşa (türmə)
Şuşa, Xələfli k.
Spitak
Hadrut
Horadiz
Cermuk şəh.
Gorus
Qarabağlı k.
Əsgəran
Əsgəran (qərargah)

Esmira Orucova Esmira Orujova

# Bizi əsirlikdən qurtarın

# Release us from captivity

Bakı-2006

Buraxılışına məsul:

**ELDAR MAHMUDOV**
*Azərbayjan Respublikası əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri*

Responsible person for the issue:

**ELDAR MAHMUDOV**
*Chairman of the State Commission on Prisoners of war, Hostages and Missing persons*

Redaktor:
**MAHİR JAVADOV**

Tərtibçi:
**ESMİRA ORUJOVA**

Editor:
**MAHIR JAVADOV**

Compiler:
**ESMIRA ORUJOVA**

Bizi əsirlikdən qurtarın.
Bakı-Qismət-2006, 680 səh.
ISBN 9952-8058-3-7

Release us from captivity.
Baku-Gismet-2006, 680 pages
ISBN 9952-8058-3-7

Kitabda Ermənistanın işğalçılıq siyasəti nətijəsində əsir və girov götürülmüş Azərbayjan vətəndaşlarının işğal altında olan ərazilərdə və Ermənistanda saxlandıqlarını, əzab və işgənjələrə məruz qaldıqlarını təsdiqləyən şahid ifadələri, habelə beynəlxalq təşkilatların və qarşı tərəfin nümayəndələrinin tərtib etdikləri sənədlər əsasında toplanmış faktlar oxujuya təqdim olunur.

The book presents to the reader facts collected on the basis of witness evidences that prove keeping Azerbaijani citizens who were captivated and taken as hostages in the occupied territories and in Armenia, put these citizens to torture and tyranny as the result of occupation policy of Armenia, as well as on the basis of documents compiled by international organizations and representatives of the opposite side.

© Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası.

## TƏRİTİBÇİDƏN

Qədim bakılı nəslindənəm. Bakıda doğulub, burada boya-başa çatmışam. Heyf ki,Qarabağı görmək mənə qismət olmayıb. Azərbaycanın bu dilbər, cənnət guşəsi haqda təsəvvürüm şəkil və tablolardan, televiziya süjetlərindən, bir də qarabağlı xanımların göz yaşları, həsrət dolu xatirələrindən formalaşıb.

2004-cü ildə,Şuşanın işğalı günü ilə bağlı qadınların Qarabağ forumunda çıxışımı "Ulu Tanrı millətimə Araz boyda dərdi azmış kimi, əbədi Qarabağ,qaçqın,köçkün,əsir,girov dərdi də verdi" sözləri ilə başlayan zaman ziyalılığına və xanımlığına hörmət bəslədiyim ali məktəb müəllimi sözümü kəsib, mənə irad tutdu. O, torpaqlar qayıdarsa, Qarabağ dərdinin də sağalacağını dedi.

Ancaq yox! Məncə Qarabağ geri qaytarılsa belə, qərinələr, əsrlər keçsə də əsir, girov, itkin dərdi xalqımın qan yaddaşından silinməyəcək, amansız düşmənin alçaqlıq və naqisliklərini gözləri ilə görmüş,əzab və işgəncələrini vücudlarında hiss etmiş bu ahılların, xanım analarımızın, igid oğlullarımızın, qız-gəlinlərimizin, körpə balalarımızın dərdi ovunmayacaq heç vaxt...

26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni-rus silahlı birləşmələrinin işğalına məruz qalanda Bakı məktəblərindən birində müəllim işləyirdim. Xoca-

## FROM THE COMPILER

I come of old Baku stock. I was born and grew up in Baku. To my regret, I was not fated to see Garabagh. I have got a notion about this splendid, heavenly corner of Azerbaijan from photos, pictures, TV programs and the memories of women from Garabagh, full of tears and anguish.

At the Women's Garabagh Forum which was held in 2004 in commemoration of the day when Shusha was seized I began my speech with the words: "As if not having such a big problem like the Araz issue? the Most High gave our nation eternal Garabagh problem and the great grieves of refugees, settlers, prisoners and hostages". At that moment a very intellectual lady and respected university teacher interrupted my speech and corrected me. She stressed that we would forget our grieves and sorrows provided we got our lands back.

But no! I think even if we get Garabagh back, the sufferings of prisoners, hostages and missing people won't be erased from our nation's memory, the pains and anguish of old men, mothers, brave sons, daughters and children who have become the eye-witnesses of meanness and base-ness of the merciless enemy and have been physically tortured with never abate, even centuries later

On the 26th of February, 1992 the day when Khojali was occupied by the Armenian and Russian military troops, I

lıdan gətirilmiş yaralıların evimizin ətrafındakı xəstəxanalarda yerləşdirildiyini eşidən vaxtdan günüm onların yanında keçirdi. İşdən gələn kimi oğlumu da götürüb xəstəxanalara gedir, saatlarla onların söhbətlərinə qulaq asır, dərdlərinə şərik çıxmağa çalışırdım. Çoxunun ailə üzvlərinin ermənilər tərəfindən əsir götürüldüyünü eşidəndə təəccüb məni bürüyürdü: 20-ci yüzillikdə, kosmos, texnika əsrində insanlar milli zəmində bir-birini qırır, əsir, girov götürür, zülm və işgəncələr verərək öldürür. Özü də bütün bunlar haqdan, ədalətdən bar-bar bağıran dünyanın gözü qarşısında baş verir.

Şagirdim Ələkbərov Fuadın anası - Qarayev adına uşaq xəstəxanasında baş tibb bacısı işləyən Səlimə xanım mənə bir neçə yaralı, qarlı meşələrdə şaxtadan don vurmuş uşaqları,qolu erməni gülləsindən qanqrena olduğu üçün kəsilmiş 8-9 yaşlı oğlanı göstərib,göz yaşlarından boğula-boğula onların valideynlərinin ermənilər tərəfindən girov götürüldüyünü bildirmişdi. Məktəbin pioner otağını boşaldıb, Xocalı yaralılarına yardım etmək üçün qərargah yaratdım. Yuxarı sinif şagirdlərindən növbələr düzəldib, onlara yardım göstərsək də, lakin onlara ən böyük dərd olan erməni əsirliyində qalmış əzizlərinin niskilini bir anlıq da olsa unutdura bilmirdik. O vaxtdan bəri əsir və girov götürülmüş soydaşlarımızın dərdi ürəyimdə qövr edib, mənə rahatlıq vermirdi.

2004-cü ildə Əsir və itkin düşmüş,gi-

worked as a teacher in one of the schools in Baku. Since I had learned about the wounded from Khojali being placed in the hospitals near our house, I began to visit them regu-larly and spent plenty of time there. After work I went to the hospital with my son, listened to the patients and talked with them for hours trying to share their grieves. I was astonished to hear that the majority of them had the members of their families being taken prisoners by Armenians: in the 20th century, the century of space and techniques, people killed each other, take prisoners and hostages, subject others to tortures and then murder them. And all this happens before the very eyes of the world community earnestly calling to truth and justice.

The head nurse of the children's hospital named after Garayev and the mother of my student Alakbarov Fuad - Salima khanum showed me several wounded children who had frozen in the snow forest, the boy of 8-9 years old whose arm was amputated because of the gangrene caused by the Armenian bullet, and sobbing her heart out she told me that their parents had been taken hostages by Armenians. I emptied the pioneer room at the school and set up the headquar-ters in order to help the wounded from Khojali. We gathered all the students in the higher forms together and helped these people in shifts but we could not alleviate and forget their sufferings, help to free their relatives being taken prisoners by Armenians. Since that

rov götürülümüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi Qrupunun hazırladığı "Erməni terroru" albom-kitabını türk dilinə (ixtisasım şərqşünas-türkoloqdur) tərcümə etmək üçün dəvət olundum. Kitabda ermənilər tərəfindən əsir və girov götürülmüş şəxslər haqqında məlumatları gördükdə illərdən bəri məni narahat edən hisslər yenidən baş qaldırdı. İşçi Qrupunun arxivində olan əsir və girov götürülmüş, itkin düşmüş şəxslərə dair sənədlər üzərində tədqiqat işi aparmağı qərara aldım. Məqsədim şahid ifadələri nəticəsində əldə olunmuş materiallar əsasında yığcam məlumatlar toplamaq, müxtəlif dillərə tərcümə etdirib, beynəlxalq ictimaiyyətə,dünyanın aparıcı dövlətlərinə, uydurma erməni soyqırımını dəstəkləyən və müzakirəyə çıxaran parlamentlərə çatdırmaq olub. Şahid materiallarına istinadən milliyətcə azərbaycanlı, mehseti türkü, ləzgi, talış, tat, tatar, rus və ukraynalı olan 790 nəfər Azərbaycan vətəndaşının erməni əsir və girovluğunda saxlanıldığını əks etdirən “Bizi əsirlikdən qurtarın” kitabı rəhbəri olduğum “Həsrət yolu” ictimai birliyinin bu istiqamətdə həyata keçirdiyi ilk addımdır.

Mənə bu işdə böyük köməklik göstərdiyinə görə Əsir və İtkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Eldar Mahmudova dərin minnətdarlığımı bildirirəm.

Xalqımızın bu ağır dərdinə şərik çıxmaq, son həmvətənimizin taleyi məlum olanadək axtarışları davam etdir-



time poign-ant thoughts about our prisoners and hostages have never left my mind and tormented me.

In 2004 I was invited to translate book-album "The Armenian terror" published by he Working Group of State Committee on Prisoners, Hostages and Missing People into Turkish language (my speciality is orientalist-turkologist). While reading this book and acquainting myself with the information about the people being taken prisoners and hostages by Armenians, all those feelings and emotions tormenting me for many years shattered my peace and quiet again. I have decided to carry out a research making use of the materials on prisoners and hostages available in the archives of the Working Group. My purpose was to collect concise information alluding to the materials obtained from the testimonies of witnesses, translate it into different languages, re-port the results to the world community, the leading countries of the world, the parliaments sup-porting and discussing imagine Armenian genocide. Referring to the statements of witnesses I have collected the documents reflecting the fact that 790 Azerbaijan citi-zens of Azerbaijani, Mehseti Turk, Lezghi, Talish, Tat, Tatar, Russian and Ukrainian nationality are still kept in the Armenian captivity in the book □Release us from captivity□ and it□s the first step realized in this direction as a leader of public society □The way of sorrow□.

I would like to express my gratitude to chairman of the State Committee on Priso-

mək məramı ilə yaradılmış "Həsrət yolu" Əsir və Girovlara Kömək İctimai Birliyi adından yer üzünün vicdanlı sülhsevər insanlarına,ictimaii birliklərə hegemon dövlətlərin müvafiq qurumlarına, Avropa təşkilatlarına müraciət edir, erməni vəhşiliyin qurbanlarına çevrilmiş bu insanların əsirlikdən xilas olması üçün səy göstərməyə dəvət edirəm.

ners, Hostages and Missing Persons Eldar Mahmudov the provided help in this work.

I call to share grieves of our people and continue to search till the destiny of country men will be know on behalf of The way of sorrow Help Public Societies for Prisoners and Hostages, I appeal to the peace-loving people, to the public socicties of definite structure of leading states and Europe organization, I invite to do our best and Release these men who were victims of Armenian brutality.

## ÖN SÖZ

Əslində bu kitabı əsir və girov götürülmüş, itkin düşmüşlər barədə natamam ömürlərin bioqrafik bilgi toplusu da adlandırmaq olar.

Xalqımızın həyatında və taleyindəki çoxsaylı tragik-dramatik məqamlara müstəqil fikir və düşüncə tərzi, XXI yüzilliyin yaxın və uzaq tarixə verəcəyi qiymət prizmasından yanaşdıqda vaxtilə müsbət müstəvidə təqdir etdiyimiz və ya mənfi çalar verib lənətlədiymiz bir çox fakt və olayların yeni təhlilə və təshihə möhtac olduğunu görərik.

Təəssüf hissilə qeyd etməliyik ki, müəyyən zaman kəsiyində Azərbaycanın tarixini yazanlar və taleyini müəyyənləşdirənlər, onu ikiyə bölənlər yadlar və yağılar olublar. Yadlar və yağılar təkcə bu millətin dilinə "genosid", "repressiya", "deportasiya", "terror" sözünü gətirməyib, həm də xalqımıza bu sözlərin məzmunundakı faciəni yaşadıblar. Nəticədə paralel olaraq mənəviyyat və əxlaqda, dildə və dində diskriminasiya, ərazilərdə itki, sərhəd dirəklərində isə içəriyə doğru sıxılma baş verib.

Adətən təbii fəlakətlərdən, üsyanlardan, müharibələrdən sonra önə çəkilən, yadda qalan və qabardılan soyuqqanlı riyazi rəqəmlər - statistika olub. Milli-mənəvi dəyərlərə zərbə və zədələrin statistik qeydiyyatını aparmaq isə bəzən yada belə düşməyib. Harmoniyanın xaosla, sabitliyin hərc-mərcliklə, zəkanın

## FOREWORD

In fact, the book may be called the biographical collection about incomplete lives of the persons who were captivated, taken as hostages or missed.

By approaching the independent mode of thinking about much tragedian-dramatic moments in the life and fate of our people from the point of view of XXI century to estimate near and distant future, we can see that a number of facts and events appreciated positively or condemned by us in their time, also need new analysis and correction.

We should note with regret that the persons who wrote about the history of Azerbaijan and determined its fate, who divided the country into two foreigners and enemies. Those enemy persons did not only brought the words "genocide", "repression", "deportation" and "terror" to the native language, but also made our people to live the tragedy in the context of these words. Consequently, there appeared discrimination in memorality and ethics, in language and religion, territory losses and embarrassment on borders.

Usually, indifferent mathematical figures remembered and over-emphasized after natural calamities, rebels and wars were statistics. Sometimes even, no one thought about conducting statistical registration of harms made

emosiya və hisslə əvəzləndiyi məqam və məkanlarda bu, bəlkə də mümkün deyil. Lakin zaman ötdükcə itən və unudulan, gərəksiz və əhəmiyyətsiz görünən duyğular və ehtiraslar ağılın,düşüncənin mühakiməsinə verilir,milli ruha və kökə qayıdışın vacibliyi üzə çıxır,yaddaşdan silinənlərin və yaddaşda qalanların fəryadı tarixin ən dərin qatlarından belə eşidilməyə başlayır. Necə ki,ərazidən şəhidə,şəhiddən əsir və girova uzanan yaddaş itkilərimizi bu günki müstəqilliyin və sabitliyin işığında yenidən dəyərləndirir və ağrı-acısını yaşayırıq.

Biz əsir,girov və itkin bioqrayiyalarını ilk dəfə 1905-ci ildə,ikinci dəfə 1918, üçüncə dəfə 1920,dördüncü dəfə 1947-1953-cü illərdə yazmalıydıq. Bəlkə də 1905-ci ildə biz bunu etmiş olsaydıq,həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdıra bilsəydik,onda ikinci,üçüncü, dördüncü....faciələrimiz də baş verməzdi. Lakin ermənilər uydurma soyqırımı əllərində bayraq etdiyi halda,biz başımıza gətirilənlərin fərqinə varmadan tariximizə biganəlik göstərdik. Bunu edə bilməməyimizdəndir ki,beşinci dəfəki faciələrimizin qurbanlarının bioqrafiyalarından başlamalı oluruq.

Bolşevik-erməni təəssübkeşliyi,qadağalar və yasaqlar şəhidlərin və şahidlərin ağrılarından yazmağa imkan vermədi. Ona görə də keçmiş əsrdən yeni əsrə əsir bioqrafiyaları, girov-itkin tərcümeyi halları ilə qədəm qoyduq. Vurulmuş zərbələr və zədələr,yeridilən genosid siyasəti təhlildən və təbliğdən kənarda qaldığından, əsirlərin, girov və itkinlərin təkcə statistikası deyil,erməni vəhşilik-

against national-moral values. Maybe, that was not possible in moments and places where harmony was substituted by chaos, stability by disorder, and intelligence by emotions and feelings. But time passed, wisdom and thought began to judge feelings and emotions that were lost or forgotten and seemed unimportant, returning to national spirit and root was given importance and scream of those who were stricken out of memories or remembered was heard even from the deepest layers of history. As, it values memory losses that began from territory, then, it led to being martyr and in its turn it led to be captivated and taken as a hostage, in the light of today's independence and stability and we live fatigue of these.

We were to write the initial biographies of the persons who were captivated, lost or taken as hostages for the first time in 1905, second time in 1918, third time in 1920, fourth time in 1947-1953. If we did that in 1905 and presented this truth to the people, then our second, third, fourth ….tragedies wouldn't happen. But while Armenians tried proved their false genocide, we showed indifference to our history without knowing what is going around us. It is for the fact that we could not do this, therefore we have to begin with the biographies of the victims for our fifth tragedy.

Bolshevik-Armenian bias, bans and prohibitions prevented us to write about fatigue of martyrs and witnesses. Therefore we left the past century for the new century with the biographies of the per-

lərinin məzmunu və coğrafiyası da dəyişməyə və genişlənməyə başladı. Tarixin dərslərindən ibrət götürmədiymizdən növbəti dəfələrdə daha böyük fəsad və itkilərlə üzləşdik.

Fikrimizcə, işğal altda olan ərazilərdəki və Ermənistandakı həbs düşərgələrində fiziki işgəncələrə, mənəvi-psixoloji streslərə məruz qalmış soydaşlarımızın ağrılı-acılı ömür yolunu araşdırmaq, təkcə əsir və girovların tapdalanmış haqlarını müdafiəyə deyil,eyni zamanda erməni vəhşiliklərini, onların mənfur xislətini bəşəriyyətə çatdırmağa xidmət edir.

İntellekt düşüncə və mütərəqqi bəşəriyyətin "əsir", "girov" və "itkin" anlayışlarının arxaikləşməsi, insan hüquq və azadlıqlarının bərqərar olması istiqamətində ciddi,ardıcıl və fasiləsiz iş apardığı müasir qloballaşma və demokratikləşmə dövründə erməni vandalizmi hələ də öz çirkin niyyətlərindən əl çəkmir. Ermənistanın Azərbaycana təcavüzü, faşist qəsbkarlarından geri qalmayan,hətta onları üstələyən erməni cəlladlaranın qanlı cinayətləri, 4 mindən çox həmvətənimizin itkin düşməsi, 790 nəfərin hələ də əsarətdə saxlanması, işgəncələrə düçar olması faktlarının mövcudluğu hamını və hər kəsi tarixin acı həqiqətlərindən nəticə çıxarmağa səsləməlidir.

Bu kitabdan doğan təəssürat onu deməyə əsas verir ki,erməni vandalizmi Qafqazda qafqazlılar üçün daim böyüməkdə olan bir çiban kimi bu gün də fəsadlar törətməkdədir. Bu çiban deşilmədikcə, çirkabı axıb getməyincə Qafqaz xalqlarına (o cümlədən ermənilərə) dinclik olmayacaqdır. Dünyanın müasir tə-

sons who were captivated and taken as hostages. As the harms and shocks stricken to us, the genocide policy put forward were left out of analysis and propaganda, not only the statistic of the persons who were captivated and taken as hostages, but also the contexts and geography of Armenian savagery changed and widened. As the history was not lesson for us, we faced with more difficulties and losses in following times.

In our opinion, investigation of painful lives of country-men who were exposed to physical harms and moral-spiritual stresses in the occupied territories and prisons of Armenia serves not only to protection of trampled rights of the persons who were captivated and taken as hostages, but also to informing the people about the unpleasant trait of Armenian savagery.

In modern globalization and democracy period where intellectual sense and advanced mankind conducts incessant and regular work in the field of making the concepts of "the persons who were captivated and taken as hostages" and restoration of human rights and freedoms, Armenian vandalism does not still leave its unpleasant intends. The facts of invasion of Azerbaijan by Armenia, bloody crimes of Armenian hangmen who don't leave behind fascist invaders, more than 4000 countrymen were driven out of their lands, keeping 756 persons still under occupation should call everybody to make conclusions from painful truth of the history.

rəqqi və sivilizasiya mərhələsində isə bu, təkcə Qafqazın bəlası sayılmamalı, bütün bəşəriyyət və hər bir vicdanlı bəşər övladı üçün utanc yerinə çevrilməlidir.

Bu mənada,erməni vəhşiliklərini faktlı,sənədli və predmetli şəkildə açıb göstərən belə kitabların nəşrinə və yayılmasına böyük ehtiyac vardır. Bu iş ilk növbədə vətəndaş yanğısı,milli şüur,obyektivlik və dəqiqlik tələb edir. Belə bir qədirşünaslıq və xeyirxahlıq işinin başında xalqın,millətin və dövlətin dünəninin,bu gününün və sabahının təhlükəsizliyinin təminatçısı vəzifəsini şərəflə yerinə yetirən Milli Təhlükəsizlik Nazirliyinin dayanması bizdə ikiqat qürur doğurur.

**Cəlal Qasımov,**
*xympmpöyka emnm□sy dplupsf*



After reading the book, the view is that Armenian vandalism is stable boil for Caucasians in Caucasus and it make problems. Before the boil still exists and separatist bacterium is not abolished, illusion on "Great Armenia from sea to sea" is not abandoned people of Caucasus will not live in peace. In the stage of development of civilization the problem is not will be considered as disaster of Caucasus, it must become a shy for all honest minded humanity.

In this point of view the need is to publish and distribute such books that shows facts of Armenian savageries. This kind of work first of all needs the patriotism of citizens, their national conscious, objectivity and accuracy. This kind of appreciation and well-wishing by National Security Ministry that serves with the honor for the people, nation and state in the past, for today and for the future makes us proud.

**Jalal Gasimov**
*Doctor on Philology*

Bu kitabda haqqında bəhs edilən əsir və girov götürülmüş Azərbayjan vətəndaşlarından:

**21 nəfəri** 16 yaşınadək,
**596 nəfəri** 17 yaşından 35 yaşınadək,
**103 nəfəri** 36 yaşından 60 yaşınadək
**33 nəfəri** 61 yaşından yuxarıdır.

575 nəfəri hərbçi, 178 nəfəri mülki şəxs olan əsir-girovların:
**18 nəfəri** uşaq,
**46 nəfəri** isə qadınlardır.

It's written about Azerbaijani citizens who were taken prisoners and hostages in the book:

**21 persons** are about 16 years old
**596 persons** are from 17 to 35 years old
**103 persons** are from 36 to 60 years old
**33 persons** are above 60 years old

575 persons are military men, 178 persons of prisoners and hostages are civilians,
**18 persons** of them are children,
**46 persons** of them are women.



**Abbasov**
**Ayaz**
**Əkbər oğlu**

1963-cü ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olub. Ermənilərin Qarabağa hücumları başlayan gündən doğma torpaqların müdafiəsinə qalxıb. 17 fevral 1992-ci ildə Milli Ordunun əsgərləri ilə birlikdə Xocavənd rayonunun Qaradağlı kəndinə köməyə gəlib. Kənd işğal olunan gün Abbasov Ayaz 17 nəfərlə əsir götürülüb,Xankəndi şəhərinə aparılıb. Həbsxanada ermənilər onlara dəhşətli işgəncələr veriblər

Erməni əsirliyindən qayıtmış Xocavənd rayonu Qaradağlı kənd sakini, Bakı şəhəri, Səbail rayonu Nemanzadə küçəsi ev 17-də yaşayan Hüseynov İlqar Qardaşxan oğlunun dediyinə görə, işğal olunmuş Malıbəyli kəndində ermənilər onları dizə qədər su doldurulmuş zirzəmidə saxladıqları zaman Abbasov Ayaz orada olub. Sonradan ermənilər Füzulini 4 əsirlə birlikdə harasa,naməlum istiqamətə aparıblar.

Bu faktı Erməni əsirliyindən azad olunmuş Qax rayonu Zəyəm kənd sakini Nadirov Bayram Cahangir oğlu da təsdiq edib.

**Abbasov**
**Ayaz**
**Akbar oglu**

Abbasov Ayaz Akbar oglu was born in Aghdam town of Azerbaijan Republic in 1963. When Armenians began to attack Garabagh he defended native lands. On the 17th of February, 1992 soldiers of National Army came to Garadaghli village of Khojavand district. During the occupation of the same village Abbasov Ayaz with 17 men was taken prisoner and sent to Khankandi. Armenians put them to tortures at the prison.

According to the words of Huseynov Ilgar Gardashkhan oglu who returned from Armenian captivity and lived in Garadaghli village of Khojavand district (now he lives in Baku, Sabail district, Nemanzade Street, 17), Armenians kept them in a cellar full of water till knee in occupied Malibeyli village. Abbasov Ayaz was with them. Then Armenians took him with 4 prisoners to unknown direction.

That fact was confirmed by Nadirov Bayram Jahangir oglu who released from Armenian captivity and lived in Zayam village of Gakh district.



**Abbasov**
**Ədalət**
**Vilayət oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 11 noyabr 1992-ci ildə Daşkəsən Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 15 noyabr 1992-ci ildə Çıldıran kəndi uğ-

**Abbasov**
**Adalat**
**Vilayet oglu**

Abbasov Adalat Vilayet oglu was born in Hoshbulag village of Dashkasan district of Azerbaijan Republic in 1970. On the 11th of November, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Dashka-

0runda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Həmin dövrdə könüllü olaraq orduda tibb bacısı vəzifəsində xidmət etmiş Daşkəsən rayon sakini Rzayeva Şəlalə Nəriman qızının verdiyi məlumata görə,1993-cü ilin fevral ayında hərbi hissə müdafiə mövqeyində duran zaman radioəlaqə vasitəsilə efirə çıxan şəxs Daşkəsən rayonu Xoşbulaq kənd sakini Abbasov Ədalət olduğunu,ermənilərin onu Əsgəranda saxladıqlarını, azad etmək üçün 300.000 rus rublu və ya 10 ton benzin istədiklərini deyib və bu məlumatı onun valideynlərinə çatdırmağı xahiş edib. Sonradan əlaqə kəsilib və bir daha ondan soraq tutmaq mümkün olmayıb.

san district. On the 15th of November, 1992 during the fight for Childiran village Adalat was taken prisoner by Armenians.

According to the information of Rzayeva Shalala Nariman gizi who voluntarily served as a nurse at the army and lived in Dashkasan village, when she controlled the defense point of military unit a person connected by radio communication and informed that Abbasov Adalat from Hoshbulag village of Dashkasan district was kept in Asgaran in February of 1993. Armenians demanded 300.000 Russian rubles or 10 tones of petrol to release him and he asked to Inform about that to his parents. Later the connection was interrupted and then it was impossible to connect with him again.

### Abbasov Hikmət Əliheydər oğlu



1968-ci ildə Azərbaycan Respublikası Cəlilabad rayonunun Prişib qəsəbəsində anadan olub. 1992-ci il may ayının 15-də könüllü olaraq Suraxanı Rayon Hərbi Komissarlığına müraciət edib və Ağdam cəbhəsinə göndəlilib. 16 avqust 1992-ci ildə Ağdam rayonunun Yenikənd yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Bacısı-Bakı şəhəri, Qaraçuxur qəsəbəsi, ev 93, mənzil 37-də yaşayan Abdullayeva Rəfiqə Əliheydər qızı ərizəsində qardaşı Abbasov Hikmətin Yenikənd yüksəkliyi uğrunda döyüşdə itkin düşdüyünü yazıb. Bu məlumatı ona Hikmətin döyüş yoldaşı və qonşusu Etibar Sərdar oğlu verib.

Ağstafa rayonu Dağ-Kəsəmən kənd sakini Muradov Alik Fuad oğlunun bildirdiyinə görə, Abbasov Hikmət Xankəndi şəhərində saxlanılıb.

### Abbasov Hikmet Aliheydar oglu

Abbasov Hikmet Aliheydar oglu was born in Prishib settlement of Jalilabad district of Azerbaijan Republic in 1968. On the 15th of May, 1992 he voluntarily appealed to the Military Registration and Enlistment Office of Surakhani district and was sent to Aghdam. On the 16th of August, 1992 during the fight for Yenikand height of Aghdam district he was taken prisoner.

His sister Abdullayeva Rafiga Aliheydar gizi (now she lives in Baku, Garachujhur settlement, 93, app.37) wrote a statement that her brother Abbasov Hikmet was missed during the fight for Yenikand height. That information was given by Hikmet's front-line comrade and his neighbour Etibar Sardar oglu.

According to the information of Muradov Alik Fuad oglu who lived in Dag-Kesemen village of Aghstafa district, Abbasov Hikmet was kept in Khankandi town.



**Abbasov**
**Natiq**
**Xanbala oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Xızı rayonunun Altıağac kəndində anadan olub. Abbasov Natiq 1994-cü ildə Xızı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağcabədi rayonunun Muğanlı kəndindəki hərbi hissədə qulluq edib. 27 aprel 1994-cü ildə Ağdam rayonunun Xındırıstan kəndində gedən döyüşdə əsir götürülüb.

Atası-Abbasov Xanbala Heydər oğlu Natiqin axtarışı ilə məşğul olan zaman onun 27 aprel 1994-cü ildə saat 10-11 radələrində Ağdam rayonunun Xındırıstan istiqamətində gedən döyüş zamanı əsir götürüldüyünü öyrənib.

Balakən şəhəri Nərimanov küçəsi,ev 39-da yaşayan Əliyev Nəsrəddin Hücran oğlu izahatında yazıb ki, bacısı oğlu Vasovlar Mehman Sultanhəmid oğlu, Abbasov Natiq Xanbala oğlu və bir neçə hərbçi ilə aprel ayının 26-dan 27-nə keçən gecə, Qərvənd kəndi ermənilər tərəfindən işğal olunan zaman Baş Qərvənd kəndində əsir götürülüblər.

Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunda məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun yazdığı izahata görə,erməni dilini bildiyi üçün dövlət tərəfindən bir müddət əsir və girovların dəyişdirilməsi işinə cəlb olunub. Qarşı tərəfin nümayəndəsi Abo ona «ZİL-131» markalı avtomaşında Abbasov Natiq də daxil olmaqla hərbçilərin əsir götürüldüyünü və Dağlıq Qarabağda saxlandığını deyib.

**Abbasov**
**Natig**
**Khanbala oglu**

Abbasov Natig Khanbala oglu was born in Altiagach village of Khizi district of Azerbaijan Republic in 1974. In 1994 Natig was called up for military service by the Military Registration and Enlistment Office of Khizi district and served in military unit in Muganli village of Aghjabedi district. On the 27th of Aprel, 1994 during the fight for Khindirstan village of Aghdam district Abbasov Natig was taken prisoner.

When his father Abbasov Khanbala Heydar oglu searched for his son, he found out that on the 27th of April, 1994 Natig was missed at 10-11 o□clock during the fight in direction of Khindirstan.

Aliyev Nasreddin Hujran oglu (he lives in Balakan town, Narimanov Street, app.39A) wrote a statement that during the night from 26th to 27th of April, his sister□s son Vasovlar Mehman Sultanahmed oglu, Abbasov Natig Khanbala oglu with some other military men went to Bash Garvand village through Garvand village which occupied by Armenians and they were taken prisoners.

According to a statemnt of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Beylagan district), he knew Armenian and that□s why he was enlisted by the state to work with change of prisoners and hostages for a time. The representative of opposite side Abo said him that Abbasov Natig and other military men by car «ZIL-131» were taken hostages and kept in Upper Garabagh.



**Abbasov Qurbanəli Abbasqulu oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Ağdam rayonunun Qəsil kəndində anadan olub. 1991-ci ildə hərbi xidmətə çağırılıb. Lənkəran qarnizonunun tərkibində Ağdam uğrunda döyüşlərdə tank heyətinin üzvü kimi iştirak edib. Ağdam rayonu ermənilər tərəfindən işğal olunan zaman əsir götürülüb.

Atası-Abbasov Abbasqulu Abbas oğlu ərizəsində göstərib ki, oğlunun axtarışı ilə məşğul olarkən döyüş yoldaşları ona Ağdam rayonu işğal olunan gün Qurbanəlinin tanka tərəf getdiyini gördüklərini deyiblər. Erməni girovluğundan azad edilmiş Ağdamın Qiyaslı kəndindən olan qoca bir kişi Qurbanəlinin əsir götürüldüyünü, işğal olunmuş Xankəndi şəhərində ermənının evində saxlandığını bildirib.

Bakı şəhəri, H.Əliyev küçəsi, ev 1, mənzil 43-də yaşayan, ehtiyatda olan zabit Əliyev Ağalar Xasay oğlunun verdiyi məlumata görə, o, Ağdam özünümüdafiə batalyonunun komandiri vəzifəsində xidmət edərkən əsir və girovların dəyişdirilməsi zamanı qarşı tərəfin nümayəndəsi Aleksandr Ağasaryandan 72 nəfər azərbaycanlı əsir və girovun siyahısını alıb. Həmin siyahıda Abbasov Qurbanəlinin də adı olub.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunun Maçqara kəndində məskunlaşan Tağıyev Məmməd Qaçay oğlu izahatında Abbasov Qurbanəlinin Şuşa həbsxanasında saxlandığını göstərib.

**Abbasov Gurbanali Abbasgulu oglu**

Abbasov Gurbanali Abbasgulu oglu was born in Gasil village of Aghdam district of Azerbaijan Republic in 1974. He was called up for military service in 1991. Abbasov Gurbanali took part in fights for Aghdam as a member of tank crew allotted to Lankaran garrison. During occupation of Aghdam he was taken prisoner by Armenians.

It was shown in a statement of his father Abbasov Abbasgulu Abbas oglu while searcheg for his son, his front-line comrades said that during occupation of Aghdam, Gurbanali went to the tank. An old man who lived in Giyasli village of Aghdam district and returned from Armenian captivity informed that Gurbanali was taken prisoner and kept in a house of an Armenian in Khankandi.

According to the information of officer in the reserve Aliyev Agalar Khasay oglu (he lives in Baku, H.Aliyev Street, 1 app.43), when he served as a commander of self-defense battalion he was engaged in change of prisoners and hostages and got a list of 72 Azerbaijani prisoners and hostages from the representative of opposite side Alexander Agasaryan. There was the name of Abbasov Gurbanali in that list.

According to a statement of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) and engaged in change of prisoners and hostages, it was shown that Abbasov Gurbanali was kept in Shusha prison.



**Abbasov Rafael Sultan oğlu**

1968-ci ildə anadan olub. Hərbi hissədə zirehli döyüş maşınının sürücü-mexaniki vəzifəsində xidmət edib. 8 may 1992-ci ildə Şuşanın ermənilər tərəfindən işğalı zamanı əsir götürülüb.

Döyüşçülər sursat qurtarana qədər vuruşublar. Rafael ayağından yaralanıb. O, rabitə əlaqəsi yaradıb, milli qəhrəman Albert Aqarunovdan kömək istəyib. Albert komandiri olduğu tankın heyət üzvləri ilə birlikdə ona köməyə getdiyi zaman ermənilər tərəfindən öldürülüb. Ağır yaralı vəziyyətdə köməksiz qalan Rafael ermənilər tərəfindən əsir götürülüb.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin 1993-cü ildə verdiyi məlumatda Abbasov Rafaelin sağ olduğu bildirilir. Ermənilər onu əvvəlcə Yerevan şəhər həbsxanasında saxlayıb,sonradan Sovetaşan qəsəbəsinə göndəriblər.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi,ev 35,mənzil 22; tel: 48-67-93) əldə etdiyi azərbaycanlı hərbi əsir və girovların siyahısında Abbasov Rafaelin də adı olub və Yerevan şəhər həbsxanasında saxlandığı göstərilib.

Bakı şəhəri, Yasamal rayonu «Qızıl-Şərq» hərbi şəhərciyi, ev 98, mənzil 19-da yaşayan keçmiş əsir Cabbarov Əli Telman oğlunun atası-Cabbarov Telman İdris oğlu ərizəsində göstərib ki,Tbilisi şəhərində Qagik adlı ermənidən aldığı azərbaycanlı əsir və girovların siyahısinda Abbasov Rafaelin də adı olub və onun Yerevan şəhər həbsxanasında saxlandıqdan sonra Sovetaşan qəsəbəsinə göndərildiyi bildirilib.

**Abbasov Rafael Sultan oglu**

Abbasov Rafael Sultan oglu was born in 1968. He served as a driver-mechanich of heavy carrier in military unit. On the 8th of May, 1992 during occupation of Shusha Abbasov Rafael was taken prisoner.

Soldiers fought till the bullets were over. Rafael was wounded in leg. He connected and asked for the help from national hero Albert Agarunov by radio communication. Albert was the commander and with members of tank crew went to help. Armenians killed him. Abbasov Rafael was taken prisoner by them.

According to the information of Helsinki Civil Assembly from 1993 Abbasov Rafael was alive. At the beginning Rafael was kept in Yerevan prison then he was sent to Sovetashan settlement.

While Huseynov Akif Saleh who lived in Asrik-Jirdakhan village of Tovuz district Huseynov Akif Saleh oglu searching for his sister Huseynova Tamara Saleh gizi, he got a list of prisoners of war and hostages from Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit str. 35, app.22, phone: 48-67-93) in Tbilisi and there was the name of Abbasov Rafael in that list. It was shown that he was kept in Yerevan prison.

It was shown in a statement of father of former prisoner of war Jabbarov Ali Telman oglu-Jabbarov Telman Idris oglu (now he lives in Baku, Yasamal district, «Gizil Sherq» military town 98, app.19 ) met Armenian whose name was Gagik in Tbilisi and saw Abbasov Rafael's name in that list. It was shown Rafael was kept in Yerevan prison and then he was sent to Sovetashan settlement.



**Abbasov**
**Rasim**
**Abbas oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Şəmkir rayonunun Keçili kəndində anadan olub. 1992-ci ildə Şəmkir Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tərkibində Ağdarə rayonu uğrunda döyüşlərdə iştirak edib. 30 iyul 1992-ci ildə Ağdərə rayonunun Aterk kəndində gedən döyüşdə əsir götürülüb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Beynəlxalq Qırmızı Xaç Komitəsi əməkdaşlarının 1993-cü ildə Tbilisi şəhərində təşkil etdikləri erməni nümayəndələri ilə görüş zamanı əldə etdiyi Dağlıq Qarabağda əsir və girov düşmüş Azərbaycan vətəndaşlarının siyahısında Abbasov Rasim Abbas oğlunun da adı olub. Onun Ermənistanda saxlandığı göstərilib.

**Abbasov**
**Rasim**
**Abbas oglu**

Abbasov Rasim Abbas oglu was born in Kechili village of Shamkir district of Azerbaijan Republic in 1973. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Shamkir district. Abbasov Rasim took part in fights for Aghdara district allotted to Internal Forces of Ministry of Internal Affairs. On the 30th of July, 1992 during the fight for Aterk village of Aghdara district he was taken prisoner.

During the meeting organized by the officials of ICRC in Tbilisi in 1993, Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan of Tovuz district met Armenian representatives and got a list of Azerbaijani prisoners and hostages in Upper Garabagh. There was the name of Abbasov Rasim Abbas oglu. In the list it was shown that he was kept in Armenia.



**Abbasov**
**Vaqif**
**Əli oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Həsənqala kəndində anadan olub. 1992-ci ilin sentyabr ayında Xaçmaz Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılaraq Zəngilan rayonuna göndərilib. Həmin rayonun Qazançı kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Abbasov Əli Həmzət oğlu ərizə-

**Abbasov**
**Vagif**
**Ali oglu**

Abbasov Vagif Ali oglu was born in Hasangala village of Khachmaz district of Azerbaijan Republic in 1972. In September of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Khachmaz district and sent to Zangilan district. During the fight for Gazanchi village of same district Abbasov Vagif was taken pris-

sində yazıb ki, Rusiyadan ona zəng vuraraq oğlunun sağ olduğunu və Ermənistanın Gorus rayonunun Qarabağlı kəndində saxlandığını deyiblər.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlu erməni girovluğunda olan bacısı Hüseynova Tamara Saleh qızının axtarışı ilə məşğul olan zaman Tbilisi şəhərində milliyyətcə erməni Qaqikdən (Yerevan tel:63-60-70) qarşı tərəfdə saxlanılan 43 azərbaycanlı hərbi əsirin siyahısını alıb. Həmin siyahıda Abbasov Vaqif Əli oğlunun da adı olub. Onun Ermənistan Respublikası Gorus rayonunun Qarabağlı kəndində saxlandığı göstərilib.

## Abbasov Vəliyəddin Umudvar oğlu



1963-cü ildə Azərbaycan Respublikası Xocalı şəhərinda anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni silahlı dəstələri tərəfindan işğal olunan zaman Abbasovlar ailəsi əsir götürülərək Əsgəran rayonuna aparılıb. Sonradan Abbasov Vəliyəddindən başqa öldürülmüş ailə üzvlərinin meyidləri qaytarılıb.

Vəliyəddinin qardaşı-Abbasov Çingiz Umudvar oğlunun yazdığı izahata görə, onlar Xocalını tərk edən zaman meşədə ermənilər tərəfindən mühasirəyə alınıblar. Həmin vaxt Vəliyəddin qaçmağa cəhd göstərib, girov göturulərək Naxçivanik yaxınlığındakı Dəhraz kəndinə aparılıb.

Əsirlikdə olan Qarayev Usubəlinin atası-girovluqdan qayıtdıqdan sonra Naftalan şəhərində yerləşən «Şirvan» sanatoriyasında məskunlaşmış Qarayev Süleyman Salman oğlu izahatında yazıb ki, ermənilər oğlu və Vəliyəddin də daxil olmaqla 13 nəfər gənci naməlum istiqamətə aparıblar. Qarayev Sü-



oner by Armenians.

His father Abbasov Ali Hamzat oglu wrote a statement that somebody called him from Russia and said that his son was alive and kept in Garabaghli village of Gorus district of Armenia.

When Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searched for his sister Huseynova Tamara Saleh gizi, Armenian Gagik gave him a list of 43 Azerbaijani prisoners of war kept by the opposite side. There was Abbasov Vagif's name in that list. It was shown that he was kept in Garabaghli village of Gorus district.

## Abbasov Valiyaddin Umudvar oglu

Abbasov Valiyaddin Umudvar oglu was born in Khojali town of Azerbaijan Republic. On the 26th of February, 1993, during occupation of Khojali by Armenian armed forces the Abbasovs were taken prisoners and sent to Asgaran district. Later the corpses of all the members of their family except Abbasov Vilayaddin were returned.

According to a statement of Valiyaddin's brother Abbasov Chingiz Umudvar oglu, when they left Khojali they were surrounded in the forest by Armenians. At the same time he tried to run away but was caught by Armenians and sent to Dahraz village near Nakhchivanik.

The father of Garayev Usubali (he was in captivity) – Garayev Suleyman Salman oglu who returned from captivity (now he lives in «Shirvan» sanatorium in Naftalan town) wrote a statement that Armenians took 13 young men including his son and Valiyaddin

leyman azad olunandan sonra Ağdam taborunun komandiri Allahverdi Bağırov (sonradan şəhid olub) ona, həmin 13 gəncin Xankəndi Rayon Polis Şöbəsinin zirzəmisində saxlandıqlarını, bir həftə sonra isə həmin idarənin rəisi Armen İsaqulov tərəfindən Yerevan şəhərinə göndərildiklərini bildirib.

Erməni girovluğundan qayıtmış Xocalı sakini, hazırda «Günəşli» sanatoriyasında məskunlaşmış Abdullayeva Sənəm Həsən qızının izahatına görə, o, Abbasov Vəliyəddini Əsgəran rayonunun Pircamal kəndində yerləşən maldarlıq fermasında görüb.

to unkown direction. When Garayev Suleyman was released, the commander of battalion Allahverdi Bagirov (then he died) informed that 13 young men were kept in cellar of Police Department of Khankandi district. A week later the head of department Armen Isagulov sent them to Yerevan city.

According to a statement of Abdullyeva Sanam Hasan gizi who lived in Khojali and released from Armenian captivity (now she lives in «Guneshli» sanatorium), she saw him at stock-breeding farm in Pirjamal village of Asgaran district.

## Abbasov Vidadi Muxtar oğlu



1963-cü ildə Azərbaycan Respublikası Ağsu rayonunun Bəyimli kəndində anadan olub. 1993-cü ilin oktyabr ayında Bakı şəhəri Nizami Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdam rayonunun Qərvənd kəndində yerləşən hərbi hissədə qulluq edib.

28 dekabr 1993-cü ildə Abbasov Vidadinin qulluq etdiyi hərbi hissənin V taborunun 49 nəfərdən ibarət şəxsi heyəti dumana düşərək yolu azıb və ermənilər tərəfindən əsir götürülüb.

Salyan rayonu Kürsəngi kənd sakini Atamoğlanov Seyfulla Sabir oğlu itkin düşmüş qardaşı-Atamoğlanov Əbülfəti axtararkən Gürcüstan ərazisində Ermənistanın Noyemberyan rayonu Ləmbəli kənd sakini Qaqo adlı erməni ilə görüşüb. Qaqo ona qardaşı da daxil olmaqla erməni əsirliyində olan 14 nəfər azərbaycanlının siyahısını verib. Həmin siyahıda Abbasov Vidadinin də adı olub. Qaqonun məlumatına görə, əsirləri

## Abbasov Vidadi Mukhtar oglu

Abbasov Vidadi Mukhtar oglu was born in Bayimli village of Aghsu district of Azerbaijan Republic in 1963. In October of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Nizami district of Baku. Abbasov Vidadi served in a military unit in Garvand village of Aghdam district.

On the 28th of December, 1993 because of fog Vidadi□s battalion „5 consisted of 49 men lost the way and theythey were taken prisones by Armenians.

Atamoglanov Seyfulla Sabir oglu who lived in Kursengi village of Salyan district searched for his missed brother ****

There he met Armenian whose name was Gago who lived in Lembeli village of Noyembryan district of Armenia. Gago gave him a list of 14 Azerbaijanis being in Armenian captivity. There was the name of Abbasov Vidadi in that list. According to

əvvəlcə Ermənistanın Kirovakan şəhərində saxlayıb, sonradan Yerevan Dövlət Təhlükəsizlik Komitəsinin istintaq təcridxanasına köçürüblər. Erməni tərəfi faktı inkar edir.

Gago's information at the beginning prisoners were kept in Kirovakan city of Armenia and then they were moved into investigatory isolation of Committee of State Security of Yerevan. Armenian side denied that all fact.

**Abdullayev Seymur Abdulla oğlu**



1975-ci ildə Azərbaycan Respublikasının Biləsuvar rayonunda anadan olub. 6 yanvar 1994-cü ildə Biləsuvar Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdam rayonu uğrunda döyüşlərdə iştirak edib. 26 aprel 1994-cü ildə Ağdam rayonunun Nəmirli kəndində gedən döyüş zamanı yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Biləsuvar şəhəri Axund Molla Hüseyn küçəsi, ev 25-də yaşayan Abdullayev Sahib Abdulla oğlunun verdiyi məlumata görə, döyüş yoldaşları ona Seymurun həmyerlisi Gözəlov Azər Xanış oğlu ilə birlikdə Nəmirli kəndi uğrunda döyüşdə yaralanaraq əsir götürüldüyünü bildiriblər.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Əsgəran rayonu Şuşen kənd sakini, Bakı şəhərinin Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun dediyinə görə, qarşı tərəfin nümayəndəsi Albert Voskanyanla görüşdüyü zaman ondan Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş, Abdullayev Seymur da daxil olmaqla Dağlıq Qarabağda saxlanılan 37 azərbaycanlı hərbi əsirin siyahısını əldə edib. Ermənilər həmin əsirləri jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı olmuş «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyiblər. Ayriyan vəfat etdiyi üçün dəyişmə baş tutmayıb.

**Abdullayev Seymur Abdulla oglu**

Abdullayev Seymur Abdulla oglu was born in Bilasuvar district of Azerbaijan Republic in 1975. On the 6th of January, 1994, he was called up for military service by the Military Registration and Enlistment Office of Bilasuvar district. Seymur took part in fights for Aghdam district. On the 26th of April, 1994 wounded Seymur was taken prisoner by Armenians in fight for Nemirli village of Aghdam district.

According to his brother's information Abdullayev Sahib Abdulla oglu (he lives in Bilasuvar town, Akhund Molla Huseyn Street, 25), his front-line comrades informed that during the fight for Nemirli village, his brother with villager Gozelov Azer Khanish oglu was wounded and taken prisoner.

According to the words of Abdullayev Tofig Ismayil oglu who lived in Shushen village of Asgaran village (at present he lives in sanatorium «Zugulba» in Baku, Buzovna Settlement) and engaged in change of prisoners and hostages, during the meeting with the representative of Armenian side Albert Voskanyan, he got a list of 37 Azerbaijani prisoners of war who kept in Garabagh hidden from ICRC. There was the name of Abdullayev Seymur in that list Tofig. Armenians wanted to change them for a killer of journalist Salatin Asgarova – Arkadi Ayriyan whose nick name was «Napoleon».

Seymurun sonrakı taleyi məlum olmayıb.

The change didnt realize because Ayriyan died and thats why the further Seymurs life was unknown.



**Abdullayev Anur Arif oğlu**

1975-ci ildə Bakı şəhərində anadan olub. 1993-cü ilin avqust ayında Sabunçu Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 25 yanvar 1994-cü ildə Füzuli cəbhəsinə göndərilib. 1 fevral 1994-cü ildə Füzuli rayonunun Horadiz kəndi uğrunda döyüşdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Salyan şəhər sakini Rzayev Xaqani Məhərrəm oğlunun dediyinə görə o,Abdullayev Anurla birlikdə eyni hərbi hissədə xidmət edib. 1 fevral 1994-cü ildə Füzuli rayonunun Horadiz kəndi uğrunda döyüşdə onun ermənilər tərəfindən vurulduğunu və döyüş meydanında qaldığını görüb.

Atası-Abdullayev Arif Hüseyn oğlu izahatında yazıb ki,Füzuli rayonunda ermənilər tərəfindən əsir götürülmüş,qayıtdıqdan sonra həbs cəzasına məhkum olunmuş Aslanov Azər Salman oğlu 15 may 2001-ci ildə Anurun onunla birlikdə Şuşa həbsxanasında saxlandığını deyib.

**Abdullayev Anur Arif oglu**

Abdullayev Anur Arif oglu was born in Baku in 1975. In August of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Sabunchu district of Baku. On the 25th of January, 1994 Abdullayev Anur was sent to Fuzuli front. On the 1st of February, 1994 during the fight for Horadiz village of Fuzuli district he was taken prisoner.

According to the words of Rzayev Khagani Maharram oglu who lived in Salyan town and returned from Armenian captivity, he served with Anur in the same military unit. On the 1st of February, 1994 during the fight for Horadiz village of Fuzuli district, he saw that Armenians fired upon Anur and stayed at the battle field.

1975-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. Həmyerliləri onu Anar kimi tanıyıblar. 1 saylı məktəbin 11-ci sinfində oxuyub. 26 fevral 1992-ci anası Cəfərova Tahirə Müse-

**Jafarov**
**Nusrat (Anar)**
**Fazil oglu**

Jafarov Nusrat (Anar) Fazil oglu was born in Khojali town of Azerbaijan Republic in 1975. In 1992 he studied at the 11th class of school „ 1 in Khojali town. On the 26th of February, 1992 during the day

yib qızı və 2 bacısı ilə birlikdə ərazini tərk edən zaman yolu azıb, Naxçivanik kəndi yaxınlığındakı meşədə girov götürülüb.

Bu məlumatı anası-Şəki İpək Kombinatının yataqxanasında məskunlaşmış Cəfərova Tahirə Müseyib qızı verib. Onun dediyinə görə, meşədə azmış Əbdülov Zakir Yelmar oğlu, Məmmədov Aydın Cəlal oğlu, Məmmədov Suren Heydər oğlu, Məmmədov Yaqub və Nüsrət yol tapmaq məqsədilə qadınlardan ayrılıblar. Onlar gedəndən bir qədər sonra atışma səsləri eşidilib. Atışma 40 dəqiqəyə qədər davam edib. Həmin vaxtdan anası bir daha Nüsrəti görməyib.

Erməni girovluğundan qayıtmış Xocalı şəhər sakini, Naftalan şəhərindəki «Azərbaycan» sanatoriyasında məskunlaşmış Əzizov Ramin İbrahim oğlu izahatında yazıb ki, 26 fevral 1992-ci ildə Naxçivanik kəndi yaxınlığında 13 nəfər yerli sakinlə birlikdə əsir götürülüb, Əsgəran Rayon Polis Şöbəsinə aparılıb. Orada xocalılardan Abışov Mobil Möhsüm oğlu, Səlimov Fəxrəddin, Məmmədov Zahir, Məmmədov Məmməd Rəhim oğlu, onun oğlanları Söhbət və Möhlət, Namazov Vaqif, Cəfərov Nüsrətlə rastlaşıb. Sonra başqa kameraya köçürüldüyü üçün həmin şəxsləri bir daha görməyib.

Xocalı şəhər sakini, Bakı şəhəri, Pirşağı qəsəbəsində məskunlaşmış Cəfərova İradə Aydın qızı erməni əsirliyindən azad olunmuş Hüseynov Kamil Dadaş oğlunun ona Cəfərov Nüsrətin stadionda saxlandığını gördüyünü deyib.



of Khojali's occupation by Armenian armed forces, his mother Jafarova Tahira Museyib gizi and 2 sisters left the territory but he lost his way and was taken hostage at the forest near Nakhchivanik village.

That information was given by his mother Jafarova Tahira Museyib gizi (at present she lives in the hostel of Shaki). According to the words of inhabitants who lost their ways: Abdulov Zakir Yelmar oglu, Mammadov Aydin Jalal oglu, Mammadov Suren Heydar oglu, Mammadov Yagub and Nusrat separated from women in order to find the way. When they left, they heard sounds of skirmish. The skirmish continued 40 minutes. His mother hasn't seen Nusrat since that moment.

Azizov Ramin Ibrahim oglu who returned from Armenian captivity and lived in Khojali town (now he lives in sanatorium «Azerbaijan» in Naftalan town), wrote a statement that he with 13 inhabitants was taken prisoner near Nakhchivanik village on the 26th of February, 1992. Abishov Mobil Mohsum oglu, Salimov Fakhraddin, Mammadov Zahir, Mammadov Mammad Rahim oglu, his sons Sohbat and Mohlet, Namazov Vagif who lived in Khojali met Jafarov Anar. Then he was sent to another cell and that's why he didn't see them including Anar any more.

Jafarova Irada Aydin gizi who lived in Khojali town (at present she lives in Baku, Pirshagi settlement) said that Huseynov Kamal Dadash oglu who released from Armenian captivity saw Jafarov Anar in Khankandi stadium.



**Cəfərov Sabir İsrafil oğlu**

1932-ci ildə Azərbaycan Respublikası Ağdam rayonunun Muradbəyli kəndində anadan olub. 23 iyul 1993-cü ildə Ağdam rayonu ermənilər tərəfindən işğal olunan gün girov götürülüb.

Həyat yoldaşı - Ağdam rayonu Muradbəyli kənd sakini,Yevlax rayonunun Aran qəsəbəsində məskunlaşmış Cəfərova Alina Fyodorovnanın verdiyi məlumata görə,kəndləri işğal olunan zaman ermənilər Sabiri onun gözləri qarşısında döyərək tanka mindirib aparıblar. 1995-ci ildə Sabir erməni əsirliyindən qayıtmış bir nəfərlə ailəsinə göndərdiyi məktubda yaralı olduğunu və Dağlaq Qarabağın Xankəndi şəhərində saxlandığını bildirib.

**Jafarov Sabir Israfil oglu**

Jafarov Sabir Israfil oglu was born in Muradbeyli village of Aghdam district of Azerbaijan Republic in 1932. On the 23rd of July, 1993 during the day of Aghdam's occupation by Armenians he was taken hostage.

According to the information of his wife Jafarova Alina Fyodorovna who lived in Muradbeyli village of Aghdam district (at present she lives in Aran settlement of Yevlakh district), during occupation of their village she eye-witnessed Sabir was beaten by Armenians, and then they took him to a tank. In 1995 Sabir gave a letter to someone who returned from Armenian captivity. He informed his family that he was wounded and kept in Khankandi town of Upper Garabagh.



**Cəfərov Şakir Əli oğlu**

1968-ci ildə Azərbaycan Respublikası Cəlilabad rayonunun Uzundərə kəndində anadan olub. 1992-ci ildə könüllü olaraq Qarabağ uğrunda döyüşlərə yollanıb. Təmir alayının tərkibində xidmət edib. 27 aprel 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndində vurulmuş tankı təmir etmək üçün özündən başqa daha 7 nəfərlə birlikdə sürücü Vasovlar Mehman Sultanhəmid oğlunun idarə etdiyi «ZİL-131» markalı 65-51 dövlət nömrə nişanlı avtoma-

**Jafarov Shakir Ali oglu**

Jafarov Shakir Ali oglu was born in Uzundara village of Jalilabad district of Azerbaijan Republic in 1968. In 1992 he voluntarily was sent to fight for Garabagh. Jafarov Shakir served allotted to repair regiment. On the 27th of April, 1994 Shakir with 7 men including driver Vasovlar Mehman Sultanahmed oglu went to Garvand village by car of regiment «ZIL-131» (public plate-number 65-51) to repair tank in Garvand village of

şınla Qərvənd kəndinə yola düşüb. Kəndə girən zaman ermənilərin mühasirəsinə düşüblər. Yalnız taqım komandiri leytenant Mahmudov Polad və baş əsgər Bağırov Məhərrəm mühasirədən çıxa bilib. Şakir də daxil olmaqla 6 döyüşçü ermənilər tərəfindən əsir götürülüb.

Əsir Vasovlar Mehman Sultanhəmid oğlunun dayısı-Balakən rayonunun Nərimanov küçəsi, ev 39-da yaşayan Əliyev Nəsrəddin Hücran oğlunun dediyinə görə, bacısı oğlu 5 döyüş yoldaşı ilə birlikdə silahsız olduqları üçün onun idarə etdiyi avtomaşında Ağdamın Qərvənd kəndinə əsgərlərə köməyə getdikləri vaxt döyüş yoldaşları Cəfərov Şakir Əli oğlu (Cəlilabad), Seyidmansurov Azad Təbabə oğlu (Bakı), Abbasov Natiq Xanbala oğlu (Xızı), Musayev Cavanşir Aydın oğlu (Gəncə), Ələkbərov Rövşən Faiq oğlu (Gəncə) ilə birlikdə ermənilər tərəfindən əsir götürülüb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində yazıb ki, hərbi əsir və girovların dəyişdirilməsi zamanı erməni polisinin əməkdaşı Albert Voskanyan ona Cəfərov Şakirin əsir götürüldüyünü və Dağlıq Qarabağda saxlandığını bilidirib.

Aghdam district. When they entered the village, Armenians surrounded them. Only commander of troop lieutenant Mahmudov Polad and main soldier Bagirov Maharram could get out of encirclement. 6 fighters including Shakir were taken prisoners by Armnenians.

According to the words of uncle prisoner of war Vasovlar Mehman Soltanahmed oglu  Aliyev Nasraddin Hijran oglu (he lives in Balkan district, Narimanov Street, 39), his sisters son with 5 fighters by car without weapons went to Garvand village of Aghdam district to help soldiers: Jafarov Shakir Ali oglu (Jalilabad), Seyidmansurov Azad Tababa oglu (Baku), Abbasov Natig Khanbala oglu (Khizi), Musayev Javanshir Aydin oglu (Ganja), Alekberov Rovshan Faig oglu (Ganja), were taken prisoners by Armenians.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) wrote a statemen when he was engaged in change of prisoners of war and hostages, Armenian policeman Albert Voskanyan informed that Jafarov Shakir was taken prisoner and kept in Upper Garabagh.

## Cəfərov Samir Tacir oğlu



1988-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhərinin işğal olunduğu gün Cəfərov Samir Tacir oğlu və ailə üzvləri: nənəsi Məmmədova Səltənət Zülal qızı, anası Məmmədova Şövkət İbad qızı, xalası Məmmədova Lətifə İbad qızı, xalası oğlanları Əliyev Sə-

## Jafarov Samir Tajir oglu

Jafarov Samir Tajir oglu was born in Khojali town of Azerbaijan Republic in 1988. On the 26th of February, 1992 during the day of Khojalis occupation by Armenian armed forces Jafarov Samir Tajir oglu and his members of family: grandmother Mammadova Saltanat Zulal gizi, mother Mammadova

buhi Cahangir oğlu və Əiyev Səlim Cahangir oğlu ilə girov götürülərək Ağdərə rayonunun Vəng kəndinə aparılıblar.

Xalası - Xocalı sakini,Bakı şəhəri,Nərimanov rayonunda yerləşən Müəllimləri Təkmilləşdirilmə İnistitutunun yataqxanasında məskunlaşmış Qəmbərova Adilə İbad qızı izahatında göstərib ki, həmyerlisi Cavanşir Haqverdiyev (hazırda Bakı şəhəri, Mərdəkan qəsəbəsində yerləşən yataqxanada məskunlaşıb,bacısının adı Bəstidir) onları ailəliklə meşədə ocaq ətrafında oturub qızınarkən görüb. Cavanşirin dediyinə görə,ətrafda ermənilərin üstü çadırlı maşını dayanıbmış. Ermənilər qəribə səslər çıxararaq azərbaycanlıların yaxınlıqda olduğunu bir-birinə bildiriblər. Cavanşirin qardaşı Şahin ona «Sən get, biz də yavaş-yavaş gəlirik»,deyib. O,yoluna davam edib, bir müddət keçəndən sonra dayanıb,onları gözləyib. Nə Şahin,nə də Məmmədova Səltənət ailəsi ilə gəlib çıxmayıb. Sonradan heç kimin onların taleyindən xəbəri olmayıb.

«Beynəlxalq Amnistiya» Təşkilatının Avropa Üzrə Təhqiqatlar şöbəsinin müdiri Ann Burlinin 12 avqust 1993-cü ildə verdiyi məlumata görə, Cəfərov Samir və onun ailə üzvləri fevral ayının 25-dən 26-na keçən gecə Xocalının işğalı zamanı erməni hərbçiləri tərəfindən girov götürülüb,Azərbaycan Respublikasının Ağdərə rayonunun Vəng kəndində saxlanılıblar.

Shovket Ibad gizi, aunt Mammadova Latifa Ibad gizi and her sons: Aliyev Sabuhi Jahangir oglu and Aliyev Salim Jahangir oglu were taken hostages. They were taken to Vank village of Aghdara district.

It was shown in a statement of his aunt Gambarova Adila Ibad gizi (she lives in the hostel of Teacher Improvement Institute), Javanshir Hagverdiyev who lived in Khojali saw them in the forests. They ran to escape Armenians and sat round the fire to get warm. According to Javanshir□s words Armenians were in the forest inside the car. Armenian made strange noise and informed each other that Azerbaijanis were next to them. Javanshir□s brother Shahin said: «You go, we follow you quietly». He continued his way. Then he stopped to wait for them. Neither Shahin nor the members of his family came up. There□s no information concerning them.

According to the given information from the 12th of August, 1993 by Ann Burlin, the director of Department Europe Branch of Investigation «International Amnesty» during the night from 25th to 26th of February, Jafarov Samir and his members of family were taken hostages by Armenian military men and kept in Vang village of Aghdara district of Azerbaijan Republic.

### Cəfərov Sarvan Əlif oğlu



1974-cü ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Qəhrəmanlı kəndində anadan olub. 1992-ci ildə Beyləqan Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 26 yanvar 1994-cü ildə Füzuli rayonunun Aşağı

### Jafarov Sarvan Alif oglu

Jafarov Sarvan Alif oglu was born in Gahramanli village of Beylagan district of Azerbaijan Republic in 1974. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Beylagan district. On

Əhmədli kəndində gedən döyüşdə itkin düşüb.

Atası-Beyləqan rayonu Qəhrəmanlı kənd sakini Cəfərov Əlif Məhəmməd oğlunun verdiyi məlumata görə,oğlunun axtarışı ilə bağlı erməni əsirliyindən azad olunmuş Şükürov Şükür Yaşar oğlu (hazırda Ukraynada yaşayır) ilə görüşəndə o, 1995-ci ildə Xankəndində Sarvanla saxlandıqlarını və inşaat işlərinə cəlb edildiklərini deyib.

Qardaşı-Beyləqan rayonu Qəhrəmanlı kənd sakini Cəfərov Mətləb Əlif oğlu ərizəsində yazıb ki, 1995-ci ilin fevral ayında işğal olunmuş Xankəndindən hərbi əsirlər haqqında hazırlanmış radio verilişdə Sarvanın müsahibəsini eşidib. Həmin il Rusiyanın Tomsk şəhərində işlədiyi zaman orada Robik adlı erməni vasitəsilə Sarvanın Xankəndində saxlandığını da öyrənib.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun dediyinə görə, erməni tərəfi ilə radioəlaqə yaradaraq polis əməkdaşı Edikdən Sarvanın Xocavənd rayonunda saxlandığını öyrənib. Ermənilər onu azad etmək üçün 20 milyon rus rublu tələb ediblər. Ailəsi həmin pulu tapa bilmədiyi üçün dəyişmə baş tutmayıb.

the 26th of January, 1994 during the fight in Ashagi Ahmedli village of Fuzuli district Jafarov Sarvan was missed.

According to the information of his father Jafarov Alif Mahammad oglu who lived in Gahramanli village of Beylagan district, when he searched for his son former prisoner Shukurov Shukur Yashar oglu (at present he lives in Ukraine) who released from Armenian captivity said that with Sarvan they were kept in Khankandi and forced for constructive work in 1995.

His brother Jafarov Matlab Alif oglu who lived in Gahramanli village of Beylagan district wrote a statement that he had heard Sarvan's interview by Khankandi radio program concerning the prisoners of war in February of 1995. When he worked in Tomsk (Russia) he also found out from Armenian whose name was Robik that Sarvar was kept in Khankandi.

According to the words of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan district), he connected with Armenian side by radio communication and found out from policeman Edik that Sarvan was kept in Khojavand. Armenians demanded 20 million Russian rubles for his release. Change didn't realize because his family couldn't find money.

## Cəfərov Tahir Cəmaləddin oğlu

1960-cı ildə Azərbaycan Respublikasının Bərdə şəhərində anadan olub. Saratov şəhərində yerləşən Ali Polis Məktəbinin müdavimi kapitan Cəfərov Tahir Xocalı şəhərinin ermənilər tərəfindən işğalından sonra könüllü olaraq özü-



## Jafarov Tahir Jamaladdin oglu

Jafarov Tahir Jamaladdin oglu was born in Barda town of Azerbaijan Republic in 1960. The last year student of Supreme Police School in Saratov city, captain Jafarov Tahir took part in defense of Garabagh allotted to self-

nümüdafiə dəstəsinin tərkibində Qarabağın müdafiəsində iştirak edib. 2 aprel 1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı mülkü əhalinin ərazidən çıxarılmasına kömək edərkən sol ayağından yaralanaraq əsir götürülüb. İşğal olunmuş Xankəndi və Şuşa şəhərlərindəki həbsxanalarda saxlanılıb.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhərinin Buzovna qəsəbəsində yerləşən «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun təqdim etdiyi Şuşa şəhərindəki erməni alayının qərargah rəisi Armais Saakyanın verdiyi Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş 37 azərbaycanlı hərbi əsirin siyahısında Cəfərov Tahirin də adı olub. Qarşı tərəf onları jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı olmuş «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyib. Lakin Ayriyan vəfat etdiyi üçün dəyişmə baş tutmayıb.

Atası-Bərdə şəhəri,Təbriz küçəsi,ev 4-də yaşayan Cəfərov Cəmaləddin Mustafa oğlu ərizəsində yazıb ki,1996-cı ildə Bərdə şəhərində milliyyətcə gürcü olan bir nəfər iş adamı ilə görüşüb. Həmin şəxs bacısının həyat yoldaşının erməni olduğunu və hərbi həkim işlədiyini bilidirib. O,Tahirin şəklini Ermənistana aparıb. Bir müddət sonra geri dönüb və onun Qafan təcridxanasında xüsusi nəzarət altında saxlandığını deyib.

defense battalion after Khojali's occupation by Armenian forces. On the 2nd of April, 1993 during Kelbajar's occupation Tahir helped people to leave the territory, then he was wounded in left leg and taken prisoner. He was kept in Khankandi and Shusha prisons.

Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (now he lives in sanatorium «Zugulba» in Baku, Buzovna settlement) who engaged in change of prisoners of war and hostages represented a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC and the chief of staff of Armenian regiment Armais Saakyan confirmed that list. There was the name of Jafarov Tahir in the list. The opposite side wanted to change them for a killer of journalist Salatin Asgerova – Arkadi Ayriyan whose nickname was «Napoleon». But Ayriyan died and the change didn't realize.

His father Jafarov Jamaladdin Mustafa oglu (he lives in Barda, Tabriz Street, 4) wrote a statement that he met a businessman from Georgia in Barda district in 1996. That man said that sister's husband was Armenian and a military doctor. He took Tahir's picture to Armenian. Later he returned and said that Tahir was kept under special control in Gafan isolation.

**Cəfərova Bağdad Həsən qızı**

1925-ci ildə Ermənistan Respublikası Əzizbəyov rayonunun Kotanlı kəndində anadan olub. 1930-cu ildə ermənilər tərəfindən doğma yurdlarından qovulan zaman Azərbaycan Respublikasının Xocalı



**Jafarova Bagdad Hasan gizi**

Jafarova Bagdad Hasan gizi was born in Kotanli village of Azizbeyov district of Armenia in 1925. When Armenians expatriated them from native lands in 1930, they moved into Khojali. On

şəhərində məskunlaşıblar. 26 fevral 1992-ci ildə Xocalı şəhəri ermənilər tərəfindən işğal olunan gün həyat yoldaşı Cəfərov Məhəmməd Vəlikişi oğlu (1915) ilə yaşadıqları evdə girov götürülüb.

Oğlu-Xocalı şəhər sakini, Mingəçevir şəhəri, Kür avarçəkmə bazasında məskunlaşmış, Cəfərov Cəfər Məhəmməd oğlunun dediyinə görə, şəhər işğal olunan zaman valideynləri qəti şəkildə ikinci dəfə qaçqın həyatı yaşamayacaqlarını, ərazini tərk etməyəcəklərini bildiriblər. Övladları onları fikirlərindən döndərə bilməyiblər. Buna görə, də əhali işğal olunmuş ərazini tərk edəndə Cəfərovlar öz evlərində qalıblar.

Erməni əsirliyindən qayıtmış Xocalı sakinləri, hazırda Ağdam rayonunda məskunlaşmış çoban Yusif, Hüseynova Şərqiyyə və Yusifova Filyarın Cəfərə verdikləri məlumata görə, onlar girov götürülən zaman Cəfərovların evində saxlanılıblar. Bir neçə gündən sonra ermənilər Bağdadı və onun həyat yoldaşı Məhəmmədi ev əşyaları ilə birlikdə yük maşınında Xankəndinə aparıblar. Xankəndi şəhərində onları əvvəlcə uşaq xəstəxanasında, sonra isə Ballıca pioner düşərgəsində saxlayıblar. Cəfərovların sonrakı taleləri bəlli deyil.

the 26th of February, 1992 during the day of Khojali's occupation Bagdad with her husband Jafarov Mahammad Valikishi oglu (year of birth: 1915) was taken hostage at their house.

According to the words of brother Jafarov Jafar Mahammad oglu who lived in Khojali (at present he lives in Mingechevir) during Khojali's occupation, his parents refused to leave the territory and didn't want to live refugee's life for the second time. Their children couldn't make them change mind. When people left the territory, the Jafarovs stayed at the house.

The shepherd Yusif, Huseynova Shargiyya and Yusifova Filyar who lived in Khojali and returned from Armenian captivity (now they live in Aghdam district) informed Jafar that Armenians took them as hostages and kept in Jafarov's house. Several days later Bagdad and her husband with prisoners and their things were taken to Khankandi by the truck. At first they were kept in a children hospital and then in Ballija pioneer camp. The further Jafarovs' lives are unknown.

**Cəlilov Azər Əlibaba oğlu**



1961-ci ildə anadan olub. 17 noyabr 1993-cü ildə Sabunçu Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 28 dekabr 1993-cü ildə Ağdam rayonunun Boyəhmədli kəndində gedən döyüş zamanı yaralı vəziyyətdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış döyüş yolda-

**Jalilov Azer Alibaba oglu**

Jalilov Azer Alibaba oglu was born in 1961. On the 17th of November, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Sabunchu district. On the 28th of December, 1993 during the fight for Boy Ahmedli village of Aghdam district wounded Azer was taken prisoner.

şı - Bakı şəhəri, 2-ci Zabrat qəsəbəsi, ev 22, mənzil 3-də yaşayan Əsgərov Hidayət Nəriman oğlu izahatında 28 dekabr 1993-cü ildə Boyəhmədli kəndində gedən döyüş zamanı həmyerlisi Azərlə birlikdə ermənilərin açdıqları qumbaraatan atəşindən yaralanaraq əsir götürüldüklərini yazıb. Əsir götürüldükdən sonra ermənilər onları ayrı-ayrı yerlərə apardıqları üçün Azəri bir daha görməyib.



**Cəlilov Feyruz Xanbala oğlu**

1957-ci ildə Azərbaycan Respublikası Siyəzən rayonunun Məşrif kəndində anadan olub. Zabrat aeroportunda təyyarəçi işləyib. 1991-ci ildən qulluq etdiyi vertolyot alayının tərkibində döyüş bölgəsinə göndərilib. 1993-cü ilin avqust ayında eskadriliya komandiri kapitan Cəlilov Feyruzun idarə etdiyi Mİ-24 markalı təyyarə Qubadlı rayonu uğrunda döyüş zamanı ermənilər tərəfindən vurulub, özü isə əsir götürülüb.

Həyat yoldaşı-Bakı şəhəri, Yeni Yasamal-1, ev 4, mənzil 139A-da yaşayan Quliyeva Səlimə Nəcəfqulu qızının verdiyi məlumata görə, Qubadlı sakinləri ona Feyruzun idarə etdiyi təyyarənin Qayalı və Mahmudlu kəndləri arasında vurulduğunu və Yazı düzündə yerə endiyini deyiblər.

Qardaşı-Siyəzən rayonu Məşrif kənd sakini Cəlilov Fazil Xanbala oğlu ərizəsində yazıb ki, Feyruzun axtarışı zamanı onun idarə etdiyi təyyarənin vurulduğunun şahidi olmuş Qubadlı sakini ona yerə endikdən sonra 3 nəfərin düşüb, qaçdığını deyib. Həmin şəxsin dediyinə görə, onlardan birini ermənilər öldürüb, 2 nəfərini isə əsir götürüblər. Fazil 1993-cü ildə bir neçə dəfə Gürcüstan

His front-line comrade Asgarov Hidayet Novruz oglu who returned from Armenian captivity (now he lives in Baku, 2nd Zabrat, 22 app.3) wrote a statement that on the 28th of December during the fight in Boy Ahmedli village of Aghdam district, Armenians opened fire by the grenade. They were wounded and taken prisoners. After captivity Armenians took them to the separate place and he didn't see Azer any more.

**Jalilov Feyruz Khanbala oglu.**

Jalilov Feyruz Khanbala oglu was born in Mashrif village of Siyazan district of Azerbaijan Republic in 1957. He was a pilot at Zabrat airport. In 1991 Feyruz was sent to fight allotted to helicopter regiment. In august of 1993 the plain MI-24 was fired by Armenians during the fight for Gubadli district.

According to the information of his wife Guliyeva Salima Najafgulu gizi (she lives in Baku, Yeni Yasamal-1, app 4/139 «□»), Gubadli's inhabitants said that the plane of Feyruz was fired between Gayali and Mahmudlu village and landed on Yazi duzu.

His brother Jalilov Fazil Khanbala oglu who lived in Mashrif village of Siyazan district, while searching for his brother he witnessed that his plane was fired and after his landing 3 men took out and ran away. According to the words one of those men was killed but 2 other men were taken prisoners. In 1993 Fazil went to Sadakhli village of Marneuli district of Georgia for many times. The head of Noyemberyan district of Armenian Committee of State

Respublikası Marneuli rayonunun Sadaxlı kəndinə gedib. Görüşlərdən birində Ermənistan Dövlət Təhlükəsizlik Komitəsi Noyemberyan rayon şöbəsinin rəisi Alik Sarumyanın əsir düşmüş azərbaycanlı təyyarəçilərin qohumları ilə görüşmək istədiyini öyrənib. Lakin onunla əlaqə yarada bilməyib. Bir dəfə özünü Daxili Qoşunların əks-kəşfiyyat idarəsinin rəisi kimi təqdim edən Varseqyan Eduard Samsonoviç (əslində Qafan rayon Polis Şöbəsinin rəisi olub) adlı şəxs ona itkin düşmüş oğlu-Baqram Eduardoviçin tapılmasına kömək etməyi təklif edib. Özünün də Feyruzun axtarışı ilə məşğul olacağını bildirib. Sonradan heç bir nəticə əldə olunmayıb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində yazıb ki, 1993-cü ildə əsir və girovların dəyişdirilməsi zamanı erməni polisinin əməkdaşı Albert Voskanyan ona Cəlilov Feyruzun əsir götürülüb, Dağlıq Qarabağda saxlandığını, itkin düşmüş qohumları ilə dəyişmək istədiyini bildirib. Ermənilər tapılmadığı üçün Feyruzu azad etmək mümkün olmayıb.

Security Alik Sarumyan wanted to meet the relatives of Azerbaijani pilots who taken prisoners. But he couldn't connect with them. Once Armenian who represented himself as a head of counter-intelligence Department Varsegyan Eduard Samsonovich (he was the head of Police Department of Gafan district) offered to help in search for missed Bagram Eduardovich. He informed that he would search for Jalilov Feyruz. Then there was no information concerning him.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (at present he lives in Machgara village of Beylagan district) wrote a statement when he was engaged in change of prisoners of war and hostages in 1993, Armenian policeman Albert Voskanyan informed that Jalilov Feyruz was taken prisoner, kept in Upper Garabagh and wanted to change him for missed relatives. It was impossible to release Feyruz because they couldn't find Armenians.

**Cəmilov Cəmil Kərəm oğlu**



1973-cü ildə Azərbaycan Respublikası Qobustan rayonunun Təsi kəndində anadan olub. 1992-ci ilin may ayında Şamaxı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 25 yanvar 1993-cü ildə Ağdamın Xromud kəndinin Fərrux yüksəkliyi uğrunda döyüşdə itkin düşüb.

Atası - Qobustan rayonu Təsi kənd sakini Cəmilov Kərəm Qələm oğlunun verdiyi

**Jamilov Jamil Karm oglu**

Jamilov Jamil Karam oglu was born in Tesi village of Gobustan district of Azerbaijan Republic in 1973. In May of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Shamakhi district. On the 25th of January, 1993 during the fight for Farrukh of Khorarmud village of Aghdam district Jamil was missed.

According to the information of his father

məlumata görə, oğlunun axtarışı ilə məşğul olan zaman dəfələrlə Bərdə rayonuna gedib. Bir dəfə yerli sakinlərin və hərbçilərin köməyi sayəsində Güllücə postunda ermənilərlə danışıqlarda iştirak edib. Sabiq Bakı ermənisi Qarayan Arşavel Behbudoviçdən (Xankəndi şəhəri, Martuni küçəsi, ev 44-də yaşayır) oğlunun sağ olduğunu və Dağlıq Qarabağda şəxsi evdə saxlandığını öyrənib. Sonradan alınan məlumata görə, Cəmili Ermənistanın Kirovakan şəhərinə aparıblar.



**Cəmilova Məsmə Hidayət qızı**

1969-cu ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Əsrik kəndində anadan olub. 31 mart Kəlbəcər rayonunun ermənilər tərəfindən işğal olunduğu gün ərazini tərk edərkən Tunel adlanan ərazidə ermənilər tərəfindən girov götürülüb.

Anası - Şəki rayonu Dəmiryol Köçkünlər qəsəbəsində məskunlaşmış Cəmilova Zeynəb Bəylər qızının verdiyi məlumata görə, «KamAZ» markalı avtomaşınla rayonu tərk edən zaman Tunel adlanan yerdə atəşə tutulublar. Qızı Məsmə həmkəndliləri və qohumları ilə girov götürülüb.

Qohumu - Əslən Laçın rayonundan olan, Bakı şəhəri, Kooperativ Texnikumunun 1 saylı yataqxanasında məskunlaşmış Əliyev Müşfiq Nadir oğlu izahatında həmin gün «KamAZ» markalı avtomaşınla Gəncəyə tərəf gələrkən Cəmilova Məsmənin də onlarla olduğunu göstərib. O, Tunel deyilən yerdə erməni hücümuna məruz qalıb və yaralanıb. Girov götürülərək Xankəndi şəhərində yerləşən uşaq xəstəxanasında saxlanılıb.

Erməni əsirliyindən qayıtmış Füzuli rayonu Böyük Bəhmənli kənd sakinləri Ələkbə-

Jamilov Karam Galam oglu who lived in Tesi village of Gobustan district, he went to Barda for many times when he searched for his son. He took part in talks with Armenians on Gulleje point by the assistance of local inhabitants and military men. Armenian from Baku Garayan Arshavel Behbudovich (he lives in Khankandi town, Martuni Street, 44) said that his son was alive and kept in a private house in Upper Garabagh. According to the information gotten later Jamil was taken to Kirovakan of Armenia.

**Jamilova Masma Hidayet gizi**

Jamilova Masma Hidayet gizi was born in Asrik village of Kelbajar district of Azerbaijan Republic in 1969. On the 31st of March, 1993 during the day of Kelbajar□s occupation by Armenians Masma left the territory called Tunel and then she was taken hostage by Armenians.

According to the information of his mother Jamilova Zeynab Beylar gizi (at present she lives in Shaki district, Railway Settlers□ settlement), during the occupation of territory they ran away in order to save their life by car «KamAZ». Armenians fired upon them. Masma with villagers and relatives was taken hostage by Armenians.

Aliyev Mushfig Nadir oglu who was originally from Lachin district (now he lives in hostel „ 1 of Cooperative Technical Secondary School in Baku) wrote a statement that during the occupation of territory Mushfig with relatives including Jamilova Masma by car «KamAZ» went to Ganja. Armenians attacked her on the territory of Tunel and she was wounded. Armenians took her as a hostage and kept in children hospital in Khankandi.

According to a statement of Alekberov

rov Qaraxan Bayram oğlu və Məmmədov Sədrəddin Nəsib oğlunun dediyinə görə, Xankəndi uşaq xəstəxanasında əsir saxlandıqları zaman Cəmilova Məsmə Hidayət qızı da orada olub.



### Dadaşov Mikayıl İslam oğlu

1970-ci ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. 1991-ci ilin dekabr ayında hərbi xidməti başa vurduqdan sonra doğma Xocavənd rayonunun Qaradağlı kəndinə qayıdıb, özünümüdafiə dəstəsinin tərkibində döyüşüb. 17 fevral 1992-ci ildə yaşadıqları kənd ermənilər tərəfindən mühasirəyə alınıb, Mikayıl da daxil olmaqla 117 nəfər girov götürülüb.

Atası-Xocavənd rayonu Qaradağlı kənd sakini, Mingəçevir şəhəri, 10 saylı tikinti idarəsinin ərazisində məskunlaşmış Dadaşov İslam İsa oğlunun verdiyi məlumata görə, oğlunun axtarışı zamanı Ağdam rayonunun Mərzili və Xocavənd rayonunun Qarakənd kəndləri ərazisində keçirilən görüşlərdə iştirak edib. Həmin görüşlərdə İslamın keçmiş tanışı, milliyyətcə erməni, Müşqabad kolxozunda «QAZ-53» markalı avtomaşının sürücüsü işləmiş, sonradan tabor komandiri Abo da iştirak edib. Abo ona Mikayılın sağ olduğunu, Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin işçiləri tərəfindən Yerevan şəhərinə aparıldığını, qarşı tərəfin onu erməni hərbçisi, ya da Yerevan sakini ilə dəyişmək istəydiyini bildirib. Azərbaycan tərəfdə erməni əsiri tapılmadığı üçün onu azad etmək mümkün olmayıb.

Erməni əsirliyindən qayıtmış Xocavənd rayonu Qaradağlı kənd sakinləri, Beyləqan



Garakhan Bayram oglu and Mammadov Sedreddin Nasib oglu who lived in Boyuk Behmenli village of Fuzuli district and returned from Armenian captivity, they were kept in Khankendi children hospital as prisoners and Jamilova Masma Hidayet gizi was also there.

### Dadashov Mikayil Islam oglu

Dadashov Mikayil Islam oglu was born in Garadaghli village of Khojavand district of Azerbaijan Republic in 1970. In December of 1991 he returned native Garadaghli village of Khojavand district after the military service. Mikayil voluntarily fought allotted to self-defense battalion. On the 17th of February, 1992 their village was surrounded by Armenians, 117 inhabitants including Mikayil were taken hostages.

According to the information of his father who lived in Garadaghli village of Khojavand district (at present he lives in Mingechevir, the territory of Construction Administration „ 10), while searching for his son he took part in meetings on the territory of Garakand village of Khojavand district and Marzili village of Aghdam district. Islam's former familiar an Armenian who worked as a driver by the car "QAZ-53" in Mushgabad collective Abo farm and then the commander of battalion took part in that meeting. Abo said that Mikayil was alive and taken to Yerevan city by officials of Armenian Committee of State Security. Armenians demanded to change him for missed military man or Armenians from Yerevan. Mikayil's family could realize their demands and it was impossible to release him.

Former prisoners: Kazimov Kazim

rayonunun Hərami düzü deyilən ərazisində məskunlaşmış Kazımov Kazım Əbülhəsən oğlu və Bakı şəhəri,B.Nuriyev küçəsi,ev 55, mənzil 60-da məskunlaşmış Hüseynov Firudin Hümmət oğlu izahatlarında Xankəndi şəhərində Dadaşov Mikayılla birlikdə saxlandıqlarını təsdiq edirlər.

Erməni əsirliyindən azad olunmuş həmyerliləri - Mingəçevir şəhərində yerləşən şüşə zavodunda məskunlaşmış Məmmədov Şəmil Alı oğlu və Bakı şəhərinin Nizami rayonunda, Bakıxanov qəsəbəsi, R. Qənbərov küçəsi 4 ünvanda yerləşən Maşınqayırma Texnikumunun yataqxanasında məskunlaşmış Tağıyev Tevon Habil oğlunun dediyinə görə, 17 fevral 1992-ci ildə ermənilər onları girov götürüb,yolda kənd cavanlarının çoxunu güllələmiş,qalanlarını da Xankəndi şəhərinə gətirib,hərbi məktəbin zirzəmisinə doldurmuşlar. Səhəri gün-18 fevral 1992-ci ildə 2 erməni hərbçisi Mikayıl da daxil olmaqla cavanlardan 5 nəfərini seçib naməlum istiqamətə aparmışlar.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin verdiyi arayışa görə,Dadaşov Mikayıl 17 fevral 1992-ci ildən 18 fevral 1992-ci ilə kimi Xankəndi şəhərində yerləşən 46492 saylı hərbi hissədə saxlanılıb.

Abulhasan oglu (now he lives Harami of Beylagan district) and Huseynov Firudin (he lives in Baku, B.Nuriyev Street 55, app. 66) wrote a statement that they were kept in Khankandi with Dadashov Mikayil who lived in Garadaghli village of Khojavand district.

According to the words of his villagers: Mammadov Shamil Ali oglu (he lives in a glass plant in Mingechevir) and Tagiyev Tevon Habil oglu (he lives in a hostel of machine-building technical secondary school in Baku, Nizami district, R.Ganbarov Street 4) who released from Armenian captivity, they were taken hostages by Armenians on the 17th of February, 1992. Many of young men were fired on the way and brought them to the draw-well, the others were taken to Khankandi and sent to the cellar of military school. The next morning, on the 18th of February, 1992, 2 Armenian military men opened the cellar, separated 5 man including Mikayil and took them to unknown direction.

According to the report of ICRC, Dadashov Mikayil was kept in military unit „ 46492 in Khankandi from 17th of February, 1992 to the 18th of February, 1992.

**Dadayev**
**Qalib**
**Kəmaləddin oğlu**



1973-cü ildə Azərbaycan Respublikası Balakən rayonunun Mahamalar kəndində anadan olub. 1992-ci ilin iyun ayında Balakən Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili Qoşunların tərkibində Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 24 noyabr 1994-cü ildə Laçın rayonunun Haxnəzər kəndi uğrunda döyüşdə yaralı vəziyyətdə

**Dadayev**
**Galib**
**Kamaladdin oglu**

Dadayev Galib Kamaladdin oglu was born in Mahamalar village of Balakan district of Azerbaijan Rebublic in 1973. In June of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Balakan district. Galib took part in fights for Garabagh allotted to Internal Forces. On the 24th of November, 1994 during the fight for Hakhna-

ermənilər tərəfindən əsir götürülüb.

Atası-Balakən rayonu Mahamalar kənd sakini Dadayev Kəmaləddin Məhəmməd oğlu ərizəsində oğlunun axtarışı zamanı onun 24 noyabr 1994-cü ildə gedən döyüşdən 45 nəfərlə birlikdə qayıtmadığını və əsir götürüldüyünü öyrənib. Dadayevin dediyinə görə, leytenant Şibliyev Nəriman Məhəmməd oğlu (sonradan 5 döyüşçü ilə erməni mühasirəsinə düşüb və özlərini qumbara ilə partladıb,qəhrəmancasına şəhid olublar) ermənilərlə radiorabitə yaradaraq Qalibin sağ olduğunu,Xankəndi şəhərində məktəb binasında saxlandığını,Gorus rayonunda işlədildiyini aydınlaşdırıb. Qarşı tərəf saxladığı 10 azərbaycanlı əsiri itkin düşmüş komandir müavini,milliyyətcə erməni Feliks adlı şəxsin dirisi və ya ölüsü ilə dəyişməyi təklif edib. Feliks tapılmadığı üçün hərbçiləri azad etmək mümkün olmayıb.

Döyüş yoldaşı-Balakən rayonu Hənifə kənd sakini, Bakı şəhəri, Keşlə qəsəbəsi, Tramvay küçəsi,ev 16,mənzil 4-də yaşayan Şeyxov Mübariz Qurban oğlu izahatında 24 noyabr 1994-cü ildə Laçın rayonunun Haxnəzər kəndində qızğın döyüş getdiyini,Qalibin arxa mövqedən qışqıraraq gülləsi qurtardığını onlara bildirdiyini yazıb. Mübariz qeyd edib ki, ermənilər hər tərəfdən atəş açaraq onları güllə yağışına tutublar. Yaralı Qalibi əsir götürdüklərinin şahidi olub,lakin məsafənin uzaqlığından və ermənilərin sayca çox olduqlarından ona kömək edə bilməyib.

zar village of Lachin district wounded Galib was taken prisoner by Armenians.

His father Dadayev Kamaladdin Mahammad oglu who lived in Mahamalar village of Balakan district wrote a statement while searching for his son, his front-line comrades said that 45 men including Galib didn't return and were taken prisoners at the last fight. According to Dadayev's words lieutenant Shibliyev Nariman Mahammad oglu (then together with 5 fighters were surrounded by Armenians, blew up themselves and died as heroes) connected with Armenians by radio communication and found out that Galib was alive, kept in a school and forced to work in Gorus district. Armenians offered to change 10 Azerbaijani prisoners of war for missed deputy commander, an Armenian Felix or his corpse. It was impossible to release military men because they couldn't find Felix.

His front-line comrade Sheykhov Mubariz Gurban oglu who lived in Hanifa village of Balakan district (now he lives in Baku, Keshle settlement, Tramvay street 16, app. 4) wrote a statement that there was a battle in Hakhnazar village of Lachin district, Galib took up a position behind them on the 24th of November, 1994. His bullets were over and he cried. Mubariz noted that nobody could help Galib because Armenians fired upon all the sides. He witnessed that wounded Galib was taken prisoner. They couldn't help because of long distance and the quantities of Armenians were too much.

**Davudov**
**Qalib**
**Azad oğlu**

1971-ci ildə Bakı şəhərində anadan olub. 21 mart 1992-ci ildə qonşusu Nail Kazımovun təşkil etdiyi Suraxanı könüllülər taborunun tərkibində Qarabağ uğrunda döyüşlərə yollanıb. 8 mart 1992-ci ildə Şuşa ermənilər tərəfindən işğal olunan zaman əsir götürülüb.

Bu məlumatı qardaşı-Bakı şəhəri, H.Cavid prospekti 559/560-cı məhəllə, ev 12-də yaşayan Davudov Yaşar Azad oğlu verib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni Alaverdiyan Samirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22; tel: 48-67-93) aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Davudov Qalibin də adı olub. Onun Ermənistanın Spitak şəhərində yerləşən 42411 saylı həbsxanada saxlandığı göstərilib.



**Davudov**
**Galib**
**Azad oglu**

Davudov Galib Azad oglu was born in Baku in 1971. On the 21st of March, 1992 his neighbour Nail Kazimov organized Surakhani battalion of voluntaries and he was sent to fight for Garabagh allotted to that battalion. On the 8th of May, 1992 during Shusha's occupation by Armenians he was taken prisoner.

That information was given by his brother – Davudov Yashar Azad oglu (he lives in Baku, H.Cavid avenue, 559/560 quarter, app. 12).

Huseynov Akif Saleh oglu who lived in Arsik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners of war and hostages kept by Armenians from Alaverdyan Shamir (Yerevan city – 74, Nijniy Shengavit Street, 35, ap.22, phone 48-67-93) in Tbilisi. There was the name of Davudov Galib in that list. It was shown that he was kept in prison „ 42411 in Spitak of Armenia.

**Dəmirov**
**Elçin**
**Münsif oğlu**

1964-cü ildə Azərbaycan Respublikası Goranboy rayonunun Xanqərvənd kəndində anadan olub. 1993-cü ildə könüllü olaraq hərbi xidmətə yollanıb. 10 aprel 1994-cü ildə Goranboy rayonunun Gülüstan kəndi uğrunda döyüşdə ağır yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.



**Damirov**
**Elchin**
**Munsif oglu**

Damirov Elchin Munsif oglu was born in Khangarvand village of Goranboy district of Azerbaijan Republic. In 1993 he was voluntarily sent to the military service. On the 10th of April, 1994 during the fight for Gulustan village of Goranboy district wounded Elchin was taken prisoner by Armenians.

Döyüş yoldaşı-Goranboy rayonu Xanqərvənd kənd sakini Rüstəmov Rizvan İsa oğlunun dediyinə görə, 10 aprel 1994-cü ildə səhər saat 5-6 radələrində mövqeləri ermənilər tərəfindən qumbaraatanla atəşə tutulub. Orada olan 7 döyüşçü qəlpə yarası alıb. Onlardan ən ağır yaralanan Dəmirov Elçin olub. Rizvan bud nahiyəsindən ağır yara aldığından yeriyə bilməyən Elçini, döyüş yoldaşı Dəmirov Teymurla birlikdə həmin ərazidən çıxarıb, bulağın başına kimi gətirib, arxadan yaralılara kömək çağırmaq məqsədi ilə təpənin başına çıxıb. Bu vaxt başqa bir yaralı döyüşçü onlardan kömək istəyib. Onlar həmin döyüşçünü nisbətən yüngül yaralandığı üçün sürüyə-sürüyə təpənin başına qaldırıblar. Az keçməmiş Elçini qoyub, gəldikləri zaman ərazi ermənilər tərəfindən işğal olunduğu üçün onu xilas edə bilməyib.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhərinin Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun verdiyi məlumata görə, Şuşa şəhərində yerləşən erməni alayının qərargah rəisi Armais Saakyanın təsdiq etdiyi Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş, Xankəndi və Şuşa şəhərlərində yerləşən erməni alaylarında və şəxsi evlərdə saxlanılan 37 azərbaycanlı hərbi əsirin siyahısında Dəmirov Elçinin də adı olub. Qarşı tərəf onları jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyib. Lakin Ayriyan vəfat etdiyi üçün dəyişmə baş tutmayıb.

Bu faktı əsir götürülmüş Hümbətov Xalidin atası-Kəlbəcər rayonu Halçalı kənd sakini Hümbətov Əli, əsir Muxtarov Telmanın atası-Hacıqabul rayonu Nəvahi kənd sakini Muxtarov Əlisahib, əsir İsayev Bəxtiyarın atası-Bakı şəhərinin Motodrom massivi, ev 8-də yaşayan İsayev Səfər Əli oğlu da təsdiq edib.

According to the words of his front-line comrade Rustamov Rizvan Isa oglu who lived in Khangarvand village of Goranboy district, Armenians fired upon their positions by the grenade. At 5-6 o'clock on the 10 th of April, 1994. There were 7 wounded fighters. The most seriously wounded of them was Damirov Elchin. Rizvan was wounded in leg. Elchin couldn't walk and his front-line comrade Damirov Teymur took him out of that territory and brought him to the spring. Then he went to call somebody for the help and went up to the height. At that moment another wounded called for the help. That fighter wasn't seriously wounded and they took him with them. Later they returned and didn't see Elchin on the same territory. That territory was occupied by Armenians,

According to the information of Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village (he lives in sanatorium «Zugulba» in Baku, Buzovna settlement), the chief of staff of Armenian regiment in Shusha town Armais Saakyan confirmed a list of 37 Azerbaijani prisoners of war hidden form ICRC who was kept in Armenian regiments in Khankandi and Shusha and the private houses. There was the name of Damirov Elchin in that list. The opposite side wanted to change them for a killer of journalist Salatin Alesgarova Arkadi Ayriyan whose nickname was «Napoleon». But Ayriyan died and the change didn't realize.

That fact was confirmed by the father of prisoner of war Humbatov Khalid Ali oglu – Humbatov Ali who lived in Halchali village of Kelbajar district, the father of prisoner of war Mukhtarov Telman Alisahib oglu – Mukhtarov Alisahib who lived in Navahi village of Hajigabul district, the father of prisoner of war Isayev Bakhtiyar oglu – Isayev Bakhtiyar who lived in Baku, Motodrom massif, 8.

**Dibirov Məhəmməd Yəhya oğlu**

1961-ci ildə Azərbaycan Respublikası Balakən rayonunun Talalar kəndində anadan olub. 6 iyun 1992-ci ildə Balakən Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 16 iyul 1992-ci ildə Ağdam rayonunun Sırxavənd kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Anası-Balakən rayonu Talalar kənd sakini Dibirova Fatma Harun qızı izahatında yazıb ki, erməni tərəfi onlarla əlaqə yaradıb, oğlunun sağ olduğunu,Ermənistanda saxlandığını və onu azad etmək üçün itkin düşmüş Torosyan Armen Avetisoviçi tapmağı bildirib. Armen tapılmadığından Məhəmməd azad edilməyib.



**Dibirov Mahammad Yahya oglu**

Dibirov Mahammad Yahya oglu was born in Talalar village of Balakan district in 1961. On the 6th of June, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Balakan district. On the 16th of July, 1992 during the fight in Sirkhavand village of Aghdam district Mahammad was taken prisoner.

His mother Dibirova Fatma Harun gizi who lived in Talalar village of Balakan district wrote a statement that Armenian side connected with her, informed that her son was alive and kept in Armenia. If they wanted to release him, it would be necessary to find missed Armenian Torosyan Armen Avetisovich. It was impossible to release him because they couldn't find that Armenian.

**Əbdülov Zahid Yelmar oğlu**

1973-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri işğal olunan gün atası Əbdülov Yelmar İsgəndər oğlu ilə birlikdə girov götürülüb.

Anası-Xocalı şəhər sakini, Bakı Dövlət Universitetinin 5 saylı yataqxanasında məskunlaşmış Əbdülova Raya Kərim qızı ərizəsində yazıb ki, işğal günü həyat yoldaşı Əbdülov Yelmar İsgəndər oğlu və oğlu Zahid ermənilər tərəfindən girov



**Abdulov Zahid Yelmar oglu**

Abdulov Zahid Yelmar oglu was born in Khojali town of Azerbaijan Republic in 1973. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces Zahid with his father Abdulov Yelmar Isgandar oglu was taken hostage.

His mother Abdulova Raya Karim gizi who lived in Khojali (now she lives in the hostel „ 5 of BSU in Baku) wrote a statement that during occupation with husband Abdulov

götürülüb. Bir neçə gündən sonra həyat yoldaşı Əsgəran Rayon Polis Şöbəsinin həyətində güllələnib,meyidi sonradan Milli Ordunun döyüşçüləri vasitəsilə ailəsinə qaytarılıb. Oğlunun taleyi isə məlum olmayıb.

Bibisi-Xocalı şəhər sakini,Bakı şəhərinin Mərdəkan qəsəbəsindəki «Sülh» pioner düşərgəsində məskunlaşmış Məmmədova Gülövşə Bəxtiyar qızının dediyinə görə, oğlu Zahid Məmmədov Fərman Qəzənfər oğlu ilə birlikdə girov götürülüb. Onlar Əsgəran Rayon Polis Şöbəsinin binasına gətirilən zaman Əbdülov Yelmar və Zahid də onlarla birlikdə olub. Ermənilər Yelmarla Zahidi naməlum istiqamətə aparıblar. Gülövşə bir daha onları görməyib.

Xocalı sakini,Naftalan şəhərindəki «Qarabağ» sanatoriyasında məskunlaşmış Məmmədova Tamaşa Qaytaran qızının verdiyi məlumata görə,işğal günü ermənilər onu girov götürüb Əsgəran Rayon Polis Şöbəsinə gətirən vaxt Əbdülov Zahidin atası Yelmarla həmin idarənin zirzəmisində girov saxlandığını görüb. Bir neçə gündən sonra Tamaşanı azad ediblər,Əbdülovlar isə orada qalıb.

Yelmar Isgandar oglu and son Zahid they were taken hostages by Armenians. Several days later Armenians fired upon her husband in Asgaran district Police Department. Then his corpse was returned family by the assistance of fighters of National Army. There□s no information concerning her son.

His father□s sister Mammadova Gulovsha Bakhtiyar gizi who lived in Khojali (at present she lives in «Sulh» pioneer camp in Mardakan settlement, Baku) said that Mammadov Farman Gazanfar oglu was taken hostage. When Armenians took them to Asgaran district, Abdulov Yelmar and his son Zahid were with them. Armenian took Yelmar and Zahid to unknown direction. Gulovsha didn□t see them any more.

According to the information of Mammadov Tamasha Gaytaran gizi who lived in Khojali (she lives in «Garabagh» sanatorium in Naftalan town), during the day of occupation Armenians took her to Asgaran district and she saw Abdulov Zahid and his father Yelmar in a cellar as hostages. Several days later Tamasha was released but the Abdulovs stayed there.

## Əbdülrəhmanov Kamran Mehdiqulu oğlu

1922-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Bülövlük kəndində anadan olub. 19 aprel 1993-cü ildə Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan zaman oğlu-Müseyibov (Əbdülrəhmanov) İmamverdi Kamran oğlu, Laçın rayonunun Pircahan kənd sakinləri Həsənquliyev İman Mehdiqulu oğlu (1967) və Həsənquliyev Vüqar Mehdiqulu oğlu (1974) ilə mühasirədə qalaraq girov götürü-

## Abdurahmanov Kamran Mehdigulu oglu

Abdurahmanov Kamran Mehdigulu oglu was born in Bulovluk village of Lachin district of Azerbaijan Republic in 1922. On the 19th of April, 1993 during the occupation of Kelbajar district by Armenians, his son Museyibov (Abdurahmanov) Imamvrdi Kamran oglu, Hasanguliyev Iman Mehdigulu oglu (the year of birth: 1967) and Hasanguliyev Vugar Mehdigulu oglu (the year of birth: 1974) who lived in Pirjahan vil-

lüb.

Oğlu-Laçın rayonu Bülövlük kənd sakini, hazırda Bakı şəhəri, Xətai rayonu Əbilov qəsəbəsi,ev 10,mənzil 8-də yaşayan Müseyibov Müseyib Kamran oğlunun dediyinə görə, Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan zaman atası və qardaşı, Pircahan kənd sakinləri Həsənquliyev qardaşları ilə mühasirəyə düşüblər. Atası ayağından yaralandığı üçün onlar mühasirədən çıxa bilməyiblər. Bu məlumatı ona həmin mühasirədən sağ çıxmış, Kəlbəcərin Xallanlı, Başlıbel kənd sakinləri və Pircahan kənd sakini Şakir adlı şəxs verib.

Girov götürülmüş Həsənquliyevlərin qardaşı-Bakı şəhəri, Naximov küçəsi, ev 43, mənzil 21-də yaşayan Həsənquliyev Etibar Mehdiqulu oğlu ərizəsində yazıb ki, Kəlbəcər rayonu işğal olunan zaman qardaşları Bülövlük kənd sakinləri Əbdülrəhmanov Kamran Müseyib oğlu və onun oğlu İmamverdi ilə birlikdə ermənilər tərəfindən girov götürülüblər.

Laçın rayonu Alıqulu kənd sakini,hazırda Bakı şəhəri, Binəqədi şosesi, ev 2-də yaşayan İsmayılov Şakir Əkbər oğlunun verdiyi məlumata görə, Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan vaxt 19 nəfər həmyerlisi ilə Laçın rayonunun Daşbulaq kəndində Əbdülrəhmanov Kamran və onun oğlu ilə görüşüb. Kamran ayağından yaralandığı üçün kahalardan birində yerləşdirilib. Aprel ayının 21-də görüşməyi razılaşdıraraq onlardan ayrılıb. Aprel ayının 28-də Daşbulaq kəndinə qayıtdıqda artıq həmin yer ermənilər tərəfindən işğal olunubmuş.

lage of Lachin district were surrounded and taken hostages together.

According to the words of his son Museyibov Museyib Kamran oglu who lived in Bulovluk village of Lachin district (at present he lives in Baki, Khatai district, Abilov Settlement, 10 app.8), during occupation of Kelbajar district by Armenians his father and brother, the brothers of the Hasanguliyevs who lived in Pirjahan village were surrounded. His father was wounded in leg and that's why he couldn't get out of encirclement. That information was given by inhabitants of Bashlibel and Khallanli villages of Kelbajar district and Shakir who lived in Pirjahan village. They were surrounded by Armenians with his father but he could find the way and ran.

The brother of the Hasanguliyevs – Hasanguliyev Etibar Mehdigulu oglu (he lives in Baki, Nakhimov Street, 43, app. 21) wrote a statement that during occupation of Kelbajar district, his brothers Abdurahmanov Kamran Museyib oglu and his son Imamverdi who lived in Bilovluk village were taken hostages by Armenians.

According to the information of Ismayilov Shakir Akbar oglu who lived in Aligulu village of Lachin district (at present he lives in Baki, Binagadi highway, app. 2), during the occupation of Kelbajar district by Armenians together with 19 villagers he met Abdurahmanov Kamran and his son in Dashbulag village of Lachin district Kamran was wounded in leg. On the 21st of April they agreed to meet and go away. When they returned Dashbulag village, the same place was captured by Armenians on the 28th of April.



**Əfəndiyev**
**Həsən**
**Əkrəm oğlu**

1968-ci ildə Azərbaycan Respublikasının Şəki şəhərində anadan olub. 16 fevral 1992-ci ildə könüllü olaraq Şəki Rayon Hərbi Komissarlığına müraciət edib, Şuşa uğrunda gedən döyüşlərə yollanıb. Nail Kazımovun başçılıq etdiyi könüllülər taborunun tərkibində döyüşüb. 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan gün əsir götürülüb, Dağlıq Qarabağda saxlanılıb.

Keçmiş hərbi əsir Alimov Vladislav Vladimiroviçin atası, Bakı şəhəri, Pirallahı qəsəbəsi, Pesçanaya küçəsi ev 5, mənzil 17-də yaşayan Alimov Vladimir Sergeyeviç oğlunun axtarışı ilə məşğul olan zaman (1992-ci ildə Vladislav azad olunub) Ermənistan və Gürcüstanda əldə etdiyi Dağlıq Qarabağ və Ermənistanda saxlanılan azərbaycanlı hərbi əsirlərin siyahısında Əfəndiyev Həsənin də adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

**Efendiyev**
**Hasan**
**Akram oglu**

Efendiyev Hasan Akram oglu was born in Shaki town of Azerbaijan Republic in 1968. On the 16th of February, 1992 he voluntarily appealed to the Military Registration and Enlistment Office of Shaki district and then he was sent to fight for Shusha. Hasan fought allotted to the battalion of voluntaries under Nail Kazimov''s command. On the 8th of May, 1992 during the day of Shusha''s occupation he was taken prisoner and kept in Upper Garabagh.

When the father of former prisoner of war Alimov Vladislav Vladimirovich  Alimov Vladimir Sergeyevich (he lives in Baku, Pirallahi settlement, Peschanaya Street, 5, app.17) searched for his son (Vladislav was released in 1992), he got a list of Azerbaijani prisoners of war kept in Upper Garabagh and Armenia. There was the name of Efendiyev Hasan in the list. It was shown that he was kept in Upper Garabagh.



**Əfəndiyev**
**Rafiq**
**Sücəddin oğlu**

1959-cu ildə Azərbaycan Respublikası Qax rayonunun Aşağı Molla kəndində anadan olub. 1993-cü ilin noyabr ayında Bakı şəhəri, Nizami Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Füzuli rayonuna göndərilib. 27 yanvar 1994-cü ildə Füzuli rayonunun Seyi-

**Efendiyev**
**Rafig**
**Sujaddin oglu**

Efendiyev Rafig Sujaddin oglu was born in Ashagi Molla village of Gakh district of Azerbaijan Republic in 1959. In November of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Nizami district of Baku and then he was sent to

dəhmədli kəndində gedən döyüş zamanı sağ ayağından yaralanıb, mühasirəyə düşərək əsir götürülüb, Xankəndi xəstəxanasında milliyyətcə rus olan həkim tərəfindən əməliyyat olunub. Sağaldıqdan sonra saqqallılar onu kiməsə işlədilmək üçün veriblər.

Həyat yoldaşı-Bakı şəhəri,Keşlə qəsəbəsi,Tramvay küçəsi,ev 23-də yaşayan Əfəndiyeva Mirvari İsmayıl qızının verdiyi məlumata görə,Rafiq əsir götürüləndən sonra Rusiya Federasiyasında yaşayan qardaşı İsmayılov Ümid yeznəsinin axtarışı ilə məşğul olub. Ümid cəbhə bölgəsində ermənilərlə danışıqlar aparıb, Rafiqin sağ olduğunu öyrənib. Qarşı tərəfin nümayəndələri 2 itkin düşmüş erməninin adını ona verib,həmin şəxslərin tapılacağı təqdirdə,Rafiqi qaytaracaqlarını vəd ediblər. Ermənilər hətta neytral zonada Rafiqlə Ümidi görüşdürüb, sonradan onu geri qaytarıblar. O, ermənilərə böyük məbləğdə pul təklif etsə də,qarşı tərəf yalnız itkin düşmüş ermənilər tapılandan sonra razılığa gələcəklərində israrlı olublar. Həmin ermənilər tapılmadığı üçün Rafiqin qaytarılması baş tutmayıb.

Fuzuli district. On the 27th of January, 1994 during the fight in Seyidahmedli village of Fuzuli district Rafig was wounded in right leg. Then he was surrounded. Rafig was taken prisoner and a Russian doctor operated him in Khankandi hospital. When he felt better, Armenians took him from the hospital and then he was forced for labour by an Armenian.

According to the information of his wife Efendiyeva Mirvari Ismayil gizi (she lives in Baku, Keshle settlement, Tramvay Street, 23), when Rafig was taken prisoner she called her brother Ismayilov Umid Ismayil oglu who lived in RF. When Umid searched for Rafig he connected with Armenians and found out that Rafig was alive. The representatives of opposite side gave him the names of 2 missed Armenians. They promised to return Rafig if he found those Armenians. Armenians showed him Rafig and then they returned him back. Umid said that he could give them much money but they wanted to find only those missed Armenians. He couldnt find Armenians and thats why the change didnt realize.

**Əhmədov Asəf Vahid oğlu**



1974-cü ildə Tərtər rayonunun Hüsənli kəndində anadan olub. Könüllü olaraq orduya yazılıb,«Tərtər-1» batalyonun tərkibində döyüşüb. 11 aprel 1994-cü ildə Ağdərə rayonunun Levanarx kəndi uğrunda döyüşdə yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Döyüş yoldaşı-Tərtər rayonu İsmayılbəyli kənd sakini,I dərəcəli Qarabağ müharibəsi əlili Həsənov Nazim İsa oğlunun verdiyi məlumata görə, 1994-cü il aprel ayının 11-

**Ahmedov Asaf Vahid oglu**

Ahmedov Asaf Vahid oglu was born in Husenli village of Terter district in 1974. He voluntarily joined the ranks of army and fought allotted to battalion «Terter-1». On the 11th of April, 1994 during the fight for Levanarkh village of Aghdara district wounded Asaf was taken prisoner by Armenians.

According to the information of Asafs front-line comrade invalid of Ist group of Garabagh war Hasanov Nazim Isa oglu

də onlar ermənilər tərəfindən mühasirəyə düşüblər. Asəf hər iki ayağından yaralanıb, Nazim onu sürüyərək mühasirədən çıxarmaq istədikdə özü də yaralanıb. O,döyüşə-döyüşə qaça bilib, Asəfin erməni silahlıları tərəfindən əsir götürüldüyünü görüb. Sonradan onun haqqında heç bir məlumat əldə edə bilməyib.

Atası-Tərtər rayonu Hüsənli kənd sakini Əhmədov Vahid Surxay oğlu izahatında yazıb ki,Bakı şəhərində yerləşən hərbi qospitalda erməni əsirliyindən qayıdıb müalicə olunan Tərlan adlı döyüşçü Asəfin şəklini gördükdə tanıyıb. O, minomyotçu Asəflə birlikdə yaralı olduqları üçün Xankəndində yerləşən xəstəxanada saxlandıqlarını söyləyib.

who lived in Ismayilbeyli village of Terter district, both of them were surrounded by Armenians on the 11th of April, 1994. Asaf was wounded in both of his legs, Nazim wanted to take him out from surroundings but he was also wounded. Nazim fought and could run away but Asaf was taken prisoner by Armenians. There was no information concerning him.

According to a statement of his father Ahmadov Vahid Surkhay oglu who lived in Husenli village of Terter district, a fighter whose name was Tarlan returned from Armenian captivity to the military hospital in Baku, saw Asaf's picture and recognized him. Tarlan said that he with mortar man Asaf was kept in hospital in Khankandi.

## Əhmədov Bahadur Qabil oğlu

1958-ci ildə anadan olub. Baş leytenant Əhmədov Bahadur hərbi hissələrdən birində qərargah rəisi vəzifəsində xidmət edib.

23 oktyabr 1993-cü ildə idarə etdiyi şəxsi «Qaz-24» markalı avtomaşında bacısı Məhbubənin ailəsi və qohumu Tapdıqov Mürşüdlə Zəngilan rayonunda keçirilən toy məclisindən Bakı şəhərinə qayıdarkən Füzuli rayonunun Mahmudlu stansiyasında arxadan güllə səsləri eşidiblər. Erməni hərbçiləri onlara avtomatlardan atəş açaraq maşını gülləboran edib, təkərləri deşiblər. Maşının dayanmasına baxmayaraq ermənilər içəridəkiləri də atəşə tutub,yaralayıblar. Başından yaralanan Bahaduru sürüyüb yerə atıblar. Ermənilər maşının təkərlərini dəyişdikdən sonra yaralıları Hadrut rayonunda yerləşən xəstəxanaya aparıblar. Mürşüd və Bahadu-



## Ahmedov Bahadur Gabil oglu

Ahmedov Bahadur Gabil oglu was born in 1958. Senior lieutenant Ahmedov Bahadur was a chief of staff in a military unit. On the 23rd of October, 1993 Bahadur with his sister's family and relative Tapdigov Murshud went by a car "QAZ-24" to the wedding party in Zangilan district. When they returned Baku, they heard sounds of bullets in Mahmudlu station of Fuzuli district. Armenian military men fired upon their car. The car stopped and in spite of that, Armenians fired upon men who sat in the car, each of them was wounded. Bahadur was wounded in the head and they took him out of the car on the ground. Armenians took wounded men to the hospital in Hadrud district. Murshud and husband of Bahadur's sister Karim were taken to

run bacısının həyat yoldaşı Kərimi Hadrut rayon Polis İdarəsinə aparıb, vəhşicəsinə döyüblər. Ertəsi gün ermənilər girovları Xankəndi xəstəxanasında yerləşdirib, Bahadurun ağır vəziyyətdə olan bacısı qızı Leylanı orada saxlayıb, üzərində əməliyyat aparıblar. Məhbubə ilə oğlu Ramili isə Xankəndi taborunun komandiri Sarkisyan Qaqo Nikolayeviçin əmisi-təqaüddə olan polis zabiti Sarkisyan Rafiq Davıdoviçin evinə gətirərək 30-35 gün orada saxlayıblar. Mürşüdlə Kərimi azad olunana qədər Ballıcı kəndindəki kəşfiyyat taborunda hər gün işgəncə verib, sonra isə ağır fiziki işlərə cəlb ediblər.

1993-cü il dekabr ayının 7-də Kərimi, Məhbubəni və onun ailə üzvlərini Azərbaycan tərəfində əsir saxlanılan Rafiqin qardaşı-Sarkisyan Unan Davıdoviçlə dəyişiblər. Bahadur barədə məlumat olmayıb.

Bu məlumatı Bakı şəhəri, Səbail rayonu Salyan şosesi, 4-cü döngə, ev 67A ünvanda yaşayan bacısı Allahverdiyeva Məhbubə Qabil qızı, onun həyat yoldaşı Allahverdiyev Kərim Əli oğlu, qızı Allahverdiyeva Leyla Kərim qızı və Bahadurun qohumu Bakı şəhəri, Böyük Şor qəsəbəsi 192 b ünvanda yaşayan Tapdıqov Mürşüb Bədəl oğlu verib.

Qardaşı-Bakı şəhəri, Səbail rayonu Salyan şosesi, 4-cü döngə, ev 65-də yaşayan Əhmədov Əli Qabil oğlunun verdiyi məlumata görə, qardaşı əsir götürüldükdən sonra ermənilər bir neçə dəfə ona zəng vuraraq Bahadurun sağ olduğunu və Xankəndi şəhərində saxlandığını bildiriblər. Sonuncu dəfə 1995-ci ildə Xankəndi şəhər sakini Sarkisyan Nikolay Davıdoviç ona zəng vurub Bahadurun sağ olduğunu və şəxsi evdə saxlandığını bildirib. Sarkisyan Əliyə Bahaduru azad etmək üçün onunla Rusiya Federasiyasının Stavropol vilayətinin Georgiyevsk şəhəri, Kaçubey küçəsi, ev 26, mənzil 99-da yaşayan bacısı qızı Musaelyan Ramellanın evində görüşməyi təklif edib. Maliyyə problemləri üzündən görüş baş tutmayıb.



Police Departament of Hadrud district. They were beaten by them. The next day Armenians took hostages to the hospital. The daughter of Bahadur's sister Leyla was kept there, she had been operated. Mahbuba and her son Ramil was taken to the house of pensioner police officer Sarkisyan Rafig Davidovich who was the uncle of Khankandi battalion commander Sarkisyan Gago Nikolayevich. They have been kept there for 30-35 days. Before releasing Murshud and Kazim were kept in an intelligence battalion in Balliji village. They were put to tortures every day and then forced for heavy labour.

On the 7th December, 1993 Kazim, Mahbuba and her members of family were changed for Rafig's brother – Sarkisyan Unan Davidovich who was taken prisoner by Azerbaijanis. There's no information concerconserning Bahadur.

That information was given by his sister – Allahverdiyeva Mahbuba Habil gizi (she lives in Baku, Sabail district, Salyan Highway, 4 quarter, app. 67A), her husband Allahverdiyev Kazim Ali oglu, daughter Allahverdiyeva Leyla Kazim gizi and Bahadur's relative Tapdigov Murshud Badal oglu (he lives in Baku Boyuk Shor Settlement, app. 192 b).

According to the information of his brother Ahmedov Ali Gabil oglu (he lives in Baku, Sabail district, Salyan Highway, 4 quarter, app. 65), when his brother was taken prisoner, Armenians rang him up and informed that Bahadur was alive and kept in a private house. Last time in 1995 Sarkisyan Nikolay Davidovich who lived in Khankandi town rang them up and informed that Bahadur was alive and kept in his private house. Sarkisyan offered Ali to meet at the house of his sister's daughter Musaelyan Ramella who lived in Georgiyevsk city of Stavropol district (RF), Kachubey Street 26, app. 99. The meeting didn't realize because of financial problems.



**Əhmədov**
**Əhməd**
**Paşa oğlu**

1958-ci ildə anadan olub. Azərbaycan Respublikası Ağstafa rayonunun Sadıxlı kəndində yaşayıb. 1992-ci ildə Qazax Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Ağdərə bölgəsinə göndərilib.

28 fevral 1993-cü ildə Ağdərə uğrunda döyüşdə itkin düşüb.

Bacısı-Ağstafa rayonu Sadıxlı kənd sakini Əhmədova Pakizə Paşa qızının verdiyi məlumata görə,qardaşının axtarışı ilə məşğul olarkən briqada komandiri İ. Sadıqovla görüşüb,ondan həmin döyüşdə Əhməddən başqa daha 6 döyüşçünün ermənilər tərəfindən əsir götürüldüyünü öyrənib.

Hüseynova Tamara Saleh qızının qardaşı-Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Qaqikdən (Yerevan tel: 63-60-70) aldığı azərbaycanlı əsir və girovlaraın siyahısında Əhmədov Əhməd Paşa oğlunun da adı olub. Onun Ermənistanın Gorus rayonunda saxlandığı göstərilib.

**Ahmedov**
**Ahmed**
**Pasha oglu**

Ahmedov Ahmed Pasha oglu was born in 1958. He lived in Sadikhli village of Agstafa district of Azerbaijan Republic. In 1992 Ahmed was called up for military service by the Military Registration and Enlistment office of Gazakh district and was sent to Aghdara.

On the 28th of February, 1993 during the fight for Aghdara Ahmedov Ahmed was missed.

According to the information of his sister, Ahmedova Pakiza Pasha gizi who lived in Sadikhli village of Agstafa district met commander of brigade I.Sadikhov and found out that except her brother 6 men were taken prisoners by Armenians at the fight.

The brother of hostage Huseynova Tamara Saleh gizi - Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from an Armenian whose name was Gagik (phone in Yerevan:63-60-70) in Tbilisi and saw the name of Ahmedov Ahmed in that list. It was shown that he was kept in Gorus district of Armenia.



**Əhmədov**
**Əli**
**Almurad oğlu**

1970-ci ildə Ermənistan Respublikasının Amasiya rayonunda anadan olub. Məlum hadisələrdən sonra Azərbaycan Respublikası Xaçmaz rayonunun Niyazabad kəndinə köçüb.

1992-ci ildə könüllü olaraq

**Ahmedov**
**Ali**
**Almurad oglu**

Ahmedov Ali Almurad oglu was born in Amasiya district of Armenia in 1970. After the known events he moved into Niyazabad village of Khachmaz district of Azerbaijan Republic.

cəbhəyə gedib. 7 sentyabr 1992-cı ildə Füzuli rayonunun Çartaz kəndi istiqamətində gedən döyüşdə itkin düşüb.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, hazırda Bakı şəhərində yerləşən Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşmış Eyvazov Firəddin Əli oğlunun dediyinə görə, radiodanışıqlar zamanı erməni tərəfi Əhmədov Əlinin əsir götürülərək Füzuli rayonunun Çartaz kəndində saxlandığını etiraf edib.

Girov götürülmüş Hüseynova Tamara Saleh qızının qardaşı-Hüseynov Akif Saleh oğlunun Tbilisidə Ermənistanın Qırmızı Xaç Komitəsinin nümayəndəsi Alaverdiyan Şamirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22; tel:48-67-93) aldığı azərbaycanlı əsir və girovların siyahısında Əhmədov Əlinin də adı olub. Onun Dağlıq Qaradağda saxlandığı göstərilib. Siyahı Xankəndində yerləşən erməni alayının qərargah rəisi Ağayan Elmira tərəfindən təsdiq edilib.

In 1992 he voluntarily was sent to fight for Garabagh. On the 7th of September, 1990 during the fight in direction of Chartaz village of Fuzuli district Ahmedov Ali was missed.

Deputy head of Executive Power of Fuzuli district Eyvazov Firaddin Ali oglu who worked during 1992-1993 (now he lives in hostel „ 4 of Azerbaijan Technical University, room „ 205 in Baku) informed that Armenian side confirmed by radio communication Ahmedov Ali was taken prisoner and kept in Chartaz village of Fuzuli district.

The brother of prisoner Huseynova Tamara Saleh gizi - Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from representative of Armenian Society of Red Cross and Crescent Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit Street, 35, app.22, phone:48-67-93) in Tbilisi. There was the name of Ahmedov Ali Almurad oglu in the list. It was shown that he was kept in Upper Garabagh and Elmira Agayan, the chief of staff of Khankandi regiment confirmed that list.

## Əhmədov Etibar Ramiz oğlu



1971-ci ildə Azərbaycan Respublikasının Ağdaş şəhərində anadan olub. 1992-ci ilin sentyabr ayında piyadaların döyüş maşınının sürücüsü kimi döyüş bölgəsinə göndərilib. Ağdam rayonunun Xanabad kəndi uğrunda döyüşdə iştirak edib. Ayağından snayper gülləsi ilə yaralanaraq ermənilər tərəfindən əsir götürülüb.

Atası-Ağdaş şəhəri, Nizami küçəsi, ev 28-də yaşayan Əhmədov Ramiz Əbdülxəlil oğlunun verdiyi məlumata görə, 30 oktyabr

## Ahmedov Etibar Ramiz oglu

Ahmedov Etibar Ramiz oglu was born in Agdash town of Azerbaijan Republic in 1971. In September, 1992 he was sent to fight as a driver of armoured infantry machine. Etibar took part in fight for Khanabad village of Aghdam district. Then he was wounded in the leg by the bullet of sniper and taken prisoner by Armenians.

According to the information of his father Ahmedov Ramiz Abdulkhalil oglu (he lives in

1992-ci ildə Ağdamın Xanabad kəndi yaxınlığındakı Fərrux dağı uğrunda döyüşdə Etibarın idarə etdiyi piyadaların döyüş maşını ermənilər tərəfindən vurulub, oğlu əslən İsmayıllı rayonundan olan Zaman adlı döyüşçü ilə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Ucar şəhəri, 28 may küçəsi, ev 7-də yaşayan Məmmədov Mayıl Məmmədəli oğlu izahatında yazıb ki, 1992-1993-cü illərdə Xankəndi həbsxanasında saxlandığı zaman Ağdaş rayon sakini Əhmədov Etibarı orada görüb.

Agdash district, Nizami Street app.28), on the 30th of October, 1992 during the fight for Farrukh mountain near Khanabad village of Aghdam, Armenians fired upon Etibar's armoured infantry machine, his son with a fighter whose name was Zaman (he is originally from Ismayilli district) was taken prisoner.

Former prisoner of war Mammadov Mayil Mammadali oglu who returned from Armenian captivity (now he lives in Ujar, 28 May Street, app. 7) wrote a statement when he was kept in Khankandi prison in 1992-1993, he saw Ahmedov Etibar who was originally from Aghdash district there.



**Əhmədov İlqar İlyas oğlu**

1973-cü ildə Bakı şəhərində anadan olub. 1993-cü ilin oktyabr ayında könüllü olaraq orduya yazılıb. Əzizbəyov rayonunda təşkil edilmiş Yavər Əliyev adına taborun tərkibində Ağdamın Papravənd və Boyəhmədli kəndləri istiqamətində döyüşlərdə iştirak edib. 29 dekabr 1993-cü ildə Papravənd kəndi yaxınlığında əsir götürülüb.

Bu məlumatı İlqarın döyüş yoldaşı - Bakı şəhəri, Buzovna qəsəbəsi, R. İmanov küçəsi 3-də yaşayan Mirzəağa Əmralı oğlu verib.

Əhmədovun həmkəndlisi və döyüş yoldaşı, Əzizbəyov rayonu Binə qəsəbə sakini İmanov Tofiq Hafiz oğlunun dediyinə görə, onlar eyni taborun tərkibində döyüşüblər. 1993-cü il dekabr ayının 28-də Tofiqgilin xidmət etdiyi bölük Papravənd istiqamətində gedən döyüşə aparılıb, lakin Güllücə kanalı yaxınlığında geri qaytarılıb. Onlardan 2 gün əvvəl İlqargilin bölüyü həmin döyüşdə iştirak edib. 29 dekabrda növbəti baxış ke-

**Ahmedov Ilgar Ilyas oglu.**

Ahmedov Ilgar Ilyas oglu was born in Baku in 1973. In October of 1993 he voluntarily entered the Army. Ilgar took part in fights for Papravand and Boyahmedli villages of Aghdam district allotted to Yavar Aliyev's battalion of Azizbeyov district. On the 19th of December, 1993 he was taken prisoner near Papravand village.

That information was given by Ilgar's front-line comrade Mirzaga Amrali oglu (he lives in Baku, Buzovna settlement, R.Ismayilov Street, 3).

According to the words of Ahmedov's villager and front-line comrade Imanov Tofig Hafis oglu (he lives in Bina settlement of Azizbeyov district), they fought at the same battalion. On the 28th of December, 1993 Tofig's sub-unit fought in Papravand and they didn't return from the battle near Gullije channel. 2 days before Ilgar's sub-unit took part in the same battle. On the 29th of

çirilən zaman 14-15 əsgərin döyüşdən qayıtmadığı qeydə alınıb. Qayıtmayan hərbçilərin siyahısında Əhmədov İlqarın da adı olub.

Döyüş yoldaşları ermənilərlə apardıqları radiodanışıqlardan İlqarın sağ olduğunu və Xankəndində əsir saxlandığını anası-Binə qəsəbəsi, Əli Bayramov küçəsi, ev 1, mənzil 44-də yaşayan Əhmədova Nərgiz Nurməmməd qızına bildiriblər.

December, during the observation it's known that 14-15 soldiers didn't return from the battle. There was the name of Ahmedov Ilgar in the list who didn't return from the battle.

His front-line comrade connected with Armenians by radio communication and informed his mother Ahmedova Nargiz Nurmammad gizi (she lives in Bina settlement, Ali-Bayramov Street, 1, app.44) that Ilgar was alive and kept as a prisoner in Khankandi.

## Əhmədov İmanqulu Soltan oğlu



1961-ci ildə Əli-Bayramlı şəhərində anadan olub. 23 yanvar 1992-ci ildə zabit kimi xidmət etdiyi Şıx qəsəbəsində yerləşən hərbi hissənin tərkibində Şuşa şəhərinin müdafiəsinə göndərilib. 2 gündən sonra, yəni yanvar ayının 25-dən 26-na keçən gecə Daşaltı əməliyyatı zamanı əsir götürülüb.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini Mirzəyev Rafael Xalid oğlunun (əvvəllər Təhlükəsizlik Orqanlarında işləyib) 1993-cü il cəbhə xəttində ermənilərlə keçirilmiş görüş zamanı erməni tərəfi onlara azərbaycanlı əsir və girovların siyahısini təqdim edib. Həmin siyahıda Əhmədov İmanqulunun da adı olub.

Bacısı-Əli Bayramlı şəhəri, Xaqani küçəsi, ev 4, mənzil 44-də yaşayan Əhmədova Sevil Soltan qızının verdiyi məlumata görə, qazaxlı Alik Muradov ermənilərlə apardığı danışıqlar zamanı qarşı tərəfdən olan Andranik adlı şəxsdən aldığı Ermənistanda saxlanılan azərbaycanlı əsir və girovların siyahısında Əhmədov İmanqulunun da adı olub. Onun Ermənistanın Nairi rayonunun Provşyan qəsəbəsində saxlandığı göstərilib.

## Ahmedov Imangulu Soltan oglu

Ahmedov Imangulu Soltan oglu was born in Ali-Bayramli town in 1961. On the 23rd of January, 1992 he was sent to defend Shusha town as an officer allotted to the military unit in Zikh settlement. 2 days later, at night from 25th to 26th of January, Imangulu was taken prisoner during Dashalti operation.

In 1993 during the meeting with Armenians on the front line, Armenian side represented to the chairman deputy of State Custom Committee of Azerbaijan Republic Mirzeyev Rafael Khalid oglu (he worked at the security services) a list of Azerbaijani prisoners and hostages. There was the name of Imangulu in that list.

According to the information of his sister Ahmedova Sevil Soltan gizi (she lives in Ali-Bayramli town, Khagani Street, 4, app.44), during radio communication with Armenians Alik Muradov from Gazakh got a list of Azerbaijani prisoners and hostages who kept in Armenia from a person whose name was Andranik. There was the name of Imangulu in that list. He was kept in Provshyan settlement of Nairi district of Armenia.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Ermənistanın Qızıl Xaç Komitəsinin nümayəndələri ilə görüşü zamanı əldə etdiyi azərbaycanlı əsir girovların siyahısında Əhmədov İmanqulunun da adı olub. Erməni tərəfi faktı inkar etdiyi üçün onun sonrakı taleyi bəlli deyil.

During the meeting with representative of Armenian Red Cross and Crescent Society in Tbilisi, the resident of Asrik-Jirdikhan of Tovuz district Huseynov Akif Saleh oglu got a list of Azerbaijani prisoners and there was the name of Imangulu in that list. Armenian side denied that fact and that's why his further life was unknown.

**Əhmədov Məhəmməd Mahmud oğlu**



1931-ci ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Çaytumas kəndində anadan olub. 30 avqust 1993-cü ildə Qubadlı rayonu ermənilər tərəfindən işğal olunduğu zaman girov götürülüb.

Əhmədov Məhəmmədin gəlini-Qubadlı rayonu Çaytumas kənd sakini,hazırda Sumqayıt şəhəri,26-cı məhəllə,22 saylı yataqxanada məskunlaşmış Nuriyeva Sevda Əhməd qızının verdiyi məlumata görə,qaynatası yaşlı olduğu üçün kəndləri işğal olunan zaman ərazini tərk edə bilməyib, ermənilər tərəfindən girov götürülüb.

Əhmədovun yaxın qohumu-Sumqayıt şəhər sakini Əliyev Balaş Xanış oğlunun dediyinə görə,Məhəmməd Qubadlıda girov götürüldükdən sonra həmin rayonun Xanlıq kəndində ermənilər onu dəyirmançı kimi işlədiblər.

**Ahmedov Mahammad Mahmud oglu**

Ahmedov Mahammad Mahmud oglu was born in Chaytumas village of Gubadli district of Azerbaijan Republic in 1931. On the 30th of August, 1993 during occupation of Gubadli district by Armenians he was taken hostage.

According to the information of the daughter-in-law of Ahmedov Mahammad Nuriyeva Sevda who lived in Chaytumas village of Gubadli district (at present she lives in Sumgayit, 26 quarter, the hostel „ 22), her father-in-law couldn't leave the territory because he was too old and Armenians took him as a hostage.

According to the words of Ahmedov's close relative Aliyev Balash Khanish oglu (he lives in Sumgayit), when Armenians took him as a hostage they made him work as a miller in Khanlig village of same district.



**Əhmədov**
**Natiq**
**Nəriman oğlu**

1973-cü ildə anadan olub. 7 fevral 1993-cü ildə Ağdərə rayonunun Drambon kəndində gedən döyüşdə emənilər tərəfindən əsir götürülüb, Xankəndi şəhərində şəxsi evdə saxlanılıb.

Döyüş yoldaşı-Bakı şəhəri, Əhmədli qəsəbəsi, 829-cu keçid, ev 11A, mənzil 89-da yaşayan Manafov Asifin dediyinə görə, hərbi hissədə rabitəçi kimi qulluq etdiyi vaxt qarşı tərəfdən onunla əlaqə yaradaraq Əhmədov Nərimanın əsir götürülüb, Xankəndi şəhərində şəxsi evdə saxlandığını deyiblər.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin təqdim etdiyi arayışa əsasən, milliyyətcə erməni olan Alik radioəlaqə vasitəsilə Natiqin 1993-cü ilin fevral ayında əsir götürülüb, Xankəndi şəhərində şəxsi evdə saxlandığını bildirib.

Erməni əsirliyindən qayıtmış İran İslam Respublikasının vətəndaşı Əmir İbrahimi Məhəmməd Əhməd oğlu Xankəndi şəhərində saxlanılan zaman Əhmədov Natiqi orada gördüyünü deyib.

**Ahmedov**
**Natig**
**Nariman oglu**

Ahmedov Natig Nariman oglu was born in 1973. On the 7th of February, 1993 during the fight in Drambon village of Aghdara district he was taken prisoner by Armenians and kept in a private house in Khankandi town.

According to the words of front-line comrade Manafov Asif (he lives in Baku, Ahmedli settlement, 829 quarter, 11A, app.89), he served as a signaler in military unit, connected with opposite side and found out that Ahmedov Nariman was taken prisoner and kept in a private house in Khankandi town.

According to the report of Azerbaijan National Committee of Helsenki Civil Assembly Armenian Alik by assistance of radio communication informed that Natig was taken prisoner and kept in a private house of Khankandi town in February of 1993. The citizen of Islamic Republic of Iran Amir Ibrahimi Mahammad Ahmed oglu who returned from Armenian captivity saw Ahmedov Natig there.



**Əhmədov**
**Qılman**
**İsi oğlu**

1975-ci ildə Azərbaycan Respublikası Astara rayonunun Artupa kəndində anadan olub. 7 yanvar 1994-cü ildə Astara Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 26 aprel 1994-cü

**Ahmedov**
**Gilman**
**Isi oglu**

Ahmedov Gilman Isi oglu was born in Artupa village of Astara district of Azerbaijan Republic in 1975. On the 7th of January, 1994 he was called up for military service by the Military Registration and

ildə Tərtər rayonunun İsmayılbəyli kəndi istiqamətində gedən döyüşdə həmyerliləri Abdullayev Çingiz Məmməd oğlu və Musayev Rəhim Malik oğlu ilə itkin düşüb.

Bu məlumatı Əhmədov Qılmanın atası-Astara rayonu Artupa kənd sakini Əhmədov İsi Rəzzaq oğlu verib. Onun dediyinə görə, hazırda İran İslam Respublikasında yaşayan Əmir İbrahimi Məhəmməd Əhməd oğlu erməni əsirliyindən qayıdandan sonra Qılmanın şəklini gördükdə tanıyıb, Xankəndi şəhər xəstəxanasında onunla saxlanılan azərbaycanlı əsirlərdən olduğunu bildirib.

Əsir götürülmüş Musayev Rahimin atası-Astara rayonu Rudakənar kənd sakini Musayev Malik İbrahim oğlu izahatında yazıb ki, oğlunun axtarışı ilə məşğul olan zaman döyüş yoldaşlarından 26 aprel 1994-cü ildə Tərtər rayonunun İsmayılbəyli kəndində Rahim və Qılman da daxil olmaqla 60 hərbçinin əsir götürüldüyünü öyrənib. Ermənilər yaralıları Şuşaya, sağlamları isə naməlum istiqamətə aparıblar. Əhmədov Qılman da yaralı olduğu üçün Şuşa şəhərinə aparılıb.

Enlistment Office of Astara district. On the 26th of April, 1994 during the fight in direction of Ismayilbeyli village of Terter district, Gilman with his 2 front-line comrades – Abdullayev Chingiz Mammad oglu and Musayev Rahim Malik oglu was missed.

That information was given by his father Ahmedov Isi Razzag oglu who lived in Artupa village of Astara district. According to his words Amir Ibrahimi Mahammadi Ahmed (at present he lives in Islamic Republic of Iran) who returned from Armenian captivity, he saw Gilman's picture, recognized him and also informed that they were kept with Azerbaijani prisoners in Khankadi hospital.

The father of prisoner Musayev Rahim - Musayev Malik Ibrahim oglu who lived in Rudakenar village of Astara district wrote a statement when he searched for his son he found out in Ismayilbeyli village of Terter district, his son with 60 Azerbaijanis including Rahim and Gilman was taken prisoner at last fight on the 26th of April, 1994. Armenians took wounded men to Shusha but healthy men were taken to unknown direction. Ahmedov Gilman was wounded and that's why were they took him to Shusha.

## Əhmədov Ramiz Əkrəm oğlu



1960-cı ildə Azərbaycan Respublikası İsmayıllı rayonunun Talıstan kəndində anadan olub. Kəlbəcər taborunun tərkibində taqım komandiri vəzifəsində xidmət edib. 5 aprel 1993-cü ildə Kəlbəcər rayonunun Murovdağ yüksəkliyi uğrunda döyüşdə itkin düşüb.

İsmayıllı rayonunun Talıstan kəndində yaşayan Əhmədov Əflatun Əkrəm oğlu Ramizin axtarışı zamanı onun döyüş yoldaşları ilə görüşüb, qardaşının Murovdağ yüksək-

## Ahmedov Ramiz Akram oglu

Ahmedov Ramiz Akram oglu was born in Talistan village of Ismayilli district of Azerbaijan Republic in 1960. He served as a commander of troop allotted to Kelbajar battalion. On the 5th of April, 1993 during the fight for Murovdag of Kelbajar district Ramiz was missed.

When Ahmedov Aflatun Akram oglu who lived in Talistan village of Ismayilli district searched for Ramiz he met his front-line comrade and found out that during the fight

liyi uğrunda döyüşdə bir neçə hərbçi ilə əsir götürüldüyünü öyrənib.

Mingəçevir şəhəri,«Xəyal» kooperativində məskunlaşmış Məhərrəmov Nizami Məmməd oğlunun verdiyi məlumata görə, 1993-cü ilin aprel ayında,Kəlbəcərin işğalından 8 gün sonra gecə həmin rayonun Meydançay deyilən məntəqəsində hərbi hissənin 4 taqımı və 100-dən artıq mülki şəxs ermənilər tərəfindən mühasirəyə alınıb. Ağır döyüş gedib. Mühasirədən çıxdıqdan sonra döyüş gedən əraziyə baxış keçirildikdə 17 hərbçinin meyidi aşkar olunmayıb. Əhmədov Ramizin də meyidi tapılmayıb.



### Əhmədov Riad Fikrət oğlu

1956-cı ildə Bakı şəhərində anadan olub. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1980-cı ildə həqiqi hərbi xidməti dövlət təhlükəsizlik orqanlarında keçib. Dövlət Təhlükəsizlik Komitəsinin Minsk şəhərində yerləşən Ali kursu bitirib və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyində məsul vəzifələrdə çalışıb. Qarabağ müharibəsi başlayanda könüllü olaraq cəbhəyə gedib,dəfələrlə ağır hərbi əməliyyatlarda iştirak edib. Çaykənd ərazisində kantuziya alıb.

1992-ci ildə Riad Əhmədov Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsinin rəis müavini təyin edilib. Şuşa, Goranboy, Füzuli, Hadrut, Ağdərə,Əsgəran və Ağdam şəhərlərinin müdafiəsində fəal iştirak edib. 22 yanvar 1992-ci ildə polkovnik-leytenant Riad Əhmədov rəhbərlik etdiyi qrupla birlikdə Daşaltı əməliyyatına göndərilib.

25 yanvar 1992-ci ildə Daşaltı kəndi ərazisində onun başçılıq etdiyi 18 nəfərlik dəs-

for Murovdag of Kelbajar district his brother with several military men was taken prisoner by Armenians.

According to the information of Maharramov Nizami Mammad oglu (now he lives in Mingechevir city, «Khayal» cooperative society), after 8 days of Kelbajar's occupation 4 troops and more than 100 men were surrounded in Meydan Chay point of Kelbajar at night in April of 1993. They could break out of encirclement and after the fight it was found the corpses of 17 military men. Ahmedov Ramiz was among the fighters who taken prisoners.

### Ahmedov Riyad Fikret oglu

Ahmedov Riyad Fikret oglu was born in Baku in 1956. He graduated from Azerbaijan State University, the faculty of law. In 1980 Riyad served at the security services. He also finished the Supreme Courses of Committee of State Security in Minsk and worked at the Ministry of National Security of Azerbaijan Republic and occupied responsible posts. When Garabagh war began Riyad voluntarily took part in serious military operations for many times. On the territory of Chaykand Riyad got strong contusion.

In 1992 Ahmedov Riyad Ahmedov was appointed as chief deputy of Intelligence Department of Ministry of Defence of Azerbaijan Republic. He took up active part in defense of Shusha, Goranboy, Fuzuli, Hadrud, Aghdara, Asgeran and Aghdam. On the 22nd of January, 1992, colonel-lieutenant Ahmedov with his group was sent to Dashalti.

On the 25th of January, 1992 Riyad with his detach force of 18 men was surrounded by Armenians on the territory of Dashalti vil-

tə ermənilər tərəfindən mühasirəyə alınıb. Riad Əhmədov radiorabitə ilə ağır döyüş getdiyini,özünün də ayağından yaralandığını bildirib,sonra əlaqə kəsilib.

2 həftə sonra beynəlxalq təşkilatların köməyi ilə həlak olanların meyitləri döyüş yerindən çıxarılanda Riadın meyidi tapılmayıb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi,ev 35,mənzil 22. tel: 48-67-93) əldə etdiyi azərbaycanlı əsir və girovların siyahısında Riad Əhmədovun Ermənistanın Spitak şəhərində saxlandığı göstərilib.

lage. R.Ahmedov informed by radio communication that the fight was very difficult, he was wounded in leg and then connection was interrupted.

2 weeks later corpses of those who fought at that battle were taken out by the assistance of international organization but corpse of Riyad wasn't found.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from Armenian Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit Street, 35, app.22, phone: 48-67-93) in Tbilisi. There was the name of Ahmedov Riyad in that list. It was shown that Armenians kept Riyad in Spitak of Armenia.

## Əhmədov Şahmar İsmayıl oğlu



1954-cü ildə Azərbaycan Respublikası Goranboy rayonunun Veyisli kəndində anadan olub. 1991-ci ildə könüllü olaraq Goranboy özünümüdafiə taborunun tərkibinə daxil olub. 16 yanvar 1992-ci ildə rayonun Şəfəq kəndindəki postda keşik çəkərkən əsir götürülüb.

Bu məlumatı Şahmarın oğlu, Goranboy rayonun Veyisli kəndində yaşayan Əhmədov Famil verib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi,ev 35,mənzil 22. tel: 48-67-93) aldığı azərbaycanlı əsir və girovların siyahısinda Əhmədov Şahmarın Spitak rayonunda yerləşən 42411 saylı həbsxanada saxlandığı göstərilib.

## Ahmedov Shahmar Ismayil oglu

Ahmedov Shahmar Ismayil oglu was born in Veyisli village of Goranboy district of Azerbaijan Republic in 1954. In 1991 he voluntarily entered the self-defence battalion organized in order to defend Goranboy district. When Shahmar was at the post in Shafag village of Goranboy district he was taken prisoner by Armenians on the 16th of January, 1992.

That information was given by his son Ahmedov Famil Shahmar oglu who lived in Veyisli village of Goranboy district).

The brother of hostage Huseynova Tamara Saleh gizi – Huseynov Akif Saleh oglu who lived in Asrik–Jirdakhan village of Tovuz district of Azerbaijan Republic got a list of Azerbaijani prisoners and hostages from Alaverdyan Shamir (Yerevan-74, Nijniy Shengavit Street, 35, app.22, phone: 48-67-93) in Tbilisi. There was the name of Ahmedov Shahmar in the list. It was shown that Ahmedov Shahmar was kept in the prision „ 42411 in Spitak district.



**Əhmədzadə Şahin Eyyub oğlu**

1951-ci ildə Ağdam şəhərində anadan olub. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Bakı şəhəri Nəsimi Rayon Polis Şöbəsində cinayət axtarışı üzrə əməliyyat müvəkkili vəzifəsində işləyib.

Polis kapitanı Şahin Əhmədzadə 28 aprel 1992-ci ildə könüllü olaraq Şuşa şəhərinin müdafiəsinə ezam olunub. 8 may 1992-ci ildə Şuşa şəhəri Turşsu qəsəbəsinin Bala Kirs dağı deyilən ərazisində ağır yaralanaraq əsir götürülüb.

Bu məlumatı onun həyat yoldaşı-Bakı şəhəri,İnqilab küçəsi,ev 92 «A»,mənzil 46-da yaşayan Əhmədzadə Nailə Firudin qızına döyüşçü yoldaşları deyiblər.

Girov götürülmüş Hüseynova Tamara Saleh qızının qardaşı-Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Qaqikdən (Yerevan tel:63-60-70) aldığı azərbaycanlı əsir və girovların siyahısında Əhmədzadə Şahinin də adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

**Ahmedzade Shahin Eyyub oglu**

Ahmedzade Shahin Eyyub oglu was born in Aghdam in 1951. He worked as a policeman at Nasimi district Police Department of criminal investigation of Ministry of Internal Affairs of Azerbaijan Republic.

On the 28th of April, 1992 police captain Ahmedzade Shahin voluntarily went to defend Shusha. On the 8th of May, 1992 seriously wounded Shahin was taken prisoner on the territory which called Bala Kirs mountain of Turshsu settlement of Shusha town.

That information was given by his wife Ahmedzade Nailya Firudin gizi (she lives in Baku, Inglab Street 92 «A», app.46) from his front-line comrades.

The brother of prisoner Huseynova Tamara - Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from an Armenian whose name was Gagik in Tbilisi. There was the name of Ahmedzade Shahin in that list. It was shown that he was kept in Upper Garabagh.



**Əkbərov**
**Faiq**
**Müslüm oğlu**

1971-ci ildə Bakı şəhərində anadan olub. Müharibəyə gedənə qədər Yasamal Rayon Hərbi Komissarlığında komendant taqımında xidmət edib. 1993-cü il avqust ayının 20-də könüllü olaraq cəbhəyə yollanıb. Qubadlı rayonunda yerləşən hərbi hissədə qulluq edib. 1993-cü il avqust ayının sonlarında Qubadlı rayonunun Aşağı Mollu kəndində gedən döyüşdə onların idarə etdikləri tank vurulub. Faiq döyüş yoldaşları ilə birlikdə yaralı vəziyyətdə əsir götürülüb.

Ermənistanın Artik qəsəbəsindəki hərbi əsirlər üçün salınmış düşərgədə saxlanılıb, sonradan Şuşa şəhərinə göndərilib. Bu məlumatı atası Əkbərov Müslüm Umud oğlu Rusiya Federasiyası Stavropol vilayətində yaşayan keçmiş Bakı şəhər sakini milliyyətcə erməni olan bir şəxsdən öyrənib.

**Akberov**
**Faig**
**Muslum oglu**

Akberov Faig Muslum oglu was born in Baku in 1971. Before the war he served in commandant troop of the Military Registration and Enlistment Office of Yasamal district. On the 20th of August, 1993 Akberov Faig voluntarily went to fight for Garabagh. He served in military unit in Gubadli district. At the end of August, 1993 during the fight in Ashagi Mollu village of Gubadli district the tank managed by them was fired. Wounded Faig with front-line comrades was taken prisoner by Armenians.

At first Faig was kept in camp for prisoners of war in Artik settlement of Armenia, later he was sent to Shusha. That information was found out by his father Akberov Muslum Umud oglu from an Armenian who was the former inhabitant of Baku (now he lives in Stavropol region of RF).



**Ələkbərov**
**Ədalət**
**Nəcəfəli oğlu**

1965-ci ildə Bakı şəhərində anadan olub. 14 avqust 1992-ci ildə könüllü olaraq ordu sıralarına yazılıb və Xocavənd rayonu uğrunda döyüşlərdə iştirak edib. 2 oktyabr 1992-ci ildə Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında əsir götürülüb.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun

**Alakbarov**
**Adalat**
**Najafali oglu**

Alakbarov Adalat Najafali oglu was born in Baku in 1965. On the 14th of August, 1992 he voluntarily joined the army and took part in fight for Khojavand district. On the 2nd of October, 1992 during the fight for Amirallar village of Khojavand district Adalat was taken prisoner.

According to the words of Kazimov Ahad Musa oglu who lived in Yaglivand vil-

söylədiyinə görə, erməni polisinin əməkdaşı Albert Voskanyan radioəlaqə vasitəsi ilə ona Ədalətin sağ olduğunu və Xandəndində saxlandığını bildirib.

lage of Fuzuli district (now he lives in Allaliyarli village of Beylagan district), Armenian policeman Albert Voskanyan said by radio communication that Adalat was alive and kept in Khankandi.



**Ələkbərov Ənvər Bəylər oğlu**

1935-ci ildə anadan olub. Şuşa şəhərində yanacaq doldurma məntəqəsində işləyən Ələkbərov Ənvər 8 may 1992-ci ildə erməni işğalı zamanı girov götürülüb.

Həyat yoldaşı- Şuşa şəhər sakini, Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal, ev 9, mənzil 15-də məskunlaşmış Quliyeva Ruzə Əli qızının verdiyi məlumata görə, 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan gün Ələkbərov Ənvər girov götürülüb. Axırıncı dəfə onu 7 may 1992-ci ildə görüb. Şuşa rayonu ətrafında qızğın döyüşlər getdiyi üçün yanacaq doldurma məntəqəsində işləyən Ənvər evə gələ bilmədiyindən həyat yoldaşı hər gün ora yemək aparıb. Quliyeva 8 mart 1992-ci ildə yerli əhali ilə birlikdə şəhəri tərk edib və bir daha Ənvəri görməyib. Həmin vaxt əsir və girovların dəyişdirilməsi ilə məşğul olan Ağdam rayon sakini Allahverdi Bağırov (rəhmətə gedib) ona Ələkbərov Ənvərin sağ olduğunu və Şuşa şəhərində saxlandığını deyib.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun ərizəsindən məlum olub ki, əvvəllər Şuşa Şəhər Rolis Şöbəsində, sonra isə Xocavənd Şəhər Rolis Şöbəsində işləyən, milliyyətcə erməni, kapitan Maksim ona Şuşa şəhərində yerləşən əmanət bankının müdiri Ağakişiyev Əhməd və Ələkbərov Ənvərin işğal olunmuş Şuşada saxlandığını bildirib.

**Alakbarov Anvar Beylar oglu**

Alakbarov Anvar Beylar oglu was born in 1935. On the 8th of May, 1992 during occupation of Shusha town by Armenians, Alakbarov Anvar who worked at fuel servicing point in Shusha was taken prisoner.

According to the information of his wife Guliyeva Ruza Ali gizi who lived in Shusha town (at present she lives in Baku, Yasamal district, Yeni Yasamal 9, app.15), during occupation of Shusha town by Armenians Alakbarov Anvar was taken hostage on the 8th of May, 1992. Last time he was seen on the 7th May, 1992. Anvar couldn't come home for dinner because of fights around Shusha and his wife brought him food every day. On the 8th of May, 1992 Guliyeva with local inhabitants left the town and didn't see Anvar any more. At that time Allahverdi Bagirov (he died) who lived in Aghdam district and engaged in change of prisoners and hostages said that Alakbarov Anvar was alive and kept in Shusha.

According to the statement of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (now he lives in Allahyarli village of Beylagan district), it was known that an Armenian former policeman captain Maxim who worked at Police Department of Shusha town said that the director of bank in Shusha town Agakishiyev Ahmed and Alakbarov Anvar were kept in occupied Shusha.



**Ələkbərov
Rasim
Kamil oğlu**

*1961-ci ildə Gəncə şəhərində anadan olub. 1993-cü ildə könüllü olaraq Qarabağ uğrunda döyüşlərə yollanıb. Tərtər və Ağdərə rayonlarının müdafiəsində iştirak edib. 10 aprel 1994-cü ildə hərbi hissə qərargah rəisinin müavini kapitan Rasim Ələkbərov Ağdərə rayonunun Talış kəndi istiqamətində gedən döyüşdə mühasirəyə düşərək ermənilər tərəfindən əsir götürülüb.*

*Atası-Gəncə şəhəri, Xaqani küçəsi, ev 42-də yaşayan Ələkbərov Kamil (1998-ci ildə vəfat edib) izahatında yazıb ki, qarşı tərəfdən aldığı məlumata görə, Rasim yaralı halda əsir götürülüb və Xankəndi şəhərində saxlanılıb. Bir dəfə qaçmağa cəhd göstərib, lakin yaralı olduğu üçün meşədə huşunu itirib, tutularaq geri qaytarılıb.*

*Ələkbərovun qulluq etdiyi hərbi hissənin komandiri Fikrət Məmmədovun verdiyi məlumata görə, o, Talış kəndi istiqamətində gedən döyüşdə Rasimin mühasirəyə düşərək əsir götürüldüyünün şahidi olub.*

**Alakbarov
Rasim
Kamil oglu**

Alakbarov Rasim Kamil oglu was born in Ganja city of Azerbaijan Republic in 1961. In 1993 he voluntarily was sent to fight for Garabagh. Rasim took part in fights in direction of Terter and Aghdara districts. On the 10th of April, 1994 deputy of Chief of staff of military unit, capitain Rasim Alakbarov was surrounded and taken prisoner by Armenians.

His father Alakbarov Kamil who lived in Ganja, Khagani Street, 42 (he died in 1998) wrote a statement that in accordance with information of Armenians, wounded Rasim was taken prisoner and kept in Khankandi. He tried to run away but he was wounded and that□s why he lost concession at the forest. Armenians took him again and returned back.

According to the information of commander of military unit where Alakbarov served □ Fikret Mammadov, he witnessed that Rasim was surrounded and taken prisoner during the fight in direction of Talish village.



**Ələkbərov
Rövşən
Faiq oğlu**

1976-cı ildə anadan olub. 1994-cü il aprel ayının 27-də Azərbaycan Respublikası Ağdam rayonunun Qərvənd kəndi ermənilər tərəfindən işğal olunan zaman döyüş yoldaşları ilə birlikdə idarə etdikləri «ZİL-

**Alakbarov
Rovshan
Faig oglu**

Alakbarov Rovshan Faig oglu was born in 1976. On the 27th of April, 1994 during the occupation of Garvand village of Aghdam district Rovshan with front-line comrades by car «Zill-131» (public plate-number 65-43 MV) was taken pris-

131»markalı 65-43 MV dövlət nömrə nişanlı avtomaşında əsir götürülüb.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş, Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunun Maçqara kəndində məskunlaşan Tağıyev Məmməd Qaçay oğlunun erməni polisinin əməkdaşı Albert Voskanyandan radioəlaqə vasitəsilə aldığı məlumata görə, Ələkbərov Rövşən əsir götürülüb və Dağlıq Qarabağda saxlanılıb.

oner by Armenians.

According to the information of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) and engaged in change of prisoners of war, an Armenian policeman Albert Voskanyan informed by radio communication that Rovshan was taken prisoner and kept in Upper Garabagh.

**Ələsgərov Elxan Ağamayıl oğlu**



1974-cü ildə Azərbaycan Respublikası Quba rayonunun Qonaqkənd kəndində anadan olub. 1992-ci ildə hərbi xidmətə çağırılıb. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 27 aprel 1994-cü ildə Ağdam rayonunun Baş Qərvənd kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Quba rayonu Qonaqkənd kənd sakini Ələsgərov Ağamayıl Ağakişi oğlu ərizəsində yazıb ki, Elxanın döyüş yoldaşları onun Baş Qərvənd kəndi yaxınlığında yaralandığını, ermənilər tərəfindən əsir götürülərək işğal olunmuş Ağdam rayonunda saxlandığını deyiblər. 1994-cü ildə əvvəllər Bakı şəhər sakini olmuş, milliyyətcə erməni Artur adlı şəxs hərbçilərlə radioəlaqə yaradaraq Elxanın işğal olunmuş Ağdamda saxlandığını bildirib.

Döyüş yoldaşı-Quba rayonu Xucbala kənd sakini Həmzəyev Qəmbər Siyaməddin oğlunun verdiyi məlumata görə, 27 aprel 1994-cü ildə Ağdam rayonunun Baş Qərvənd kəndi istiqamətində gedən döyüşdə Ələsgərov Elxan da daxil olmaqla bir qrup döyüşçünün ermənilər tərəfindən mühasirəyə alınıb, əsir götürüldüyünün şahidi olub.

**Alesgarov Elkhan Agamayil oglu**

Alesgarov Elkhan Agamayil oglu was born in Gonagkand village of Guba district of Azerbaijan Republic in 1974. In 1992 he was called up for military service. Elkhan took part in fights for Garabagh. On the 27th of April, 1994 during the fight for Bash Garvand village of Aghdam district Alesgarov Elkhan was taken prisoner by Armenians.

His father Alesgarov Agamayil Agakishi oglu who lived in Gonagkand village of Guba district wrote a statement that while searching for Elkhan, his front-line comrades said during the fight for Bash Garvand village he was wounded, taken prisoner by Armenians and kept in occupied Aghdam district. In 1994 former Baku resident an Armenian whose name was Artur connected by radio communication with the military men and informed that Elkhan was kept in occupied Aghdam.

comrade Ahmedov Aydin Ibrahim oglu (he lives in Baku, 7 microdistrict, 3123 quarter, hostel „ 2) who released from Armenian captivity, during the fight in Kerkijahan village Rahim and other fighters were surrounded and taken prisoners on the 28th of December, 1991. Armenians took them to the isolation in Khankandi and kept them in separate cell. When he returned from captivity he didn't see Rahim any more.

There was an article «Fighting town» in the newspaper «Azadlig» from the 31st of January, 1992 which talked about that. An observer Galina Yakovlevna who came from Moscow met 9 military men including Rahim who were taken prisoners during the fight for Kerkijahan on the 6th of January, 1992. She eye-witnessed they were kept in separate cells.

According to the words of his front-line comrade Maharramov Panah Shahmar oglu (he lives on Mehti Huseyn Street, 2 quarter, app.10/5), during the night from 27th to 28th of December during he with 9 fighters was surrounded and taken prisoner at the fight for Kerkijahan village. Rahim was with them. They were taken to Khankandi prison and kept in separate cells. On the 28th of February he was released and didn't see Rahim any more.

## Rəsulov Üzeyir Sücəddin oğlu

1972-ci ildə Azərbaycan Respublikası Füzuli rayonunun Aşağı Rəfədinli kəndində anadan olub. 1992-ci ilin may ayında hərbi xidmətə çağırılıb. 2 iyul 1993-cü ildə Füzuli rayonunun Qaradağlı kəndi uğrunda döyüş zamanı əsir götürülb.

Atası - Füzuli rayonu Aşağı Rəfədinli



## Rasulov Uzeyir Sujaddin oglu

Rasulov Uzeyir Sujaddin oglu was born in Ashagi Refedinli village of Fuzuli district of Azerbaijan Republic in 1972. In May of 1992 he was called up for military sevice. On the 2nd of July, 1993 during the fight for Garadaghli village of Fuzuli district Rasulov Uzeyir was taken prisoner.

kənd sakini,Sumqayıt şəhəri,15-ci məhəllə 4 saylı yataqxananın 10-cu otağında məskunlaşmış Rəsulov Sücəddin Abdul oğlunun izahatında deyilib ki,2 iyul 1993-cü ildə ermənilər Üzeyirgilin keşik çəkdikləri postun yaxınlığında yerləşən Gorazıllı kəndinə hücum edib, əhalini girov götürən zaman əsgərlər onlara köməyə gediblər. Bu zaman ermənilər tankdan atəş açaraq iki döyüşçünü öldürüb,birini isə yaralayıblar. Atışmadan sonra hərbçilər həmin ərazidə meyitləri və yaralıları çıxaranda Üzeyiri tapa bilməyiblər. Ermənilərlə radioəlaqə yaradaraq Üzeyirin əsir götürüldüyünü və Şuşa həbsxanasında saxlandığını öyrəniblər.

Erməni əsirliyindən qayıtmış Bakı şəhəri, A. Səhhət küçəsi,ev 57-də yaşayan Hüseynov Cavid Ağa oğlu 1994-cü ildə Şuşa həbsxanasında saxlanılan zaman Rəsulov Üzeyirin də orada olduğunu deyib. O qeyd edib ki,ermənilər Üzeyiri və Kərimov Bəxtiyar Əbubəkr oğlunu Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələrindən gizlədiblər.



According to a statement of his father Rasulov Sujaddin Abdul oglu who lived in Ashagi Refedinli village of Fuzuli district (at present he lives in the hostel „ 4, room „ 10 in Sumqayit town, 15 quarter), Armenians attacked Uzeyir's point near Gorazilli village on the 2nd of July, 1993. When Armenians took people as prisoners, soldiers went to help them. At that moment Armenians fired from the tank, killed 2 men and wounded 1 man. After skirmish military men searched for corpses and the wounded on the same territory. But they couldn't find Uzeyir. They found out by radio communication from Armenians that Uzeyir was taken prisoner and kept in Shusha prison.

Huseynov Javid Aga oglu (he lives in Baku, A.Sahhat Street, 57) who returned from Armenian captivity said that he saw Rasulov Uzeyir in Shusha prison in 1994. He noted that Armenians hid Uzeyir and Karimov Bakhtiyar Abubekr oglu from representatives of ICRC.

## Rüstəmov İsmayıl Hüseyn oğlu

1947-ci ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Qarağac kəndində anadan olub. 31 avqust 1993-cü ildə ermənilər kəndi mühasirəyə alıb, hücum edən zaman anadan şikəst doğulmuş Rüstəmov İsmayıl girov götürülüb.

Qardaşı - Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsi, 7 saylı qəsəbədə məskunlaşmış Qubadlı rayonu Qarağac kənd sakini Rüstəmov Bayram Hüseyn oğlunun dediyinə görə, ermənilər onların yaşadıqları kəndə qəfildən

## Rustamov Ismayil Huseyn oglu

Rustamov Ismayil Huseyn oglu was born in Garagaj village of Gubadli district of Azerbaijan Republic in 1947. On the 31st of August, 1993 when Armenians surrounded and attacked Garagaj village, they took invalid from birth Rustamov Ismayil as a prisoner.

According to the words of his brother Rustamov Bayram Huseyn oglu who lived in Garagaj village of Gubadli district (he lives in Sumgayit town, Inshaatchilar settlement, settlement „ 7), when Armenians suddenly

hücum edən zaman əhali vahimə içində qaçıb. Bayram da ailəsi və şikəst qardaşı İsmayılla birlikdə şəxsi «ZİL» markalı avtomaşınında ərazini tərk edən zaman ermənilər onları mühasirəyə alıb, girov götürüblər. 2 il Xankəndində girov saxlandıqdan sonra 1995-ci ildə Bayram azad olunub. İsmayıl haqqında isə heç bir məlumat öyrənə bilməyib.

attacked their village, panic-stricken ran away. While Bayram with his family including his invalid brother leaving the territory by private car «ZIL», Armenians surrounded them and took hostages. After 2 years being in captivity, Bayram was released in 1995. He couldn't get any information concerning Ismayil.



**Rüstəmov Qədir Məhəmməd oğlu**

1973-cü ildə Azərbaycan Respublikasının Cəbrayıl rayonunda anadan olub. Leytenanat Qədir Rüstəmov Ağdərə döyüşlərində iştirak edib. 3 iyul 1993-cü ildə Ağdərə rayonunun Madagiz kəndi uğrunda döyüşdə yaralanıb, huşsuz vəziyyətdə əsir götürülüb.

Qardaşı - Bakı şəhəri, Səbail rayonu, Cənub Dərəsi küçəsində yaşayan Rüstəmov Elşad Məhəmməd oğlunun bildirdiyinə görə, döyüş yoldaşları Qədirin Ağdərə rayonunun Madagiz kəndində gedən döyüşdə ağır yaralanaraq əsir götürüldüyünü deyiblər. 2 ay sonra radioəlaqə vasitəsilə ermənilər zabit Rüstəmovu itkin düşmüş baş leytenat Levon və ya Beniklə dəyişmək istədiklərini bildiriblər. Dəyişmə baş tutmayıb.

Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurasının 29 avqust 1996-cı ildə verdiyi məlumatda deyilib ki, Ermənistan Gənclərinin Milli Şurası ilə görüş zamanı qarşı tərəf Qədir Rüstəmovun əsir götürüldüyünü və Ermənistanda saxlandığını təsdiq edib.

**Rustamov Gadir Mahammad oglu**

Rustamov Gadir Mahammad oglu was born in Jabrayil district of Azerbaijan Republic in 1973. Lieutenant Rustamov Gadir took part in fights for Aghdara. On the 3st of July, 1993, during fight for Madagis village of Aghdara district wounded Gadir lost his consciousness and was taken prisoner.

According to the information of his brother Rustamov Elshad Mahammad oglu (he lives in Baku, Sabail district, Janub Deresi Street), his front-line comrades said during the fight for Madagis village of Aghdara district Gadir was wounded and taken prisoner by Armenians. 2 months later, after his captivity Armenian officer informed by radio communication that he wanted to change Rustamov for senior lieutenant Levon or Benik. But the change didn't realize.

According to the information of National Council of Youth Organization of Azerbaijan Republic from the 29th of August, 1996, during the meeting with Armenian National Council of Youth Organization the opposite side confirmed that Rustamov Gadir was taken prisoner and kept in Armenia.



**Rüstəmov Sabir Gəray oğlu**

1965-ci ildə Azərbaycan Respublikasının Beyləqan rayonunda anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. Daşaltı əməliyyatı zamanı əsir götürülüb.

Azərbaycan Respublikası Müdiafiə Nazirliyindən verilən məlumatda onun 26 yanvar 1992-ci ildə Şuşa rayonunun Daşaltı kəndi yaxınlığındakı döyüşdə əsir götürüldüyü təsdiqlənib.

**Rustamov Sabir Geray oglu**

Rustamov Sabir Geray oglu was born in Beylagan district of Azerbaijan Republic in 1965. He took part in fights for Garabagh. On the 26th of January, 1992 during fight for Dashalti village of Shusha town Sabir was taken prisoner by Armenians.

According to the information of Ministry of Defense of Azerbaijan Republic from the 26th of January, 1992, it was confirmed that he was taken prisoner by Armenians near Dashalti village of Shusha town.



**Rüstəmov Vasif Məhərrəm oğlu**

1955-ci ildə anadan olub. 1992-ci ilin sentyabr ayında ehtiyatda olan zabit kimi hərbi xidmətə göndərilib. 21 fevral 1993-cü ildə Ağdərə rayonunun Umudlu kəndi uğrunda döyüşdə itkin düşüb.

Erməni əsirliyindən qayıtmış,Sumqayıt şəhəri,36-cı məhəllə,ev 2/24, mənzil 37-də yaşayan İsmayılov Yaşar Vilayət oğlu ərizəsində yazıb ki, 1993-cü ildə Şuşa həbsxanasında saxlandığı zaman təsərrüfat işlərinə cəlb edilib. Həmin ilin avqust ayında işə aparılarkən mindiyi ağ «Niva» markalı avtomaşında üzütüklü azərbaycanlı əsir görüb. O,Yaşara adını,familiyasını,atasının adını,Mingəçevirdən olduğunu və şəxsi evdə saxlandığını bildirib. O, Vasifin

**Rustamov Vasif Maharram oglu**

Rustamov Vasif Maharram oglu was born in 1955. In September of 1992, he was sent to serve as an officer in reserve. On the 21st of February, 1993 during fight for Umudlu village of Aghdara district Rustamov Vasif was missed.

Ismayilov Yashar Vilayet oglu (he lives in Sumgayit town, 36 quarter, 2/24, app.37) who returned from Armenian captivity wrote a statement that during his captivity in Shusha prison he was forced for agricultural work in 1993. In August of 1993, when he went to work, he saw bearded Azerbaijani prisoner in white «Niva» car. He said to Yashar name, surname, patronymic, he was from Mingechevir and kept in a private

zabit olduğunu da öyrənib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun dediyinə görə, Ağdamın Qərvənd kəndində ermənilərlə keçirilən görüş zamanı qarşı tərəfin nümayəndəsi Albert Voskanyanın verdiyi əsir və girovların siyahısında Rüstəmov Vasifin də adı olub. Onun Şuşa şəhərində saxlandığı göstərilib.

house. He found out that Vasif an officer.

According to the information of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Khojavand district), during the meeting with Armenians in Garvand village of Aghdam district, the representative of opposite side Albert Voskanyan gave a list of Azerbaijani prisoners and hostages. There was the name of Rustamov Vasif in that list. It was shown that he was kept in Shusha town.

**Rzayev İldırım Barat oğlu**



1972-ci ildə Azərbaycan Respublikası Xocalı rayonunun Kosalar kəndində anadan olub. 1990-cı ildən Kosalar özünümüdafiə bölüyünün döyüşçüsü olub. 8 may 1992-ci ildə ermənilər Kosalar kəndini artilleriya atəşinə tutan zaman Rzayev İldırım Canhəsən kəndində keşik çəkib. Döyüşdən sonra hərbçilər həmin yerə baxış keçirib. Orada İldırımın nə meyidini, nə də özünü tapmayıblar.

Bu məlumatı onun atası- Xocalı rayonu Kosalar kənd sakini, Şəki şəhərinin «Soyuq bulaq» sanatoriyasında məskunlaşmış Rzayev Barat Fərhad oğlu verib.

Xocalı şəhər İcra Hakimiyyətinin nümayəndəsi işləmiş, hazırda Göyçay rayonunda məskunlaşan Hümbətov Cəlil Hümbətəli oğlu ərizəsində göstərib ki, son döyüşdə onunla birlikdə olmuş əsgər (adını unudub) İldırımın erməni hücumu zamanı postda qaldığının və əsir götürüldüyünün şahidi olub. Ermənilər onu Dağlıq Qarabağda saxlayıblar.

**Rzayev Ildirim Barat oglu**

Rzayev Ildirim Barat oglu was born in Kosalar village of Khojali district of Azerbaijan Republic in 1972. In 1990 he was the fighter of Kosalar self-defense battalion. On the 8th of May, 1992 when Armenians opened artillery fire upon Kosalar village, Rzayev Ildirim kept warch over Janhasan village. After the fight military men observed the same place. They found neither Ildirim nor his corpse there.

That information was given by his father Rzayev Barat Farhad oglu who lived in Kosalar village of Khojali district (he lives in «Soyug bulag» sanatorium in Shaki town).

According to a statement of former representative of Executive Power of Khojali town Humbatov Jalil Humbatali oglu (now he lives in Goychay district), during last fight a soldier (he forgot his name) who was with him witnessed Ildirim stayed at the point. When Armenians began to attack, he was taken prisoner. Armenians kept him in Upper Garabagh.



## Rzayev Tofiq Qafar oğlu

1945-ci ildə Azərbaycan Respublikası Oğuz rayonunun Yaqublu kəndində anadan olub. Rzayev Tofiq (Tofiq Oğuz) sambo üzrə beynəlxalq dərəcəli hakim olub. 1992-ci ildə Oğuz rayonunda könüllülərdən ibarət batalyon yaradıb. Şuşa uğrunda döyüşlərdə iştirak edib. 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan gün əsir götürülüb.

Qardaşı - Oğuz rayonu Yaqublu kənd sakini Rzayev Vaqif Qafar oğlunun dediyinə görə, Oğuz rayonu Kərimli kənd sakini Nazarov Yusif Vabil oğlu Tofiqin Ermənistanın Eçmiədzin rayonunun Derogerd kəndində saxlandığını bildirib.

Oğuz rayonu Kərimli kənd sakini Nazarov Yusif Vabil oğlu 1998-ci ilin sentyabr ayında Rusiyadan qayıdan zaman milliyyətcə yunan olan Teymur adlı Ermənistan vətəndaşı ilə tanış olub. Söhbət əsnasında Teymur ona Ermənistanın Eçmiədzin rayonunun Derogerd kəndində 12 azərbaycanlı əsirin saxlandığını, onlardan birinin batalyon komandiri və idmançı olduğunu deyib. Teymurun Tofiq haqqında söylədikləri onun əlamətləri ilə üst-üstə düşüb. O, Yusifə Eçmiədzin rayonunda yaşayan Artur adlı bir nəfərin 5-38-42 saylı telefon nömrəsini verib və musiqiçi Teymurun adından zəng etməyi söyləyib.

## Rzayev Tofig Gafar oglu

Rzayev Tofig Gafar oglu was born in Yagublu village of Oguz district of Azerbaijan Republic. Rzayev Tofig (Tofig Oguz) was the referee of international degree for sambo. In 1992 he organized battalion of voluntaries in Oguz district. Tofig took part in fights for Shusha. On the 8th of May, 1992, during occupation of Shusha town by Armenians he was taken prisoner.

According to the words of his brother Rzayev Vagif Gafar oglu who lived in Yagublu village of Oguz district, Nazarov Yusif Vabil oglu who lived in Kerimli village of Oguz informed said him that his brother was kept in Derogerd village of Echmiedzin district of Armenia.

In September of 1998 when Nazarov Yusif Vabil oglu who lived in Kerimli village of Oguz district and returned from Russia, he met greek Teymur who was citizen of Armenia. During the talk Teymur said him that 12 Azerbaijani prisoners were kept in Derogerd village of Echmiedzin district of Armenia, one of them was commander of battalion and sportsman. Tofig's features coincided with the features of a man who was described by Teymur. He gave to Yusif phone number (5-38-42) of a man whose name was Artur from Echmiedzin district and said to ring him up from musician Teymur.



## Sadığov Ayaz Qəni oğlu

1968-ci ildə Azərbaycan Respublikasının Mingəçevir şəhərində anadan olub. 6 fevral 1993-cü ildə Mingəçevir şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdərə rayonuna göndərilib. 3 gün sonra Ağdərə rayonunun Mehmanə kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Ağdaş rayonu Yenikənd sakini Məmmədov Rəhim Tahir oğlu izahatında yazıb ki,Şuşa həbsxanasında,Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən mingəçevirli Sadıxov Ayazla qonşu kamerada saxlanılıb.

Döyüş yoldaşı və qonşusu-Mingəçevir şəhəri,Vidadi küçəsi 5,mənzil 26-da yaşayan Yusifov Zaman Qeys oğlunun dediyinə görə, Ağdərə rayonunun Mehmanə kəndində gedən döyüşdə belindən minomyot mərmisindən qəlpə yarası alıb,döyüşçülərdən geri qalıb. Ayaz isə daha yüksəklikdə vuruşub. Birdən ön xəttdə olan Ayazın qışqırdığını eşidib. Az keçməmiş ermənilərin onu əsir götürdüklərini görüb,lakin ondan uzaqda və yaralı olduğu üçün Ayaza kömək edə bilməyib.

## Sadikhov Ayaz Gani oglu

Sadikhov Ayaz Gani oglu was born in 1968. On the 6th of February, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Mingechevir city. Ayaz was sent to Aghdara district. 3 days later during the fight in Mehmane village of Aghdara district he was taken prisoner by Armenians.

Mammadov Rahim Tahir oglu who returned from Armenian captivity and lived in Yenikand village of Aghdash district wrote a statement that hidden from ICRC Sadikhov Ayaz from Mingechevir was kept with him in neighboring cell at Shusha prison.

According to the words of his front-line comrade and neighbour Yusifov Zaman Geys oglu (he lives in Mingechevir city, Vidadi Street, 5, app.26), during the fight in Mehmane village of Aghdara district he was wounded in back and stayed at the back from the fighters. But Ayaz fought at the height. He heard Ayaz crying. He saw from a distance that Armenians took Ayaz as a prisoner. He couldn't help him because he was in a distance and wounded.



**Sadıqov Arif Vaqif oğlu**

1975-ci ildə anadan olub. 31 yanvar 1994-cü ildə Ağdam rayonunun Papravənd kəndində gedən döyüşdə yaralanaraq əsir götürülüb.

Döyüş yoldaşı - Bakı şəhəri, Atatürk prospekti, ev 37, mənzil 114-də yaşayan Qədirov Bəxtiyar Hüseyn oğlunun verdiyi məlumata görə, 31 yanvar 1994-cü ildə Papravənd kəndində gedən döyüşdə onun yaralandığının və ermənilər tərəfindən əsir götürüldüyünün şahidi olub.

**Sadigov Arif Vagif oglu**

Sadigov Arif Vagif oglu was born in 1975. On the 31st of January, 1994 during fight for Papravand village of Aghdam district wounded Arif was taken prisoner by Armenians.

According to the information of his front-line comrade Gadirov Bakhtiyar Huseyn oglu (he lives in Baku, Ataturk avenue, 37, app.114), he witnessed that Arif was wounded and taken prisoner by Armenians on the 31st of January, 1994.



**Sadıqov Elbrus Əli oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Tovuz rayonunun Qədirli kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 1992-ci ilin fevral ayında Laçın rayonunun Fingə kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Qohumu-Tovuz rayonu Qədirli kənd sakini,Sadıqov Məhərrəm Mirzə oğlunun dediyinə görə,döyüş yoldaşları ona Elbrusun yaralı vəziyyətdə əsir götürüldüyünü deyiblər.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Qaqikdən (Yerevan şəhəri, tel: 63-60-70) aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Sadıqov Elbrus Əli oğlunun da adı olub . Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

**Sadigov Elbrus Ali oglu**

Sadigov Elbrus Ali oglu was born in Gadirli village of Tovuz district of Azerbaijan Republic in 1972. He took part in fights for Garabagh. In February of 1992 during the fight in Finga village of Lachin district Elbrus was taken prisoner by Armenians.

According to the words of his relative Sadigov Maharram Mirza oglu who lived in Gadirli village of Tovuz district, his front-line comrades said that wounded Elbrus was taken prisoner.

When Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village searched for his sister Huseynova Tamara Saleh gizi, he got a list of Azerbaijani prisoners of war and hostages from Gagik (Yerevan city, phone: 63-60-70) in Tbilisi. There was the name of Sadikhov Elbrus Ali oglu in the list. It was shown that he was kept in Upper Garabagh.

**Sadıqov
Emin
Qurban oğlu**

1974-cü ildə Bakı şəhərində anadan olub. 19 yanvar 1993-cü ildə Xətai Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Milli Qvardiyanın tərkibində Ağdam uğrunda döyüşlərdə iştirak edib. 4 iyul 1993-cü ildə Ağdam rayonunun Əhmədavar kəndində gedən döyüşdə əsir götürülüb.

Atası-Bakı şəhəri, Neapol küçəsi, ev 28, mənzil 62-də yaşayan Sadıqov Qurban Abbas oğlunun dediyinə görə, oğlunun axtarışı zamanı döyüş yoldaşlarından Eminin əsir götürüldüyünü öyrənib.

Anasının verdiyi məlumata görə, 1994-cü ildə milliyyətcə gürcü olan bir nəfər şəxs (təhlükəsizliyini təmin etmək üçün adını bildirməyib) onlara zəng vurub, Eminin sağ olduğunu və Ermənistanda saxlandığını deyib.



**Sadigov
Emin
Gurban oglu**

Sadigov Emin Gurban oglu was born in Baku in 1974. On the 19th of January, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Khatai district. Emin took part in fights for Aghdam allotted to National Guards. On the 4th of July, 1993 during the fight for Ahmadavar village of Aghdam district he was taken prisoner by Armenians.

According to the words of his father Sadigov Gurban Abbas oglu (he lives in Baku, Neapol Street, 28, app.62), while searching for his son, he found out from Emin's frontline comrades that he was taken prisoner.

According to the information of his mother, a Georgian (he didn't say his name because of safety) rang them up and said that Emin was alive and kept in Armenia.

**Sadıqov
Faiq
Ağakişi oğlu**

1969-cu ildə Bakı şəhərində anadan olub. 1992-ci ilin dekabr ayında Xətai Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Laçın uğrunda döyüşlərdə iştirak edib. 17 avqust 1993-cü ildə Laçın rayonunun Fərəcan kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Bakı şəhəri, Cavanşir küçəsi, ev 15A, mənzil 30-da yaşayan Sadıqov Ağakişi Ərəstun oğlunun verdiyi məlumata görə, dö-



**Sadigov
Faig
Agakishi oglu**

Sadigov Faig Agakishi oglu was born in Baku in 1969. In December of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Khatai district. Faig took part in fights for Lachin district allotted to Vagif Jabbarov's battalion. On the 17th of August, 1993 during the fight in Farajan village of Lachin district he was taken prisoner by Armenians and then he was kept in Upper Garabagh.

According to the information of his father

yüş yoldaşı-Xətai rayonu Neapol küçəsi 11, mənzil 106-da yaşayan Kuroçkin Gennadi Vladimiroviç ona Faiqin Əliyev Həsən Əkbər oğlu ilə birlikdə yaralı hərbçi Ehtiramı xilas etməyə getdiyini, ermənilər tərəfindən əsir götürüldüyünü deyib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu izahatında yazıb ki,qarşı tərəflə radiodanışıqlar zamanı erməni polisinin əməkdaşı Edikdən Sadıqov Faiqin əsir alınıb,Dağlıq Qarabağda saxlandığını öyrənib.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin 1993-cü ildə verdiyi arayışda da bu fakt təsdiqlənib.

Sadigov Agakishi Arastun oglu (he lives in Baku, Javanshir Street, 15 «A», app.30), his front-line comrade Kurochkin Gennadi Vladimirovich (he lives Khatai district, Neapol Street, 11, app.106) said that Faig with Aliyev Hasan Akbar oglu went to help wounded Ehtiram. They didn't return and then Armenians took them as prisoners.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) wrote a statement that during radio communication with Armenian policeman Edik informed that Faig was taken prisoner and kept in Upper Garabagh.

According to the information of Azerbaijan National Committee of Helsenki Civil Assembly, it's shown that Sadigov Faig was taken prisoner and kept in Upper Garabagh.

### Sadıqov Mahir İkram oğlu



1971-ci ildə anadan olub. 1992-ci ilin avqust ayında Əli Bayramlı Şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 7 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Çıldıran kəndində gedən döyüş zamanı əsir götürülüb.

Qardaşı - Hacıqabul rayonu Qarasu kənd sakini Sadıqov Həbib İkram oğlunun məlumatına görə,erməni əsirliyindən qayıtmış,Əli Bayramlı şəhəri,20 Yanvar küçəsi 7A,mənzil 12-də yaşayan Gülmalıyev Daşqın Rahil oğluna Mahirin şəklini göstərdikdə onu tanıyıb. Daşqın onun işğal olunmuş Ağdamda təsərrüfat işlərinə cəlb olunduğunu deyib.

Gülmalıyev Daşqın Rahil oğlu ərizəsində göstərib ki, bir həftə Mahirlə birlikdə Xankəndi həbsxanasında qalıblar. Ermənilər işğal olunmuş Ağdamın anbarlarından taxılı

### Sadigov Mahir Ikram oglu

Sadigov Mahir Ikram oglu was born in 1971. In August, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Ali Bayramli town. On the 7th of September, 1992 during fight for Childiran village of Aghdara district Sadigov Mahir was taken prisoner.

According to the information of his brother Sadigov Habib Ikram oglu who lived in Garasu village of Hajigabul district, when he showed Mahir's picture, Gulmaliyev Dashgin Rahil oglu who returned from Armenian captivity (now he lives in Ali Bayramli town, 20 January Street, 7A, app.12) recognized him. Dashgin said that man's name was Mahir and he was forced for agricultural work by Armenians in occupied Aghdam.

Gulmaliyev Dashgin Rahil oglu wrote a

onlara daşıtdırıblar. Sonradan onu Şuşa həbsxanasına apardıqları üçün bir daha Mahiri görməyib.



## Salayev Xəqani Şəfaqət oğlu

1969-cu ildə anadan olub. 29 aprel 1920-ci ildə Əzizbəyov Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırıllıb. Taqım komandiri, gizir Salayev Xəqani Ağdam rayonu uğrunda döyüşlərdə iştirak edib. 1 sentyabr 1992-ci ildə Sırxavənd kəndində gedən döyüşdə əsir götürülüb.

Qardaşı-Bakı şəhəri, Binə qəsəbəsi, Marxevka küçəsi, ev 23-də yaşayan Salayev Vidadi Şəfaqət oğlunun verdiyi məlumata görə, Cəbrayıl rayon sakini Vaqif Əlisoy ona Xəqaninin əsir götürülüb, Hadrut rayonunun Tuğ kəndində milliyyətcə erməni olan Maya adlı qadının evində Zakir, Tahir və Mişa ləqəbli əsirlə birlikdə saxlandığını deyib.

Erməni əsirliyindən azad olunmuş Ucar şəhəri, 28 May küçəsi, ev 7-də yaşayan Məmmədov Mayıl Məmmədəli oğlu izahatında yazıb ki, 1993-cü ildə Hadrut rayonunun Tuğ kəndində saxlanılan vaxt Salayev Xəqani ilə rastlaşıb.

statement that he was kept with Mahir in Khankandi prison. Armenians made them bring wheat from Aghdam's barns. Then he was sent to Shusha prison and Mahir didn't see him any more.

## Salayev Khagani Shafagat oglu

Salayev Khagani Shafagat oglu was born in 1969. On the 29th of April, 1920 he was called up for military service by the Military Registration and Enlistment Office of Azizbeyov district. The commander of troop ensign Salayev Khagani took part in fights for Aghdam. On the 1st of September, 1992 during the fight in Sirkhavand village of Aghdam district he was taken prisoner by Armenians.

According to the information of his brother Salayev Vidadi (he lives in Baku, Bina settlement, Markhevka Street, 23), Vagif Alisoy from Jabrayil district said him that Khagani was taken prisoner and kept with men whose nickname were Zakir, Tahir and Misha in a house of Armenian woman Maya in Tug village of Hadrud district.

Mammadov Mayil Mammadali oglu who returned from Armenian captivity (now he lives in Ujar town, 28th of May Street, 7) wrote a statement that when he was kept in Tug village of Hadrud district, he met Salayev Khagani in 1993.



**Salmanov**
**Mahir**
**Mahmud oğlu**

1971-ci ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Dünyamallar kəndində anadan olub. 1992-ci ildə könüllü olaraq Şuşa uğrunda döyüşlərə yollanıb, Ramiz Qənbərovun özünümüdafiə taborunda döyüşüb. 8 may 1992-ci ildə Şuşa şəhərində əsir götürülüb.

Atası-Beyləqan rayonu Dünyamallar kənd sakini Salmanov Mahmud Baxış oğlunun verdiyi məlumata görə, 1993-cü ilin avqust ayında Füzuli rayonunda hərbi hissədə xidmət edən bir zabitlə əsgər onlara gəlib. Hərbçilərin dediyindən məlum olub ki, ermənilər həmin rayonun Yağlıvənd kəndi ərazisində yerləşən hərbi hissənin rabitəçisi ilə əlaqə yaradıb, ona qarşı tərəfdə saxlanılan azərbaycanlı əsirlər haqqında məlumat veriblər. Əsirlərdən biri ilə danışmaq imkanı da yaradıblar. Həmin şəxs Beyləqan rayonu Dünyamallar kənd sakini Salmanov Mahir Mahmud oğlu olub. Rabitə postu Bəhmənli kəndində yerləşdiyi üçün atası onunla danışmaq üçün oraya gəlib, bir qədər gözləməli olub. Həmin ərəfədə ermənilərin hücumu başlayıb, danışıq aparmaq mümkün olmayıb.

Erməni əsirliyindən qayıtmış Beyləqan rayonu Dünyamallar kənd sakini Sarıyev Əli Zöhrab oğlu izahatında yazıb ki, Şuşa həbsxanasında Qarik adlı erməni zabiti orada 16 azərbaycanlı hərbçinin saxlandığını bildirib. Onun dediyinə görə, həmin əsirlər Şuşanın işğalı günü 5 erməni öldürüb, 6 nəfəri yaralayıb, bir tank vurublar. Slavik Mkrtıçyan adlı erməni nəzarətçisi də bunları deyib. Slavik həmin könüllülərin Şuşanı Turşsu istiqamətində müdafiə etdiklərini, Ermənistandan gələn taborun azərbaycanlı döyüşçüləri əsir götürüb, Stepanovan şəhərinə apardıqlarını da əlavə edib. Əli Sarıyev Salmanov Mahir

**Salmanov**
**Mahir**
**Mahmud oglu**

Salmanov Mahir Mahmud oglu was born in Dunyamallar village of Beylagan district of Azerbaijan Republic in 1971. In 1992 he voluntarily was sent to fight for Shusha and fought allotted to self-defense battalion organized by Ramiz Ganbarov. On the 8th of May, 1992 during the day of Shusha’s occupation by Armenians Mahir was taken prisoner.

According to the information of his father Salmanov Mahmud Bakhish oglu who lived in Dunyamallar village of Beylagan district, an officer (he forgot his name) from a military unit in Fuzuli district came to his place in August of 1993. In accordance with the words of military men, it’s known that Armenians connected with a signaler from military unit in Yaglivand village of the same district and informed about Azerbaijani prisoners kept by them. One of the prisoners was given an opportunity to talk. That man was Salmanov Mahir Mahmud oglu who lived in Dunyamallar village of Beylagan district. The point of communication was in Bahmanli village and his father came there. He had to wait a little bit. At that moment Armenians began to attack and it was impossible to talk.

Sariyev Ali Zohrab oglu who returned from Armenian captivity and lived in Dunyamallar village of Beylagan district wrote a statement that when he was kept in Shusha prison, an Armenian officer Garik informed that there were 16 Azerbaijani military men. According to his words, during the day of Shusha’s occupation those prisoners killed 5 Armenians, 6 men were wounded and fired upon a tank. Armenian observer whose name was Slavik Mkrtichyan confirmed that fact. Slavik added that when those volun-

Mahmud oğlunun, Fərəcov Mais Şəmil oğlunun, Məmmədov İltifat Əliyusif oğlunun, Eyvazov İsmayıl Şükür oğlunun və Həşimov Zakir Cəmil oğlunun da həmin əsirlərin arasında olduğunu öyrənib.

Əsir Eyvazov İsmayılın atası-Beyləqan rayonu Dünyamallar kənd sakini Eyvazov Şükür Xanoğlan oğlu ərizəsində 1993-cü ilin əvvəlində Naxçıvan Muxtar Respublikasının Sədərək kəndindəki hərbi hissədən ermənilərlə radiorəlaqə yaratdığını yazıb. Qarşı tərəf itkin düşmüş 11 ermənini axtarıb tapacağı, şəkillərini çəkdirib, göndərəcəyi təqdirdə Şuşanın işğalı zamanı əsir götürülmüş Beyləqan rayonunun Dünyamallar kənd sakinləri - Salmanov Mahir Mahmud oğlu, Fərəcov Mais Şəmil oğlu, Məmmədov İltifat Əliyusif oğlu, Eyvazov İsmayıl Şükür oğlu və Həşimov Zakir Cəmil oğlu ilə dəyişəcəklərini bildiriblər. Ermənilər tapılmadığı üçün Mahirgilin dəyişdirilməsi də baş tutmayıb.

taries defended Turshsu village of Shusha battalion came from Armenia, they took Azerbaijani fighters as prisoners. They took them to Stepanovan. Ali Salmanov found out that Mahir Mahmud oglu, Farajov Mais Shamil oglu, Mammadov Iltifat Aliyusif oglu, Eyvazov Ismayil Shukur oglu and Hashimov Zakir Jamil oglu were between those prisoners.

The father of prisoner of war Eyvazov Ismayil □ Eyvazov Shukur Khanoglan oglu who lived in Dunyamallar village of Beylagan district wrote a statement that he connected by radio communication with Armenians in military unit in Sadarak village of the Nakhchivan Autonomous Republic at the beginning of 1993. The opposite side informed that if they searched for 11 missed Armenians, found and took their pictures they would send Salmanov Mahir Mahmud oglu, Farajov Mais Shamil oglu, Mammadov Aliyusif oglu, Eyvazov Ismayil Shukur oglu and Hashimov Zakir Jamil oglu who lived in Dunyamallar village of Beylagan district during the occupation of Shusha.

## Sarıyev Mübariz Zalış oğlu

1971-ci ildə Azərbaycan Respublikasının Ağcabədi rayonunda anadan olub. 1992-ci il noyabr ayının əvvəllərində Ağcabədi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Füzuli rayonu uğrunda döyüşlərə göndərilib. 20 noyabr 1992-ci ildə Füzuli rayonunun Əmrallar kəndində gedən döyüşdə əsir götürülüb.

Anası-Ağcabədi rayonu S. Vurğun küçəsi, ev 185-də yaşayan Ağalarova Həvva



## Sariyev Mubariz Zalish oglu

Sariyev Mubariz Zalish oglu was born in Aghjabadi district of Azerbaijan Republic in 1971. In November of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Aghjabadi district and then he was sent to fight for Fuzuli district. On the 20th of November, 1992 during the fight in Amrallar village of Fuzuli district Mubariz was taken prisoner.

According to the words of his mother Agalarova Havva Ashraf gizi (she lives

Əşrəf qızının dediyinə görə, Mübarizin axtarışı zamanı döyüş yoldaşları onun əsir götürüldüyünü bildiriblər.

Döyüş yoldaşı-Ağcabədi rayonu Hacıbədəlli kənd sakini Cəlilov Bəxtiyar Həsən oğlunun məlumatına görə, Əmrallar kəndində gedən qızğın döyüş zamanı Mübariz sinəsindən ağır yaralı vəziyyətdə döyüş meydanında qalıb.

Aghjabadi district, S.Vurgun Street, 185), while searching for her son his front-line comrades informed that he was taken prisoner.

According to the information of his front-line comrade Jalilov Bakhtiyar Hasan oglu who lived in Hajibadali village of Aghjabadi district during the fight in Amrallar village Mubariz was wounded in chest. In spite of soldiers came back wounded Mubariz stayed there.

**Səfərəliyev Seymur Əsgər oğlu**



1974-cü ildə Azərbaycan Respublikasının Siyəzən şəhərində anadan olub. 4 fevral 1993-cü ildə Dəvəçi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Qarabağ uğrunda döyüşlərə göndərilib. 16 iyun 1993-cü ildə Ağdam rayonunun Qalayçılar kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Siyəzən şəhəri, Azadlıq küçəsi, ev 9-da yaşayan Səfərəliyev Teymur Əsgər oğlu izahatında yazıb ki, Seymurun döyüş yoldaşı Ağayev Şahinin (sonradan şəhid olub) dediyinə görə, ermənilər Qalayçılar kəndində əsgərləri mühasirəyə alıb, əsir götürüblər. Həmin əsirlərin arasında Səfərəliyev Seymur da olub. Şahinlə birlikdə 16 nəfər çayı üzərək mühasirəni yara bilib.

Əsir götürülmüş Əliyev İlqar Səftər oğlunun qardaşı-Bakı şəhəri, 9-cu mikrorayon, Cavadxan küçəsi, ev 4, mənzil 175-də yaşayan Əliyev İlham Səftər oğlunun verdiyi məlumata görə, 1999-cu ilin oktyabr ayında «ANS» telekanalının «Xəbərçi» informasiya proqramında Ermənistanda saxlanılan azərbaycanlı hərbi əsirlərlə bağlı videomaterial-

**Safariliyev Seymur Asgar oglu**

Safariliyev Seymur Asgar oglu was born in Siyazan town of Azerbaijan Republic in 1974. On the 4th of February, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Davachi district. Seymur was sent to fight for Garabagh. On the 16th of June, 1993 during the fight in Galaychilar village of Aghdan district he was taken prisoner by Armenians.

His brother Safariliyev Teymur Asgar oglu (he lives in Siyazan town, Azadlig Street, 9) wrote a statement that Seymur's front-line comrade Agayev Shahin (then he died) said Armenians surrounded soldiers in Galaychilar village, didn't fire upon them and took them as prisoners. There was Safariliyev Seymur between those prisoners. Shahin with 16 men swam in the river and broke out of encirclement.

The brother of prisoner of war Aliyev Ilgar Saftar oglu – Aliyev Ilham Saftar oglu (he lives in Baku, 9th microdistrict, Javadkhan Street, 4, app.175) informed that it was shown an informational program

lar nümayiş etdirilib. Həmin videomateriallarda Əliyev İlqarla birlikdə Siyəzən şəhər sakini Səfərəliyev Seymur Əsgər oğlu da göstərilib.

«Khabarchi» concerning Azerbaijani prisoners kept in Armenia on «ANS» TV in October of 1999. Aliyev Ilgar and Safaraliyev Seymur Asgar oglu who lived in Siyazan town were shown.

**Səfərov Akif Binnət oğlu**



1973-ci ildə Azərbaycan Respublikası Ağcabədi rayonunun Hindarx kəndində anadan olub. 4 yanvar 1994-cü ildə Xocavənd rayonunun Pirəbulaq kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Cəbrayıl rayonu Soltanlı kənd sakini Məmmədov Əli Məmməd oğlunun dediyinə görə,1994-cü ilin avqust ayında əslən Ağcabədi rayonundan olan Səfərov Akiflə birlikdə Şuşa həbsxanasında saxlanılıb. Azad olunduqdan sonra onun taleyi haqqında heç bir məlumat öyrənə bilməyib.

**Safarov Akif Binnat oglu**

Safarov Akif Binnat oglu was born in Hindarkh village of Aghjabadi district of Azerbaijan Republic in 1971. On the 4th of January, 1994 during the fight in Pirabulag village of Khojavand district he was taken prisoner by Armenians.

According to the words of Mammadov Ali Mammad oglu who returned from Armenian captivity and lived in Soltanli village of Jabrayil district, he with Safarov Akif from Agjabadi district was kept in Shusha prison. When he was released, he couldn't find out any information concerning his further life.

**Səfərov Asif Salman oğlu**



1975-ci ildə Azərbaycan Respublikası Zaqatala rayonunun Faldar kəndində anadan olub. 1993-cü ildə Zaqatala Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Rövşən Əkbərovun komandirlik etdiyi piyada alayının tərkibində Füzuli rayonunda gedən dö-

**Safarov Asif Salman oglu**

Safarov Asif Salman oglu was born in Faldar village of Zagatala district of Azerbaijan Republic. In 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Zagatala district. Asif took part in fights in Fuzuli district allotted to

yüşlərdə iştirak edib. 7 yanvar 1994-cü ildə Füzuli rayonunun Qaraxanbəyli kəndində gedən döyüş zamanı çiynindən yaralanıb. Ağır yaralı vəziyyətdə 4 erməni onu sürüyə-sürüyə aparıb.

Bu məlumatı bacısı- Abşeron rayonu Xırdalan qəsəbəsi,28-ci məhəllə,ev 12,mənzil 70-də yaşayan Səfərova Nərgiz Salman qızı Asifin axtarışı zamanı onun döyüş yoldaşlarından öyrənib.

Erməni əsirliyindən qayıtmış Xaçmaz şəhəri,Qələbə küçəsi,ev 5,mənzil 99-da yaşayan Salahov Rövşən Əziz oğlu izahatında yazıb ki, 1994-cü ildə Xankəndi şəhərində yerləşən müvəqqəti saxlama təcridxanasında Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən Səfərov Asiflə birlikdə olub.

Erməni əsirliyindən qayıtmış İmişli rayonu Sarxanlı kənd sakini Əhmədov Rasət Əhməd oğlunun dediyinə görə,1994-cü ildə Xankəndi xəstəxanasında saxlanılan zaman azərbaycanlı əsirlərin arasında Səfərov Asifi görüb.

Bacısının həyat yoldaşı-Abşeron rayonu Xırdalan qəsəbəsi,28-ci məhəllə,ev 12,mənzil 70-də yaşayan Mahmudov Oruc Qurban oğlu Asifin axtarışı zamanı 7 azərbaycanlı əsirin valideyni ilə birlikdə Albert Voskanyan və Armais Saakyanla görüşüb. Erməni tərəfin nümayəndələri onlara Azərbaycanda saxlanılan Qarnik Arustumyan və Arkadi Ayriyandan məktub gətirəcəkləri təqdirdə Beynəlxalq Qırımızı Xaç Komitəsindən gizlədilən 27 nəfərin,Səfərov Asif də daxil olmaqla üçünü azad edəcəklərini vəd ediblər.

Beynəlxalq Qırımızı Xaç Komitəsinin verdiyi məlumata görə,1994-cü ildə Səfərov Asif Xankəndi şəhərində yerləşən təcridxanada saxlanılıb.

foot regiment under Rovshan Akbarov's command. On the 7th of January, 1994 during the fight in Garakhanbeyli village of Fuzuli district he was wounded in shoulder. 4 Armenians took seriously wounded Asif as a prisoner.

While searching for her brother, his sister Safarova Nargiz Salman gizi (she lives in Absheron district, Khirdalan settlement, 28 quarter, app.12) got that information from his front-line comrades.

Salahov Rovshan Aziz oglu who returned from Armenian captivity (he lives in Khachmaz town, Galaba Street, 5, app. 5) wrote a statement that he was kept in Temporary Investigatory Isolation in Khankandi town with Safarov Asif in 1994 who was hidden from ICRC.

According to the words of Ahmadov Rasat Ahmed oglu who returned from Armenian captivity and lived in Sarkhanli village of Imishli district, when he was kept in Khankandi hospital, Safarov Asif was also between other Azerbaijani prisoners in 1994.

When his sister's husband Mahmudov Oruj Gurban oglu (he lives in Absheron district, Khirdalan settlement, 28 guarter, app.12) searched for Asif, he with the parents of 7 Azerbaijani prisoners met Albert Voskanyan and Armais Saakyan. The representatives of Armenian side said if they brought a letter from Garnik Arustamyan and Arkadi Ayriyan kept in Azerbaijan, they would release 27 men hidden from ICRC including Safarov Asif.

According to the information of ICRC, Safarov Asif was kept in Investigatory Isolation in Khankandi town in 1994.



**Səfərov**
**Mütəllim**
**İsrayıl oğlu**

1974-cü ildə anadan olub. 1992-ci ildə Xətai rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdərə döyüşlərində iştirak edib. 16 fevral 1993-cü ildə Ağdərə rayonunun Drambon kəndində gedən döyüşdə əsir götürülüb.

Qardaşı - Bakı şəhəri, General Şıxlinski küçəsi, ev 22, mənzil 25-də yaşayan Səfərov Allahverdi İsrayıl oğlunun verdiyi məlumatda qeyd edilib ki, Mütəllimin axtarışı ilə bağlı döyüş yoldaşı, Cəbrayıl rayon sakini Məmmədov Azər onun əsir götürüldüyünü və Şuşa şəhərində saxlandığını deyib.

Erməni əsirliyindən qayıtmış Beyləqan rayonu Dünyamallar kənd sakini Sarıyev Əli Söhrab oğlu Şuşa həbsxanasında Mütəllimlə birlikdə saxlandığını bildirib.

1993-cü ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin təqdim etdiyi Xankəndində saxlanılan azərbaycanlı əsirlərin siyahısında Səfərov Mütəllimin də adı olub.

**Safarov**
**Mutallim**
**Israyil oglu**

Safarov Mutallim Israyil oglu was born in 1974. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office Khatai district. Safarov Mutallim took part in fights for Aghdara district. On the 16th of February, 1993 during the fight for Drambon village of Aghdara district Mutallim was taken prisoner by Armenians.

According to the information of his brother Safarov Allahverdi Israyil oglu (he lives in Baku, General Shikhlinski Street, 22, app.25), his front-line comrade Mammadov Azer who lived in Jabrayil district noted that he was taken prisoner and kept in Shusha town.

Sariyev Ali Sohrab oglu who lived in Dunyamallar village of Beylagan district informed that he with Muttalim was kept together in Shusha prison.

According to a list of Azerbaijani prisoners kept in Khankandi represented by ICRC in 1993, there was the name of Safarov Mutallim in that list.



**Səfərov**
**Rafiq**
**Bayram oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Neftçala rayonunun Xəzərkənd kəndində anadan olub. 10 may 1992-ci ildə Neftçala Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdamın müda-

**Safarov**
**Rafig**
**Bayram oglu**

Safarov Rafig Bayram oglu was born in Khazarkand village of Neftchala district of Azerbaijan Republic in 1974. On the 10th of May, 1992 he was called up for military service by the Military Registration

fiəsində fəal iştirak edib. 12 iyun 1992-ci ildə Ağdamın Şelli kəndində gedən döyüş zamanı yaralanaraq əsir götürülüb.

Qardaşı - Bakı şəhəri, Nəsimi rayonu Azadlıq prospekti 43, mənzil 46-da yaşayan Səfərov Kərəm Bayram oğlunun verdiyi məlumata görə, Rafiqin döyüş yoldaşları və onunla eyni hərbi hissədə qulluq etmiş yaxın qohumu, Neftçala rayonu Xəzərkənd kənd sakini Baxışov Rəfail Əhmədxan oğlu Səfərovun yaralı vəziyyətdə Qaraqayanın taxıl zəmilərinə tərəf getdiyini görüblər. Ermənilər onu əsir götürüb, Dağlıq Qarabağda saxlayıblar.

and Enlistment Office Neftchala district. Safarov Rafig took active part in defense of Aghdam. On the 12th of June, 1992 during fight for Shelli village of Aghdam wounded Rafig was taken prisoner.

According to his brother's information Safarov Karam Bayram oglu (he lives in Baku, Nasimi district, Azadlig avenue, 43, app.46), Rafig's front-line comrade and close relative who served with him in the same military unit Bahishov Rafael Ahmedkhan oglu who lived in Khazarkand village of Neftchala district saw wounded Safarov going to granary. Armenians took him as a prisoner and kept in Upper Garabagh.



## Səfiyev Elxan Nəsib oğlu

1961-ci ildə anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri işğal olunan gün əsir götürülüb.

Bacısı - Xocalı şəhər sakini, Naftalan şəhəri, «Şirvan» sanatoriyasında məskunlaşmış Səfiyeva Reyhan Nəsib qızının dediyinə görə, 1992-ci ildə Hüseynov Valeh Sahib oğlu onun qardaşının Əsgəran Rayon Polis Şöbəsində, 1995-ci ildə Füzuli rayon sakini Elxan adlı bir nəfər isə Şuşa şəhər həbsxanasının 10-cu kamerasında saxlandığını bildirib.

Erməni əsirliyindən qayıtmış Xocalı şəhər sakini, Naftalan şəhərində yerləşən «Goran» sanatoriyasında məskunlaşmış Hüseynov Valeh Sahib oğlu 1992-ci ildə Əsgəran Rayon Polis Şöbəsinin təcridxanrasında saxlanılan zaman həmyerlisi Səfiyev Elxanı da orada gördüyünü deyib.

## Safiyev Elkhan Nasib oglu

Safiyev Elhan Nasib oglu was born in 1961. On the 26th of February, 1992 duting occupation of Khojali town of Azerbaijan Republic by Armenian armed forces he was taken prisoner.

According to his sister's words Safiyeva Reyhan Nasib gizi who lived in Khojali town (at present she lives in sanatorium «Shirvan» in Naftalan town), the brother of Huseynov Valeh Sahib oglu saw him in Asgaran police department in 1992 and Elkhan who lived in Fuzulu district was kept in cell „ 10 of Shusha prison in 1995.

Huseynov Valeh Sahib oglu who lived in Khojali town (now he lives in «Goran» sanatorium situated in Naftalan town) and returned from Armenian captivity saw his villager Elkhan in isolation of Police Department of Asgeran in 1992.



**Səlimov**
**Elxan**
**Səlim oğlu**

1957-ci ildə Bakı şəhərində anadan olub. 1993-cü ilin noyabr ayında Qarabağ uğrunda döyüşlərə yollanıb. Kəlbəcər döyüşlərində iştirak edib. 2 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Cəmilli kəndi uğrunda döyüşdə Alışov Feyruz Bəyiş oğlu (tabor komandiri), Hümbətov Xalid Əli oğlu (taborun qərargah rəisi), Süleymanov Şahin Ənvər oğlu (taqım komandiri), Mehdiyev Mirzəli Yəhya oğlu (taqım komandiri), Məmmədov Babək Fərman oğlu (rabitəçi), Əliyev Ədalət Veysəl oğlu (sıravi) ilə birlikdə yaralı vəziyyətdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış döyüş yoldaşı-Göyçay rayonu Şəkər kənd sakini Əhmədov Firudin ərizəsində yazıb ki, 2 fevral 1993-cü ildə pusquya düşərək güclü atəşə məruz qalıblar, nəticədə Elxan yaralanıb, yerə yıxılıb. Ermənilər onu əsir götürüb, Susuzluq kəndində saxlayıblar. Ermənilərdən biri Elxana məxsus əşyaları (saatını, gündəliyini, məktublarını və s.) Firudinə göstərib, onu 30 güllə ilə qətlə yetirdiyini bildirib. Bundan sonra o, Elxan haqqında məlumat əldə edə bilməyib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu izahatında yazıb ki, qarşı tərəflə aparılan radiodanışıqlar zamanı Albert Voskanyandan Səlimov Elxanın əsir alınıb, Xankəndi şəhərində saxlandığını öyrənib.

**Salimov**
**Elkhan**
**Salim oglu**

Salimov Elkhan Salim oglu was born in Baku in 1957. In November of 1993 he was sent to fight for Garabagh. On the 2nd of February, 1994 during the fight for Jamilli village of Kelbajar district Alishov Feyruz Beyish oglu (the commander of battalion), Humbatov Khalid Ali oglu (the chief of staff of battalion) Suleymanov Shahin Anvar oglu (the commander of troop), Mehdiyev Mirzali Yahya oglu (the commander of troop) Mammadov Babek Farman oglu (the signaler), Aliyev Adalat Veysel oglu (common) and wounded Elkhan were taken prisoners.

